AEM

ISSN: 2663-4619
e-ISSN: 2708-986X

# ELMİ İŞ

Beynəlxalq Elmi Jurnal

## SCIENTIFIC WORK

International Scientific Journal

## ELMİ MƏNBƏLƏR
## XVI TEZİSLƏR TOPLUSU

## SCIENTIFIC SOURCES
## XVI COLLECTION OF THESES

# ELMİ İŞ

**Beynəlxalq Elmi Jurnal**

# ELMİ MƏNBƏLƏR

## XVI TEZİSLƏR TOPLUSU

https://doi.org/10.36719/2024/XVI

# SCIENTIFIC WORK

**International Scientific Journal**

# SCIENTIFIC SOURCES

## XVI COLLECTION OF THESES

**Bakı – Baku**
**2024**

Jurnal 25.04.2007-ci ildə
Azərbaycan Respublikası Ədliyyə
Nazirliyi Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.
Reyestr № 2212

---

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
25.04.2007.
Registration No. 2212

---

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 99 809 67 68
+994 99 808 67 68
+994 12 510 63 99

**e-mail**
tezis.aem@aem.az

## Beynəlxalq indekslər / International Indices

**ISSN: 2663-4619**
**e-ISSN: 2708-986X**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

**Redaktor**

**Prof. Dr. Mahirə HÜSEYNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
huseynova.mahira@yandex.ru

**Redaktor köməkçisi**

**Magistrant Nəzakət QƏHRƏMANZADƏ**,
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi / Azərbaycan
qehremanzade77@mail.ru

**ÜZVLƏR**

**Prof. Dr. Xəlil KƏLƏNTƏR**, Tohoku Universteti / Yaponiya
**Prof. Dr. Yalçın ƏFƏNDİYEV**, Texas A&M Universiteti / ABŞ
**Prof. Dr. Vaqif ABBASOV**, AMEA Neft-Kimya Prosesləri İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar VƏLİYEV**, Milli Texniki Universitet / Ukrayna
**Prof. Dr. İbrahim CƏFƏROV**, AMEA / Azərbaycan
**Prof. Dr. Elşad QURBANOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Ali AZQANİ**, Taylerdəki Texas Universiteti / ABŞ
**Prof. Dr. Ceyran MAHMUDOVA**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Nadir İLHAN**, Ahi Evran Universiteti / Türkiyə
**Prof. Dr. Qəzənfər KAZIMOV**, AMEA Dilçilik İnstitutu / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. İradə HÜSEYNOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. İlham MƏMMƏDLİ**, AMEA Ədəbiyyat İnstitutu / Azərbaycan
**Prof. Dr. Eldar QASIMOV**, Azərbaycan Tibb Universiteti / Azərbaycan
**Prof. Dr. Natalya MİŞİNA**, Odessa Hüquq Akademiyası / Ukrayna
**Prof. Dr. Onur URAL**, Selcuk Universiteti / Türkiyə
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yıldırım Beyazıt Universiteti / Türkiyə
**Prof. Dr. Əmir ƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. İrina KREYDİÇ**, Ukrayna Milli Texniki Universitetinin "İqor Sikorski adına Kiyev Politexnik İnstitutu" / Ukrayna
**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
**Prof. Dr. Zahid MƏMMƏDOV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan

**Prof. Dr. Şəhanə HÜSEYNOVA**, Berlin Texniki Universiteti / Almaniya
**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Şahnaz ŞAHBAZOVA**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. Saodat MUXAMEDOVA**, Daşkənd Pedaqoji Universiteti / Özbəkistan
**Prof. Dr. Rajeş KUMAR**, Mərkəzi İpək İdarəsi, Tekstil Nazirliyi / Hindistan
**Prof. Dr. Elşad MİRBƏŞİR OĞLU**, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası / Azərbaycan
**Prof. Dr. Şikar QASIMOV**, Azərbaycan Texniki Universiteti / Azərbaycan
**Prof. Dr. İya ZUMBULADZE**, Kutaisi Dövlət Unversiteti / Gürcüstan
**Assoc. Prof. Dr. Arif HÜSEYNOV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Şəkər MƏMMƏDOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Şahlar BABAYEV**, Azərbaycan Dövlət Aqrar Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Həbibə ALLAHVERDİYEVA**, Naxçıvan Müəllimlər İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Rəşid CABBAROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Elov BOTİR**, Ə.Nəvai adına Daşkənd Dövlət Özbək Dili və Ədəbiyyatı Univeristeti / Özbəkistan
**Dr. Hacer DOLANBAY**, Muş Alparslan Universiteti / Türkiyə
**Dr. Daşqın QƏNBƏROV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Dr. Rövşən RAMİZOĞLU**, Selcuk Universiteti / Türkiyə
**Dr. Elçin HÜSEYN**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti / Azərbaycan

**Founder and Editor-in-Chief**

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

**Editor**

**Prof. Dr. Mahira HUSEYNOVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
huseynova.mahira@yandex.ru

**Master student Nazakat GAHRAMANZADEH**,
Ministry of Science and Education of the Republic of Azerbaijan / Azerbaijan
qehremanzade77@mail.ru

**MEMBERS**

**Prof. Dr. Khalil KALANTAR**, Tohoku University / Japan
**Prof. Dr. Yalchin AFANDIYEV**, The University of Texas at Austin / USA
**Prof. Dr. Vagif ABBASOV**, Institute of Petrochemical Processes of ANAS / Azerbaijan
**Prof. Dr. Eldar VALIYEV**, National Technical University / Ukraine
**Prof. Dr. Ibrahim JAFAROV**, ANAS / Azerbaijan
**Prof. Dr. Elshad GURBANOV**, Baku State University / Azerbaijan
**Prof. Ali AZGANI**, The University of Texas at Tyler / USA
**Prof. Dr. Jeyran MAHMUDOVA**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Nadir ILHAN**, Firat University / Turkey
**Prof. Dr. Gazanfar KAZIMOV**, Institute of Linguistics of ANAS / Azerbaijan
**Prof. Dr. Joanna MARSHALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Irada HUSEYNOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Ilham MAMMADLI**, ANAS Institute of Literature / Azerbaijan
**Prof. Dr. Eldar GASIMOV**, Azerbaijan Medical University / Azerbaijan
**Prof. Dr. Natalya MISHINA**, Odessa Law Academy / Ukraine
**Prof. Dr. Onur URAL**, Seljuk University / Turkey
**Prof. Dr. Funda TOPRAK**, Ankara Yildirim Beyazit University / Turkey
**Prof. Dr. Amir ALIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Irina KREYDICH**, National Technical University of Ukraine «Igor Sikorsky Kyiv Polytechnic Institute» / Ukraine
**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
**Prof. Dr. Zahid MAMMADOV**, Azerbaijan State Economic University / Azerbaijan
**Prof. Dr. Masuma DAEI**, Payame Noor University, Tabriz / Islamic Republic of Iran
**Prof. Dr. Shahana HUSEYNOVA**, Technical University of Berlin / Germany
**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan

**Prof. Dr. Shahnaz SHAHBAZOVA**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Saodat MUKHAMEDOVA**, Tashkent Pedagogical University / Uzbekistan
**Prof. Dr. Rajesh KUMAR**, Ministry of Textiles, Central Silk Office / India
**Prof. Dr. Elshad MIRBASHIR OGHLU**, Academy of Public Administration under the President of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Shikar GASIMOV**, Azerbaijan Technical University / Azerbaijan
**Prof. Dr. Iya ZUMBULADZE**, Kutaisi State University / Georgia
**Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Arif HUSEYNOV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Shakar MAMMADOVA**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Shahlar BABAYEV**, Azerbaijan State Agrarian University / Azerbaijan
**Assoc. Prof. Dr. Habiba ALLAHVERDIYEVA**, Nakhchivan Teachers' Institute / Azerbaijan
**Assoc. Prof. Dr. Rashid JABBAROV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics / Azerbaijan
**Assoc. Prof. Dr. Elov BOTIR**, Tashkent State University of Uzbek Language and Literature named after A.Navai / Uzbekistan
**Dr. Hajer DOLANBAY**, Mush Alparslan University / Turkey
**Dr. Dashgin GANBAROV**, Nakhchivan State University / Azerbaijan
**Dr. Rovshan RAMIZOGHLU**, Selcuk University / Turkey
**Dr. Elchin HUSEYN**, Azerbaijan State University of Oil and Industry / Azerbaijan

Elmi Mənbələr XVI Tezislər Toplusu / 7-9
Scientific Sources XVI Collection of Theses / 7-9
doi.org/10.36719/2663-4619/2024/XVI

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Sevinc Səlimova**
Azərbaycan Dillər Universiteti
filologiya üzrə fəlsəfə doktoru
salimova_sevinc@mail.ru

# ONOMASTİK VAHİDLƏRİN ÖYRƏNİLMƏSİ TARİXİNƏ DAİR

***Açar sözlər:*** *onomastika, antroponim, təxəllüs, titul, ləqəb*
***Keywords:*** *onomastics, anthroponym, pseudonym, title, nickname*

Onomastika şəxs adları, soyadları, təxəllüsləri, ləqəb və titulları, şəhər və kənd adlarını, heyvan və bitki adlarını, planetlərin adlarını, tayfa və qəbilə adlarını birləşdirən geniş bir sahə hesab oluna bilər. Onomastika dilçiliyin bir sahəsi olmaqla tarix, mədəniyyətşünaslıq, ədəbiyyat elmlərilə də yaxından əlaqəlidir .

Dilin lüğət tərkibinin böyük bir hissəsini xüsusi adlar təşkil edir. Xüsusi adlar həm şifahi, həm də yazılı nitqdə istifadə olunan vahidlərdir. Onomastika da dildə istifadə olunan bütün xüsusi adları öyrənən bir sistem olduğuna görə, bu sahəyə xüsusi diqqət yetirilir. Müasir dövrdə onomastik vahidlər haqqında yüzlərlə lüğət tərtib edilmişdir.

A.Qurbanov, A.Axundov, A.Abbasova, İ.V.Arnold, F.Qurbanova, M.Çobanov kimi alimlərin əsərləri onomastik vahidlərlə əlaqəli məlumatları özündə əks etdirir. A.Qurbanov Azərbaycanda onomastikanın banisi hesab edilir. Onun dərslik-

**doi.org/10.36719/2663-4619/2024/XVI**

lərində nəinki onomastik vahidlər, həmçinin onların bölgüsü, üslubi və linqvistik xüsusiyyətləri haqqında məlumat verilmişdir. A.Qurbanov onomastik vahidlərin hər bir kateqoriyasını ayrı-ayrılıqda təhlil etmiş, onların ümumi nəzəriyyəsini və yaratmış olduğu qrupları araşdırmışdır. Onun poetik onomastikanın inkişafı ilə bağlı qeydləri maraq doğurmuşdur. O, poetik onomastik vahidlərin üslubi imkanlarını nəzərdən keçirərkən, əsasən, bədii ədəbiyyatda onomastik vahidlərin şifahi və yazılı istiqamətdə inkişaf xüsusiyyətlərini təhlil etmişdir. Bədii ədəbiyyatda poetik onomastikanın əhəmiyyətini vurğulayan alim, onomastik vahidlərin istifadə olunmasının məqam və formaları haqqında da qeydlər etmişdir. Ümumiyyətlə, A.Qurbanov poetik onomastikanın ayrıca bir sahə olaraq araşdırılmasına üstünlük vermişdir. Bədii ədəbiyyatda istifadə olunan xüsusi adların üslubi imkanlarının geniş olduğunu vurğulamışdır.

İngilis dilində istifadə olunan onomastik vahidlərin təhlilinə dair mülahizələr F.Qurbanovanın və A.Abbasovanın əsərlərində öz əksini tapmışdır. F.Qurbanova özünün “İngilis və Alman antroponimlərinin linqvistik xüsusiyyətləri” dərsliyində, A.Abbasova isə “İngilis və Azərbaycan antroponimlərinin semantik və üslubi xüsusiyyətləri” dərsliyində müqayisəli formada onomastik vahidlərin təhlilindən bəhs edərkən, onomastikanın ümumi dilçilikdə yeri, ayrı-ayrılıqda onomastik vahidlərin qrupları, onomastik vahidlərin semantikası və s. haqqında da kifayət qədər məlumat vermişlər. Bundan əlavə, onomastik vahidlərin üslubi xüsusiyyətlərinin araşdırılmasının vacibliyini vurğulamışlar. F.Qurbanova frazeoloji birləşmələrin dilçilikdə xüsusi bir sahə olduğunu göstərmiş və onomastikada antroponim və toponim tərkibli frazeoloji birləşmələrin vacibliyi ilə əlaqəli tədqiqat işləri aparmışdır. Onomastik vahidlərin araşdırılmasında lüğətlər əsas faktorlardan biridir. Müxtəlif məz-

**doi.org/10.36719/2663-4619/2024/XVI**

munlu xüsusi adlar lüğəti bizə onlar haqqında kifayət qədər məlumat verir. A.N.Rıbakının “Dictionary of English Personal Names” adlı lüğəti ingilis dilində şəxs adları ilə bağlı tədqiqat işinin daha dolğun olmasına şərait yaratmışdır. Şəxs adları ilə bağlı minlərlə nümunə ilə bərabər, onların etimologiyası, adların gəldiyi müxtəlif mənbələr, başqa dillərdən misallarla zəngin olan lüğət bu sahənin öyrənilməsi üçün ən əhatəli dərsliklərdəndir.

İngilis dilində onomastik vahidlərin öyrənilməsində P.Hənks (P.Hanks) və F.Hociz (F.Hodges) kimi alimlərin də materilları diqqətəlayiqdir. “A Dictionary of Surnames” və “A Dictionary of First Names” lüğətləri ingilis dilində istifadə olunan soyadlar və adlar haqqında məlumat vermişlər. Qeyd etməliyik ki, onlar həm ingilis dilində istifadə olunan soyadlar və adlar, həm də digər Avropa ölkələrində işlənən soyadlar və adların etimologiyaları, mənbələri haqqında nümunələrdən çoxlu misallar gətirmişlər.

A.Axundov özünün fəalliyyəti dövründə onomastik vahidlərə geniş yer vermişdir. Onun onomastika ilə bağlı qeydləri həmin dövrdən sonra digər dilçilər üçün zəngin bir material verir. O, ümumi dilçilikdə onomastikanın xüsusi bir tədqiqat sahəsi kimi inkişaf etməsinin tərəfdarı olmuşdur. Buna görə də, onomastikaya xüsusi diqqət və qayğı göstərmişdir.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 10-13**
**Scientific Sources XVI Collection of Theses / 10-13**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Nazilə Abdullazadə**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
pedaqogika üzrə fəlsəfə doktoru
nazile.s.m.d@mail.ru
https://orcid.org/0000-0002-1829-7178

# XX ƏSR AZƏRBAYCAN ŞAİRİ ƏLİAĞA VAHİDİN BƏHRİ-TƏVİLİ ÜZƏRİNƏ DÜŞÜNCƏLƏR

***Açar sözlər:*** *Vahid, satirik şeir, bəhri-təvil, qafiyəli nəsr*
***Keywords:*** *Vahid, satirical poem, bahri-tawil, rhyming prose*

XX əsr Azərbaycan şairi Əliağa Vahid lirik növün müxtəlif janrlarında bənzərsiz nümunələr yaradan sənətkar olmuşdur. Onun qəzəl, qoşma, mürəbbe, müxəmməs janrlarında yazdığı şeirlər mövzu rəngarəngliyinə görə səciyyələnir. Şairin irsi hələ də lazımınca araşdırılmadığındandır ki, vahidşünaslıqda ancaq lirik növdə əsərləri tədqiq olunmuş, əruz və heca vəznində şeirlərinin sənətkarlıq xüsusiyyətləri təhlilə cəlb edilmişdir. Lakin böyük sənətkarın arxiv sənədləri ilə tanışlıq zamanı Vahidin dramatik və epik növə də müraciət etdiyi aşkarlanmışdır. Belə ki, şair dramatik növdə 2 əsər (biri tamamlanmış, biri yarımçıq əlyazma şəklində), epik növdə bəhri-təvil yazmışdır. Bu yazıda Vahidin "Uzun dərya" adlandırdığı bəhri-təvili barədə söz açacağıq.

Bəhri-təvil Azərbaycan ədəbiyyatında satirik və lirik səciyyəli olub qafiyəli nəsr əsəridir. Bəhri-təvilin ilk nümunələri XX əsrin əvvəllərində böyük satirik Mirzə Ələkbər Sabir tərəfindən yaradılmış, "Molla Nəsrəddin" satirik jurnalında nəşr olunmuşdur. "Əlaman, sərkəş olub", "Ey fələk, zülmün əyandır",

doi.org/10.36719/2663-4619/2024/XVI

"Ey əzizim, xələfim" başlıqlı bəhri-təvillər bu janrın Sabir tərəfindən yaradılmış kamil nümunələri sayılır.

Həcmcə 1-2 səhifədən artıq olmayan bəhri-təvildə bütün misralar həmqafiyə olub eyni ahənglə, eyni nəfəslə oxunur. Şəkli xüsusiyyətinə görə şeirə bənzəyən bu janr sənətkardan xüsusi məharət, zəngin qafiyə quruluşu, ahəngdarlıq, gizli eyham tələb edir. Satirik məzmunlu olsa da, şirin yumor, mətnaltı məna bəhri-təvilin özəlliyidir. İctimai eyib, qınaq, ərkyana giley, şikayət məzmunlu bəhri-təvil janrına yarandığı dövrdən etibarən çox az sayda sənətkarlar müraciət etmişlər ki, bunlardan da biri Əliağa Vahid olmuşdur.

Vahid ədəbiyyatda daha çox qəzəl və meyxana ustadı kimi məşhurlaşsa da, satirik məzmunlu şeirlər də yazmış, bu şeirlərdə yaşadığı dövrün, cəmiyyətin ictimai-sosial eyiblərini qamçılamışdır. Şairin satiraları kəskin ruhu, dərin məzmunu ilə seçilməsə də, ictimai-siyasi, əxlaqi-tərbiyəvi qüsurları, qadın azadlığı, məktəb və maarif, yeni cəmiyyət, köhnə quruluş, nadanlıq, cəhalət, mövhumatı tənqid etmiş, poeziyada satirik bədii fiqurlardan istifadə etməklə Sabir xəttini davam etdirmişdir.

"Uzun dərya" adı ilə qələmə aldığı bəhri-təvildə də Vahid el şənliklərində, toylarda əski adət-ənənələri yarıyumoristik, şirin dillə təqdim edir. Şairin əlyazmalarının saxlandığı fondda (fond 2, siyahı 1, saxlama vahidi 208) qorunan əlyazmanın ikinci sətrində "meyxana" sözünün işlənməsi, şairin leksikasında tez-tez işlənən "nazlı gözəllər", "zülfü pərişan", "təzə güllər", "incə şeirlər", "qara xallar" ifadələrinin yer alması bu nümunənin Vahidə aid olduğunu təsdiq edir. Yəqin ki, el-gün adamı olan Vahid toy məclislərindən birində müşahidə etdiklərini, təəssüratını sabiranə qələmə almışdı.

Bildiyimiz kimi, Vahid çox vaxt dostların, yoldaşların əhatəsində, çay məclislərində şeirlərini bədahətən deyər, ya

**doi.org/10.36719/2663-4619/2024/XVI**

papiros qutusunun, ya da çay kağızının üzərinə bir-iki beytini qeyd edərdi ki, evdə köçürsün. Bəhri-təvili də şair, şübhəsiz ki, el məclisindən aldığı təəssüratla qələmə almışdır. Xalq danışıq dilində şirin ləhcəsilə Vahid elə səhnə yaradır ki, göz önündə köhnə Bakı toyları, el məclisi canlanır.

Bəhri-təvildə toy məclisi, xəlfənin toyu idarə etməsi, etnoqrafik xüsusiyyətlər əruzun ahəngində, yumorqarışıq təsvir olunur. Toyun tar-qaval, zurna, nağaranın müşayiətilə aparılması, toy adamlarının bir-bir xəlfə tərəfindən rəqsə dəvət olunması, hamının əl-əlvan bəzənib toya gəlməsi el toyunun milli xüsusiyyətləri kimi diqqət cəlb edir. Əsərdə xəlfə ilə yanaşı, Gülpəri adlı bir qadının da adı çəkilir. Gülpəri yaşlı-başlı bir qadındır, gənc qızları rəqsə dəvət edir ki, onları görüb bəyənsinlər. El içində, xüsusən Bakı camaatında böyük-kiçiklik, abır-həya həmişə gözlənilib. Gənc qızlar, oğlanlar böyüklərin yanında ortaya düşüb oynamaz, dəvət gözlərdilər. Yaşlı qadınlar (bu, ev yiyəsi də ola bilərdi, gənc qızın xala-bibisi də) subay qızları oynadar, elin adamları müştəri gözü ilə subaylara qız seçərdi. Gülpəri deyilən qadın da görünür, toyun qadınlar olan məclisində sözü keçən, hamını tanıyan biri kimi şairin diqqətini çəkib.

Toyda xanəndənin iştirakını Vahid xüsusi vurğulayır, o illərdə toylar xanəndəsiz keçməzdi, onu hamı intizarla gözləyərdi; toy adamları oynayıb qurtardıqdan sonra "incə şeirlər və qəzəllər" oxuyan xanəndə gələr, xoş avazı, mahnıları ilə könülləri oxşardı. O illərdə Bakı toyları, məclisləri Vahidin qəzəlləri, meyxanaları olmadan keçinməzdi, şair olduğu yerdə ya özü şeir oxuyar, ya da xanəndələr qəzəllərini ifa edərdilər, "incə şeirlər və qəzəllər"lə də Vahid şeirlərinin məclislərin bəzəyi olduğuna işarə edir.

Vahiddən sonra bəhri-təvil ədəbiyyatda geniş yayılmasa da, Baba Pünhan, R.Zəbioğlu, Hacı Arif Buzovnalı bu janra

**doi.org/10.36719/2663-4619/2024/XVI**

müraciət etmiş, "uzun dərya"nın nümunələrini yaratmışlar. Deyirlər, şairlər yaşadığı cəmiyyətin və zamanın nəbzidir. Vahidin yaradıcılığı xalqının, zamanının yaddaş nəbzidir. Şair hər sətrində, hər fikrində xalqın adət-ənənələrini, etnoqrafiyasını, sənətin, sözün sehrini, cilvəsini yaşatmış, özündən sonra əvəzsiz ərməğan qoymuşdur. Yeganə bəhri-təvili də Vahidin zəmanəsinin, sənətin, şeirin yeganəsi olduğuna vurduğu daha bir möhürdür.

**Uzun Dərya**

*İndi, yoldaş, hələlik, azca, dayan, səbr elə, dur, ya keç otur, çırtmanı vur, gör nə olur, bir bu qədər ki demişik meyxana, düz altı saat var çalınır dəf-nağara, fikrimə bax, gör yol azanlar kimi üz tutdu hara, qaldım özüm də avara, əsli o məqsəd ki varımdı, deyəcəkdim məni çaşdırdı, bu bic xəlfəmizin tərpənişi, yol-yerişi, məclisə hərdən çəpəki baxmağı, cırt atmağı, bel qurşağı, saqqal darağı, cırt çubuğu, ponza buğu, qaldı onun boy-buxunu, söyləmədim mən çoxunu, qəlbinə birdən toxunu, qoy o da qalsın gələcək toyumuza, biz indi keçək mətləbə, ay Gülpəri, dur gəl bəri, sən düş qabağa, oynamağa, qızları, oğlanları qaldır ayağa, xəlfə atır, növbə çatır, zurnaçılar da bizə bir kef verə, bir mahnı çala, səs ucala, heç bir adam qoyma qala, sonra keçək tar-qavala, əsli hala, indi növbət yetişir, ellərin ən sevgili istəklisi, xalq aşiqi xanəndə bizimçün oxusun incə şeirlər və qəzəllər, yığılıb dövrənə bir bax bu qədər nazlı gözəllər, geyinibdir hamı əlvan, təzə güllər kimi xəndan, hamının zülfü pərişan, qızaran çöhrələrində o qara xallara bir bax, elə bil dağda bitən lalələrin bağrı olub qan, sənə qurban, canım ay qız, bəyi durquz, belədir xəlqdə qayda, bəy əgər oynasa toyda, görünər ölkədə bolluq, hamımız biz də şad olluq...*

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 14-17**
**Scientific Sources XVI Collection of Theses / 14-17**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Aynur Quliyeva**
Azərbaycan Dillər Universiteti
filologiya üzrə fəlsəfə doktoru
aynurmurad@yahoo.com

# İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ RƏNG ANLAYIŞININ SEMANTİKASI

***Açar sözlər:*** *ədəbi dil, termin, məna, anlayış, çoxmənalılıq*
***Keywords:*** *literary language, term, meaning, concept, polysemy*

İnsan zaman-zaman hisslər və təcrübə sayəsində yalnız cisimlərin rəngini və digər xüsusiyyətlərini dərk etməyi deyil, həm də inkişaf etmiş hadisələri və məna sistemlərini təsnif etmək üsullarını mənimsəyərək, dünyanın mədəni mənzərəsində dil vasitəsilə bu xüsusiyyətləri təyin etməyə başlayır. Yəni, fərdin şüurunda sabit məna sistemləri formalaşmağa başlayır.

Rəng dünyanın təsvirinin tərkib hissəsi kimi mövcuddur, müxtəlifdir və  hər bir təsvirin obyektiv məzmunundan ayrılmaz olan hissəsidir. Hər bir insan üçün eyni rəng şəxsi mənadan asılı olaraq fərqli bir emosional reaksiyaya səbəb ola bilər.Rəng  geniş şəkildə tanınır və qeyri-əsas terminlərin daha geniş lüğətindən fərqli olaraq, ilkin məna kimi yaxşı ardıcıllıqla bütün dil icmasında istifadə edilə bilər (ASSOCIATIVE MEANINGS OF KISUKUMA-ENGLISH COLOUR TERMS, 2024).

Rəngin qavranılması insanın emosional vəziyyətindən asılı olduğundan ədəbi dildə də rənglər daha çox leksik-üslubi cəhətdən işlədilərək məcazi məna ifadə etdikləri üçün rənglərin daxili mənaları üzə çıxarılır. Bu isə, həm rənglərin bədii dildəki

əhəmiyyətinin hansı səviyyədə olduğunun göstəricisidir və həm də öz yazılarında rənglərdən istifadə edən müəlliflərin sənətkarlıq səviyyəsini təsdiq edən cəhət kimi diqqəti cəlb edən xüsusiyyətə malik olmasıdır. İstər Azərbaycan, istərsə də ingilis dilində rənglər adətən çoxmənalılıq ifadə edir.

Məsələn, götürək qırmızı rəngi. Qırmızı rəng hər iki dildə müxtəlif mənalar yaradır. Bu rəng, tez bir zamanda diqqəti cəlb edən, inqilabçı, sağlam, parlaqlıq, qan, məhəbbət, od, alov, əzm, canlılıq rəngidir. Qırmızı rəngin semantik cəhətdən törəmə mənası əsəbdən dərinin rənginin dəyişməsi, sözü üzə deyən (qırmızı adam) kimi mənalar ifadə edir. Nağıllarımızda tez-tez rast gəldiyimiz ifadə ”Şah qırmızı geyinib taxta çıxmışdı”, yəni qəzəbləndiyindən qırmızı geyinmişdi mənasında işlənir (2).

*To see red*. Bu ifadə, Azərbaycan dilində olduğu kimi ingilis dilində də bir insan çox qəzəbli və ya qıcıqlandıqda, bu vəziyyəti qəzəbin qırmızı rəngi ilə müqayisə edərkən istifadə olunur: *The rival team saw red when they realized they had been pranked.*

Bu rəngdən çox istifadə edildikdə aqressiya, qıcığa səbəb ola bilir. Lakin bu rəng türk təfəkküründə müqəddəslik, inkişaf, müasirlik kimi dəyərləndirilir. Bizim bayrağı-mızda olan qırmızı rəng də müasirliyi, demokratiyanı inkişaf etdirməyi,bir sözlə, inkişafı ifadə edir.

Bir çox xalqların ağ rəngə münasibəti oxşardır. Bu da başa düşüləndir: ağ rəng gündüzə, işıqlığa işarədir. Ağ sülh rəmzidir, ağ bayraq təslim olmaq, sülhə hazırlığın, razılığın əlamətidir. Ağ rəngin ifadə etdiyi digər mənalar hər iki dildə saflıq, günahsızlıq, təmizlik, ölüm, mükəmməllik, dürüstlük və baş-langıclarla əlaqələndirilir. Bir sözlə, ağ rəng dünyanı bütün müxtəlifliyi ilə dərk etməyə hazırlığın rəngidir.

Dilimizdə tez-tez işlətdiyimiz “*ağ atlı şahzadə, ağ atlı oğlan*” xilaskar qəhrəman mənasında işlədilir.

İngilis yazıçısı Tomas Hardinin əsərlərindən götürdüyümüz dil faktları ilə yuxarıda söylədiyimiz fikirlərimizi əsaslandıra bilərik. Yazıçı bu iki rəngdən bir çox şeyi təmsil etmək üçün istifadə edir, tez-tez onları xüsusilə obyektlə əlaqəli dəyişiklikləri təmsil etmək üçün qarışdırır.“Tess Dörbervils” (“Tess of the D’Urbervilles”) əsərində rənglər o qədər tələffüz olunur ki, oxucu onun ilk girişindən qəhrəmanın hekayəsini demək olar ki, proqnozlaşdıra bilər: *“And in the village of Marlott, following ancient custom,the young women gathered to dance every holiday, for this May Day dance, all wore white dresses” (5).*

Bəzən ironiya ilə işlədilən cümlələrdə ağ rəngin istifadəsi heç də təmizliyi, dürüstlüyü, günahsızlığı ifadə etmir.Məsələn, “Böyük dayaq” filmində Rüstəm kişinin acıqla dediyi *“Sağ olun, üzünüz ağ olsun, yaxşı haqq-say saxladınız*” dediyi bu cümlədə ağ rənginin istifadəsi müsbət mənada ifadə edilmir.

Üç rəngli bayrağımızda olan əsas rənglərdən biri, müsəlmanlığı bildirən yaşıl rəngi nəzərdən keçirdək. Yaşıl çox zərif bir rəngdir və təbiəti, yaşıllığı-ağacları, yarpaqları, otu xarakterizə edir.Bir sözlə,bu rəng təbiətlə birbaşa əlaqəli olduğunu, süni deyil, təbii olduğunu göstərmək üçün də istifadə olunur (3).

Yaşıl rəngini ifadə edən müxtəlif mənalar bildirən sözlər həm ingilis, həm də Azərbaycan dilində mövcuddur. Bu mənalar içərisində yalnız üç məna var ki, hər iki dildə üst-üstə düşür: a) hər iki dildə yaşıl sözü kal, yetişməmiş (green apple); b) təbiəti qoruyan hər hansı bir təşkilatı (The Green Party) və c) rəng (green pen). Azərbaycanda yaşıl duyğu-sal, arzu, murad, istək, güvənverici hesab edilən bir rəngdir. Bundan əlavə yaşıl gəncliyin, sadəlövhlüyün, həyat sevincinin

**doi.org/10.36719/2663-4619/2024/XVI**

simvoludur, təzə (green shoes), hər kəsə inanan (a green old woman), düşünülməmiş addım (a green act), yaşıl işıq (a green light) - bir işi görməyə icazə, kiməsə yaşıl işıq yandırmaq, kiməsə icazə vermək; "xəbərdarlıq etmək" mənala-rında da işlədilir. İngilis dilində yaşıl həm də qısqanclıq mənasında da işlədilir: *the green-eyed monster — jealousy, green-eyed — jealous (4)*

*Orozco is an artist at heart and created an image of the green-eyed mountain lioness for which the Leoncita block is named for the label of this wine.*

*To be green with envy*- məcazi mənada işlədilən bu idiom başqasının malik olduğu bir şeyə sahib olmaq arzusunda olmaq və ona sahib olmağı arzulamaq kimi məna ifadə edir.

**Ədəbiyyat**

1. ASSOCIATIVE MEANINGS OF KISUKUMA-ENGLISH COLOUR TERMS. (2024, July). International Journal of English Learning and Applied Linguistics (IJELAL) 4(2), 2924(ISSN: 2775-4359 (Online)190–204), 190-204.
2. Collins Dictionary. https://www.collinsdictionary.com›sentences› english
3. ICI Journals Master List https://journals.index copernicus.com THE CONCEPT OF COLOR LINGUISTICS AS ...
4. Merriam-Websterhttps://www.merriam-webster.comGreen-eyeddefinition &meaning
5. http://triggs.djvu.org Any2DjVu.Tess of the d'Urbervilles

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 18-20**
**Scientific Sources XVI Collection of Theses / 18-20**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Şahzadə Şirinova**
Bakı Biznes Universiteti
doktorant
shirinovashahzade@gmail.com

# MÜASİR İDARƏETMƏ SİSTEMİNDƏ DAXİLİ AUDİT VƏ KORPORATİV SOSİAL MƏSULİYYƏT ARASINDAKI QARŞILIQLI ƏLAQƏ

***Açar sözlər:*** *korporativ sosial məsuliyyət, daxili audit, biznesin inkişaf strategiyası, davamlı inkişaf konsepsiyaları, idarəetmə sisteminin təkmilləşdirilməsi*

***Keywords:*** *corporate social responsibility, internal audit, business development strategy, sustainable development concepts, management system improvement*

Müasir iqtisadiyyat bir sıra mənfi hadisələr ilə xarakterizə olunur. Makroiqtisadi dəyişiklik sistemə maliyyə və əmtəə bazarlarında qeyri-sabit vəziyyət formalaşdıran əlavə dayanıqlıqsızlıq verir (Filosofova, 2014, s. 72-79).

Dünya ölkələrində iri müəssisə və təşkilatlar dayanıqlı inkişaf konsepsiyasının aktuallığını qəbul edirlər. Rəhbərlər korporativ sosial məsuliyyətin (KSM) rəqabətə davamlı olduğunu bilərəkdən şirkətə nüfuzunu artırmaq və əlavə bazar payı qazanmaq üçün iqtisadi, sosial və ekoloji aspektlərin biznesin inkişaf strategiyasına  daxil edilməsinə böyük səylər göstərir (Kabaşkin, 2010, s. 45-49).

KSM fəaliyyətləri şirkətin daxili resursları əsasında təmin edilir. Şirkətin rəhbərləri KSM təcrübələrinin həyata keçirilməsinə cavabdehdirlər, lakin bu prosesə bütün işçilər cəlb oluna bilərlər.

doi.org/10.36719/2663-4619/2024/XVI

Daxili auditorlar təşkilatda fəaliyyətlərə görə məsuliyyətin düzgün paylanılmasına və KSM sahəsində hesabatlılığın şəffaf olmasına əmin olmalıdırlar.

Daxili Audit Xidməti vəzifələrin bölüşdürülməsinin effektivliyini qiymətləndirmək üçün əsas rəhbərlərlə müsahibələr aparılmalıdır. Bundan başqa, daxili auditorlar KSM meneceri (əgər belə bir vəzifə varsa təqdim edilmiş) öz vəzifələrini yerinə yetirmək üçün kifayət qədər səlahiyyətə malik olub – olmadığını təhlil edə bilər.

Sonra daxili auditorlar rəhbərliyə təqdim olunan hesabatlarla tanış olmalıdırlar. Bu, arzu olunan nəticələrin əldə edilməsi ilə bağlı problemləri tapmaqda sizə kömək edəcəkdır. Bunu etməklə, daxili auditorlar bu problemlərin həllində adekvat yumşaldıcı tədbirlərin görülüb-görülmədiyini müəyyən etməlidirlər.

Daxili auditorlar hesabatlarda göstərilən fəaliyyət göstəricilərinin etibarlılığını və KSM sahəsində məqsəd və vəzifələrə uyğunluğunu yoxlayırlar.

Bunun üçün auditorlar bu göstəriciləri yaradan proseslərin adekvatlığını və effektivliyini qiymətləndirməlidirlər. Proseslərdəki zəiflikləri bu göstəricilərin istifadəçiləri ilə danışaraq aşkar etmək olar. Sonra onların baş vermə səbəblərini müəyyən etmək üçün auditorlar tərəfindən öyrənilir.

Auditorlar həmçinin KSM idarəetmə sistemi ilə müəyyən edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün görülən tədbirlərin effektivliyini qiymətləndirirlər.

Auditorlar auditin aparılmasında rəhbərliyə kömək edə bilər, lakin onlar həmin audit əsasında rəhbərliyin qəbul etdiyi qərarlara görə məsuliyyət daşımırlar. Auditorlar qəbul edilmiş qərarların KSM idarəetmə sisteminin davamlı təkmilləşdirilməsinə gətirib çıxarıb-çıxarmadığını müəyyən etməlidirlər. Onlar məqsəd və vəzifələrin vaxtaşırı öyrənilib-öyrənil-

doi.org/10.36719/2663-4619/2024/XVI

mədiyini, zəruri hallarda müvafiq düzəlişlərin edilib-edilmədiyini yoxlayırlar.

Bundan əlavə, məqsəd və vəzifələrin aydın şəkildə tərtib edildiyinə və növbəti dövrün planlaşdırma mərhələsinə daxil edildiyinə əmin olmalısınız.

Beləliklə, daxili auditorlar şirkətdə KSM təcrübələrinin tətbiqinə öz töhfələrini nümayiş etdirmək imkanı əldə edirlər. Bunu etmək üçün onlar:

- KSM idarəetmə sisteminin yaradılmasına və həyata keçirilməsinə kömək etmək;
- KSM və davamlı inkişafın mahiyyətinin izahına kömək etmək və işçilər arasında təlimlərin keçirilməsi;
- rəhbərliyin tələbi ilə yoxlamalar aparmaq;
- çatışmazlıqların aradan qaldırılması üçün tövsiyələr vermək;
- qeyri-maliyyə hesabatlarını yoxlamaq üçün kənar auditorları tövsiyə etmək.

Daxili auditorlar bu sahədə ən yaxşı beynəlxalq və yerli təcrübələri nəzərə almaqla KSM və davamlı inkişaf konsepsiyalarının mahiyyətini aydın başa düşməlidirlər. Ümumiyyətlə, bu, hər hansı bir şirkətin investisiya cəlbediciliyini təmin etməyə kömək etməlidir .

## Ədəbiyyat

1. Filosofova, T. Q., Karzunke, I. (2014). “Osobennosti formarivaniya konkurentoustoychivosti biznesa na osnove vnutrennova audita kompanii”. Ekonomika promishlennosti. Russian Journal of Industrial Economics, N 4, 72-79.
2. Kabashkin, V. A., Annaeva, A. A. (2010). “Rol Vnutrennego audita v obecpechenyy ustoychivogo razvitiya”. Mezhdunarodniy bugalterskiy uchot. N12, 45-49.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 21-27**
**Scientific Sources XVI Collection of Theses / 21-27**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Ülfət Sadıqov**
Azərbaycan Texniki Universiteti
doktorant
sadıgov.ulfet@gmail.com

# KRİTİK İNFRASTRUKTURLARIN KOMMUNİKASİYA SİSTEMLƏRİNDƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN TƏMİN OLUNMASI ÜÇÜN ÜSULLARIN İŞLƏNMƏSİ

***Açar sözlər:*** *informasiya, təhlükəsizlik, kritik infrastruktur*
***Keywords:*** *information, security, critical infrastructure*

Kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi məsələsinin tədqiqi çərçivəsində "Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydaları" haqqında qanun kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsinin əsaslarını və prinsiplərini, o cümlədən aşkarlanması üçün dövlət sisteminin fəaliyyətinin əsaslarını müəyyən edir, Respublikaızın informasiya ehtiyatlarına qarşı kiberhücumların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üsullarını izah edir. Əslində, bu, bütün ölkə üzrə paylanmış kiberhücumların nəticələrini aşkar etmək, qarşısını almaq və aradan qaldırmaq, kiber insidentlərə cavab vermək üçün lazım olan imkan və resurslara malik vahid sistemdir (1). Eyni zamanda, qanun Azərbaycana qarşı kiberhücum zamanı ölkəyə mənfi təsirləri əhəmiyyətli dərəcədə azaldacaq kritik informasiya infrastrukturunun mühüm komponentlərində kiber insidentlərin qarşısının alınması mexanizmlərini, həmçinin dövlət orqanlarının səlahiyyətlərini müəyyən edir. Kritik informasiya infrastrukturlarının təhlükəsizliyinin təmin edilməsinin əsas prinsipi

ondan ibarətdir ki, obyekt sahibləri onların təhlükəsizliyini təmin etməyə borcludur, eyni zamanda dövlət onlara hər cür köməklik göstərir. Beləliklə, dövlət informasiya təhlükəsizliyinə hər hansı təcili təhdidlər barədə məlumat verməli və lazımi proqram təminatı və texniki vasitələrin mühafizəsinin layihələndirilməsinə və işlənib hazırlanmasına kömək etməlidir. Öz növbəsində obyekt sahibləri informasiya infrastrukturunun istismarı zamanı yaranan mühüm problemlər barədə səlahiyyətli orqanlara məlumat verməyə borcludurlar.

Təhlükəli məlumatların təhlükəsizliyini təmin etmək üçün ümumi tədbirlər dövlət orqanları tərəfindən ümumi tədbirlərlə yanaşı, informasiya ehtiyatlarına kompüter hücumlarının aşkar edilməsi, habelə onların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün xüsusi dövlət sistemi mövcuddur.

Kritik informasiya infrastrukturunun informasiya təhlükəsizliyinin təmin edilməsi üsulları və vasitələri kiber hücumçulara qarşı mübarizəyə və informasiya kompleksinin sahiblərinə və məlumat istifadəçilərinə vurula biləcək zərərin minimuma endirilməsinə yönəlmiş proqram təminatı və texniki vasitələrin, etik və hüquqi standartların məcmusudur.

**Cədvəl 1: Kritik informasiya infrastrukturunun informasiya təhlükəsizliyinin təmin edilməsi üsulları**

| | |
|---|---|
| Nəzarət | Kritik informasiya infrastrukturunun qorunan obyektlərinin elementləri üzərində nəzarət tədbirlərinin təmin edilməsi |
| Maneə | Təhlükə yolunda maneə yaratmaq, onu aradan qaldırmaq zərərverən üçün çətinliklər və ya sabitliyi pozan amildir. |
| Maskalamaq | Mühafizə olunan Kritik informasiya infrastrukturunun obyekti, sistemi və ya məlumatı ilə bağlı hərəkətlər, onları |

| | |
|---|---|
| | zərərverici üçün əlçatmaz edəcək şəkildə transformasiya etməyə aparır. |
| Motivasiya | Metod, istifadəçilərin və əməkdaşların mənəvi, etik və psixoloji səbəblərə görə məlumatın işlənməsi şərtlərinə riayət etmələri üçün şərait yaratmaqdır. |
| Tənzimləmə | Zərərverici tərəfindən hücumların həyata keçirilməsini və ya sabitliyi pozan digər amillərin təsirini əhəmiyyətli dərəcədə çətinləşdirən məlumatların emalı üçün şərait yaradan tədbirlər kompleksinin hazırlanması və həyata keçirilməsi |
| Məcburiyyət | Metod, istifadəçilərin və işçilərin məsuliyyət təhlükəsi (maddi, cinayət, inzibati) altında məlumatın işlənməsi şərtlərinə riayət etməyə məcbur edildiyi şərait yaratmaqdan ibarətdir. |

Kritik informasiya infrastrukturunun informasiya təhlükəsizliyini təmin etmək üçün təşkilati üsullara bunlar daxildir: Kadrlarla işin təşkili. Obyekt daxilində təşkilat, girişə nəzarət və təhlükəsizlik. Saxlama daşıyıcıları ilə işin təşkili. İnformasiya təhlükəsizliyi tədbirlərinin kompleks planlaşdırılması. Analitik işin və nəzarətin təşkili (2).

Kritik informasiya infrastrukturunun informasiya təhlükəsizliyinin təmin edilməsinin hüquqi üsullarına isə bunlar daxildir:  Patent mühafizəsi. Kommersiya sirri haqqında qanun. Lisenziya razılaşmaları və müqavilələri. Müəllif Hüquqları Qanunu (Melikov, 2015, s. 49-53).

İnformasiya təhlükəsizliyinin təşkili üçün təşkilati-hüquqi üsulların texniki və riyazi tərəfi dedikdə, prosedurla bağlı hüquq və vəzifələrin qanuni şəkildə ayrılması üçün tələb olunan bütün müddəa və qaydaların köməyi ilə texniki

doi.org/10.36719/2663-4619/2024/XVI

vasitələrin, riyazi metodların, prototiplərin və proqram təminatının məcmusu başa düşülür.

Girişə nəzarət və fiziki mühafizə üsulları adətən aşağıdakıları təşkil etmək üçün istifadə olunur:

1. Əhəmiyyətli informasiya infrastrukturu obyektlərinin yerləşdiyi ərazinin təhlükəsizliyi və müşahidəsi. 2. Binaların və daxili məkanların təhlükəsizliyi və nəzarəti. 3. İnformasiya və avadanlıqların mühafizəsi. 4. Binalara və daxili məkanlara nəzarət edilən giriş (Solov'yev, 2017).

Kritik informasiya infrastrukturunun informasiya təhlükəsizliyini təmin edən fiziki vasitələri üç kateqoriyaya bölmək olar: 1. Profilaktika vasitələri. 2. Aşkarlama vasitələri. 3. Təhlükənin aradan qaldırılması sistemləri.

Bu gün təhlükəsizlik artıq bir cihazın quraşdırılması ilə məhdudlaşmır, kritik informasiya infrastrukturu obyektinin hər bir paketi, xidməti və ya komponenti səviyyəsində təmin edilməlidir.

Etibarlı şəkildə qorunan kritik informasiya infrastrukturu obyektlərinin yaradılmasına bunlar daxildir:

1. Rabitə kanalları ilə saxlanılan, işlənən və ötürülən məlumatların məxfiliyinin təmin edilməsi.

2. İstifadəçilərin səlahiyyətlərinə uyğun olaraq kritik informasiya infrastrukturu obyektlərinin informasiya ehtiyatlarına girişə nəzarətin, habelə saxlanılan və ötürülən məlumatların bütövlüyünün və eyniləşdirilməsinin təmin edilməsi. 3. Kritik informasiya infrastrukturu obyektlərində dövriyyədə olan məlumatların sızmasının qarşısının alınması. 4. Təhlükəli informasiya infrastrukturu obyektlərində məlumatın saxlanması və emalı zamanı onun icazəsiz əldə edilməsinin qarşısının alınması, o cümlədən proqramın təsirlərinin və ya məlumatın təhrif edilməsinə və ya məhv edilməsinə səbəb olan nəticələrinin qarşısının alınması. 5. Kritik informasiya infrastrukturu

doi.org/10.36719/2663-4619/2024/XVI

obyektlərinin informasiya təhlükəsizliyinin təmin edilməsi üçün zəruri təşkilati-texniki tədbirlərin həyata keçirilməsi.

Təhlükəsizliyi təşkil etmək üçün məlumatın açıqlanmasından, sızmasından və icazəsiz girişdən qorunmasını təmin etməyə yönəlmiş təşkilati, mühəndis-texniki və texniki tədbirlər kompleksi olan kompleks təhlükəsizlik sistemləri hazırlanır və tətbiq edilir. Kritik informasiya infrastrukturunun təhlükəsizliyini təmin etmək üçün kompleks sistem üçün əsas tələblər kimi bunlar göstərilə bilər: 1. İnformasiya təhlükəsizliyinin təmin edilməsinə dair mövcud qanunların, standartların və normativ-metodiki sənədlərin müddəaları və tələbləri əsasında işlənib hazırlanması. 2. Sistemin qorunması üçün proqram, aparat və təşkilati tədbirlər kompleksindən istifadə. 3. Etibarlılıq, performans, konfiqurasiya. 4. İqtisadi məqsədəuyğunluq. 5. İnformasiyanın emalının həyat dövrünün bütün mərhələlərində icrası. 6. Təkmilləşdirmə imkanı. 7. Qanunu pozan şəxsin diqqətini yalan məlumatlarla yayındırmaqla məxfi məlumatlara çıxışın məhdudlaşdırılmasının təmin edilməsi (təkcə passiv deyil, həm də aktiv mühafizənin təmin edilməsi). 8. Bunun üçün müəyyən edilmiş girişə nəzarət qaydalarına uyğun olaraq qorunmayan sistemlərlə qarşılıqlı əlaqə. 9. İnformasiya təhlükəsizliyi pozuntularının qeydə alınması və araşdırılmasının təmin edilməsi. 10. Onun tətbiqinin səmərəliliyinin qiymətləndirilməsi imkanı.

Təhlükəsizlik təşkilatının alətlərini birləşdirmək üçün əsas əməliyyat prototipi və təşkilatın davamlı fəaliyyətini dəstəkləyən dayanıqlı infrastruktur tələb olunur.

Problemli informasiya strukturunun obyektlərinin şəbəkə iyerarxiyasının bütün seqmentlərinin ümumilikdə sistemin işinin vacib aspektləri haqqında məlumata malik olması tələb olunur və problemli informasiya strukturunun obyekti özü məlumatı izləmək və həyata keçirmək üçün dinamik sahəyə

doi.org/10.36719/2663-4619/2024/XVI

çevrilir. Başqa sözlə, təhlükəsizlik kritik informasiya infrastrukturu subyektlərinin işinin kritik xüsusiyyətinə çevrilir və mühüm rol oynayır. Hərtərəfli təhlükəsizliyin təmin edilməsinə ilk növbədə ənənəvi reaktiv yanaşmadan addım-addım proaktiv yanaşmaya keçmək, cavab müddətini və hücumun qarşısının alınmasının effektivliyini artırmaqla nail olmaq lazımdır.

Beləliklə, kritik informasiya infrastrukturunun hərtərəfli təhlükəsizliyinin təmin edilməsi prinsipləri bu ardıcıllıqla müəyyən edilə bilər: 1. Qanunilik. 2. Səlahiyyətli federal icra hakimiyyəti orqanlarının lazımi səviyyədə iştirakının davamlılığı. 3. Kompüter hücumlarının qarşısının alınmasına üstünlük verilir. 4. Sistemlilik (xarici amilləri də nəzərə almaqla alqoritmlərin işlənməsi). 5. Mürəkkəblik. 6. Mühafizənin davamlılığı. 7. İqtisadi səmərəlilik. 8. Nəzarət və tətbiqin çevikliyi. 9. Alqoritmlərin və mühafizə mexanizmlərinin açıqlığı. 10. Qoruyucu tədbirlər və vasitələrin tətbiqinin asanlığı. 11. Qarşısının alınması.

İnformasiya sisteminə icazəsiz müdaxilə cəhdi aşkar edilərsə, operativ (daha tez-tez real vaxt rejimində) müdaxilə tələb olunur. Vaxt itirməmək üçün bütün addımlar əvvəlcədən işlənməlidir ki, bu da əhəmiyyətli itkilərlə nəticələnə bilər.

Kritik informasiya infrastrukturunun hərtərəfli informasiya təhlükəsizliyinin təmin edilməsi məsələsi ilə bağlı aparılmış araşdırmalara əsasən, tədqiq olunan məsələnin daimi aktuallığı barədə nəticə çıxara bilərik.

## Ədəbiyyat

1. "Azərbaycan Respublikasında kritik informasiya infrastrukturunun təhlükəsizliyinin təmin edilməsi qaydaları"nın təsdiq edilməsi haqqında. AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI. https://e-qanun.az/framework/54651.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

2. Frolov, YA. O. Metody i sredstva obespecheniya informatsionnoy bezopasnosti na kriticheski vazhnykh obyektakh narodnogo khozyaystva. XLIII mezhdunar. stud. konf. № 8(43): «SibAK»: https://sibac.info/archive/meghdis/8(43).pdf
3. Melikov, U. A. (2015). Grazhdansko-pravovaya zashchita personal'nykh dannykh. Vestnik UrFO. Bezopasnost' v informatsionnoy sfere. № 4 (18), s. 49-53.
4. Solov'yev, V. V. (2017). Uluchsheniye zashchishchennosti raspredelennoy informatsionnoy sistemy personal'nykh dannykh na osnove tekhnologii VPN i terminal'nogo dostupa / Informatsionnyye tekhnologii i problemy matematicheskogo modelirovaniya slozhnykh sistem. №18, s. 39-44

Elmi Mənbələr XVI Tezislər Toplusu / 28-31
Scientific Sources XVI Collection of Theses / 28-31
doi.org/10.36719/2663-4619/2024/XVI

**Mehriban Hacızadə**
Azərbaycan Dillər Universiteti
mehribanhacizade7@gmail.com

# DİLÇİLİKDƏ EYHAM ANLAYIŞI

***Açar sözlər:*** *eyham, üslub, məcaz, yumor, sarkazm, bədii təfəkkür*
***Keywords:*** *allusion, style, metaphor, humor, sarcasm, figurative thinking*

Hər bir üslub fərdi xüsusiyyətə malikdir. Bu xüsusiyyətlər sayəsində bir üslub digərindən fərqlənir. Üslublar bir-birindən fərqlənsə də bunların hamısı ədəbi dilin üslublarıdır və ədəbi dilin fonetik, leksik və qrammatik normalarına tabedir.

Bədii üslub – emosional, obrazlı nitq formasıdır. Milli-bədii təfəkkürün ifadəsi hesab edilən bədii üslub obrazlılığı ilə fərqlənir. Alliterasiya, assonans,təkrar və intonasiya – fonetik səviyyədə bədii üslubun göstəriciləridir. Dildə mövcud olan sözlər poetik funksiyaya malikdir.Sözün poetik funksiyası daha çox bədii təsvir və ifadə vasitələrində -məcazlarda öz əksini tapır.Məcazlar - məcazi mənada işlənən söz və ifadələrdir. Epitet (bədii təyin), təşbeh (bənzətmə), istiarə (metafor), mübaliğə, kinayə (eyham),mətnaltı məna –bədii ifadə vasitələrinin növləridirlər.

Kinayə-sözün zahirən müsbət mənada deyilib, əslində isə mənfi mənada işlədilməsi kinayə adlanır. Məsələn: zəif adama pəhləvan,qorxaq adama cəsur və ya ağılsız adama alim demək – kinayədir.

Eyham–müəllifə imkan verir ki,bir ifadə və ya bir sözdə çoxlu məna və əhəmiyyət toplasın. Eyhamlar-o zaman uğurlu olur ki,oxucu onları anlayıb tanısın. Eyham səhv təsvir edilərsə

doi.org/10.36719/2663-4619/2024/XVI

və ya anlaşılmaz olarsa,oxucunu çaşdırdığı üçün öz gücünü itirir. Kinayənin tədqiqi koqnitiv dilçilik,mədəniyyətlərarası əlaqələrin öyrənilməsi və ya mətnlərarası problem sahəsində aparılan ədəbi və ya linqvistik istiqamətə malik ola bilər.

Latın dilindəki''alludere''- gülmək, işarət etmək sözündəndir. ''Alluziya ''termininin mənşəyi 16-cı əsrin ortalarına aiddir və bir şeyi açıq-aydın qeyd etmədən ağla çağırmaq üçün nəzərdə tutulmuş ifadə deməkdir.

Bu konsepsiyanın tarixi inkişaf prosesini öyrənən Q.Blum''alluziya'' terminini kinayə anlayışının sinonimi kimi müəyyən edir. Erkən intibah dövründə kinayə-söz oyunu ilə eyni idi və buna görə, əsasən, satirik əsərlərdə istifadə olunurdu.

F.Bekonun(1561-1626) dövründə bu termin alleqoriyada, parabolada və ya metaforada hər hansı simbolik oxşarlığı təsvir etmək üçün istifadə olunurdu. Yalnız 17-ci əsrin əvəllərindən etibarən, Q.Bluma görə, eyhamın yeganə düzgün mənası, bir işarə ehtifa edən dolayı, gizli istinad kimi inkişaf etmişdir. E.Yunun əsərləri eyhamın öyrənilməsi problemlərinə həsr edilmişdir. E.M.Dronovanın fikrincə, eyhamın tədqiq olunması mədəniyyətlərarası problemlərin tədqiqi çərçivəsində aparıla bilər.

İ.R.Galperinə görə eyham, fon biliklərinin mövcudluğunu təmin edən hər hansı əvvəlki mətn referentinə istinad edən ədəbi aktdır.

Eyham-işarə,zəka-oxşar səslənən söz və ya məlum real faktın, tarixi hadisənin, ədəbi əsərin xatırladılması yolu ilə müəyyən edilən üslubi fiqurdur.

M.İ.Kiose eyhamı həm stilistik cihaz,həm də onun nəticəsi hesab edir. İşarə üsulu kifayət qədər geniş yayılmışdır və müxtəlif janrlı, obrazlarla zəngin mətnlərin yaradılmasında, onların emosional qiymətləndirici məzmununun artırılmasına

**doi.org/10.36719/2663-4619/2024/XVI**

yardımçı olmaqla böyük əhəmiyyət kəsb edir. İşarədən istifadənin məqsədi elementar ifadəni və bütün işi müvafiq bilik və təcrübə ilə zənginləşdirməkdir.Belə olduqda eyham tarixin və ədəbi ənənənin yenilənməsinin iqtisadi yolu rolunu oynayır.

İşarələr tanınmış şəxslərə,yerlərə,əşyalara və ya ideyalara aid ola bilər və ya ünsiyyət qurmağa çalışdığımız şəxsin tanış olduğu şəxsə, məkana, əşyaya və ya fikrə aid ola bilər.

Eyham yalnız qədim sivilizasiyalar və ya ideyalara istinad etmək üçün istifadə edilmir. Con Keatsin "Yunan qabına qəsidə" əsəri yunan mifologiyasında mövcud olan "silvan" və ya keçiyə bənzər insan tanrısına işarə edir və Cozef Konrad Afrika qitəsinin dərinliklərinə etdiyi apokaliptik səyahətini qabaqcadan göstərmək üçün eyhamlar və metaforalardan istifadə edir. Dildə və insanların bir-birinə məna çatdırma yollarında olan bir çox məşhur eyhamlar var.

Məsələn: 1. "Axillesin dabanı"- Axillesin məşhur vətərinə işarə edən, insanın müəyyən bir zəifliyidir.

1. "Arpi" yunan və Roma mifologiyasından olan və dişi canavar olan məxluqu nəzərdə tutan nazlı qadındır.Qadının başı və bədəni, yırtıcı quşun qanadları və pəncələri qadın şəxsiyyətinin ən xoşagəlməz cəhətlərini ehtiva edir (1).

Kinayə gülüş yaratma üsullarından biri olub həm yumora, həm də satiraya xidmət edir, lakin daha çox satirik xarakter daşıyır.Kinayədən komizm üsulu kimi istifadə tarixi çox qədimdir. Hələ vaxtilə "Mən onu bilirəm ki,heç nə bilmirəm" deyən qədim yunan filosofu Sokrat kinayəli nitqdən geniş istifadə etmişdir.

Kinayənin eyham,istehza (ironiya),məsxərə və sarkazm kimi müxtəlif çalarları var. Eyham-ibtidai, ilkin və nisbətən zəif kinayə tərzi, ikibaşlı söz, incə işarədir.

Kinayənin ən kəskin forması satira və ya tərizdir. İstehza isə öz xüsusiyyətinə görə kinayənin orta məqamını ifadə edir.

doi.org/10.36719/2663-4619/2024/XVI

İstehza bəzən,kinayənin sinonimi kimi də işlədilir. Məsxərə də istehzaya yaxındır.Lakin ciddi,qəzəbli və bu mənada sarkazma meyilli istehzadan fərqli olaraq,məsxərədə tənqid obyekti çox lağa qoyulur. İstehza ilə müqayisədə məsxərə daha çox gülüş doğurur. Digər komizm üsullarından fərqlənən kinayə daha çox intonasiya ilə bağlı olub, ondan yaranıb.Yazılı nitqdə isə eyham və işarələrlə aydınlaşır.

## Ədəbiyyat

1. ultius.com.allusion as a stylistic device.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 32-34
Scientific Sources XVI Collection of Theses / 32-34
doi.org/10.36719/2663-4619/2024/XVI

**Şəhanə Əsgərova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
shahanaasgarova@gmail.com

# BƏDİİ MƏTNLƏRDƏ TƏKRİRİN ÜSLUBİ FUNKSİYALARI (FRANSIZ DİLİ MATERİALLARI ƏSASINDA)

***Açar sözlər:*** *üslubi fiqur, təkrir, söz, söz birləşməsi, cümlə*
***Keywords:*** *stylistic device, repetition, the word, word combinations, phrase*

İstər nəzm, istərsə də nəsr əsərlərində yazıçı və şairlər sözdən böyük ustalıqla və məharətlə istifadə edərək daha təsirli ifadələr yaradırlar. Bədii mətnlərə emosionallıq, rəngarənglik vermək üçün müxtəlif üslubi fiqurlardan istifadə edilir. Belə fiqurlardan biri də təkrirdir.

Fransız dilində həm nəzm, istərsə də nəsr əsərlərində təkririn müxtlif növlərinə rast gəlmək mümükündür. Təkrir söz, söz birləşməsi, cümlə, bəzən də bir abzasın təkrarından ibarət ola bilir. Təkrir hər hansı bir fikri qüvvətləndirmək, hər hansı sözə, abzasa diqqəti cəlb etmək üçün işlədilir.

Təkririn bir neçə növü: anafora, epifora, anepifora, epanafora.

**Anafora** eyni söz və ya ifadənin cümlələrin və ya misranın əvvəlində təkrarlanmasıdır.

**Huit milliards de personnes** habitent désormais la Terre ! **Huit milliards de personnes** pompent de l’essence, du gaz, conduisent des voitures, empruntent des trains, circulent en avion, consomment de l’électricité. **Huit milliards de personnes** jettent des sacs plastique qui crottent des paysages et souillent les océans. **Huit milliards de personnes**

doi.org/10.36719/2663-4619/2024/XVI

agrandissent l'espace urbain en réduisant l'espace végétal. **Huit milliards de personnes** demandent à se nourrir alors que la terre exsangue s'épuise. **Huit milliards de personnes** réclament de la viande, plus que ce que les animaux n'en fournissent. **Huit milliards de personnes** misent sur une industrie qui encrasse le ciel, empoussière les poumons, intoxique rivières et fleuves, détruit flore et faune. **Huit milliards de personnes** polluent l'atmosphère. **Huit milliards de personnes** ne pensent qu'à leurs profits, qu'à leurs plaisirs. **Huit milliards de personnes** ne veulent rien changer pendant que tout change (Eric – Emmanuel Schmitt, 2021, s. 28).

Göstərilmiş nümunədə « Huit milliards de personnes » ifadəsi on dəfə təkrar olunmuşdur.

**Epifora** eyni söz və ya ifadənin cümlənin və yaxud misranın sonunda təkrarlanmasıdır.

Je suis allé au marché aux oiseaux
Et j'ai acheté des oiseaux
**Pour toi mon amour**
Je suis allé au marché aux fleurs
Et j'ai acheté des fleurs
**Pour toi mon amour**
Je suis allé au marché à la ferraille
Et j'ai acheté des chaines, de lourdes chaines
**Pour toi mon amour**
Et puis, je suis allé au marché aux esclaves
Mais je ne t'ai pas trouvée
Mon amour
(Jacques Prévert, *Pour toi mon amour*)

Birinci cümlənin sonunda işlənən söz və ya ifadə növbəti cümlənin əvvəlində işlənirsə bu **epanafora** adlanır. Ils vont s'éloigner, chercher ailleurs, et moi **je vais tomber**. **Je vais**

**doi.org/10.36719/2663-4619/2024/XVI**

**tomber** sur le seuil de la vie ( Saint – Exupéry) (Djabbarov, 2015, s 196).

Eyni söz və ya ifadə cümlənin, sətrin, abzasın həm əvvəlində həm sonunda işlənirsə bu anepifora adlanır.

Digər üslubi fiqurlar kimi təkrir də əsərə ekspressivlik, gözəllik bəxş edir.

## Ədəbiyyat

1. Eric – Emmanuel Schmitt. (2021). «Paradis Perdus» Albin Michel.
2. Djabbarov, R. (2015). «La Stylistique Française». Bakou.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 35-38
Scientific Sources XVI Collection of Theses / 35-38
doi.org/10.36719/2663-4619/2024/XVI

**Zita Huseynova**
Azerbaijan State Agrarian University
zita_huseynova@mail.ru
**Sevinj Mustafazadeh**
Azerbaijan State Agrarian University
sevincmustafazade876@gmail.com

# THE NOTION OF "CONCEPT" IN MODERN LINGUISTICS

***Açar sözlər:*** *konsepsiya, dilçilik, linqvokulturologiya, prototip, sxem*
***Keywords:*** *concept, linguistics, linguoculturology, prototype, scheme*

In modern linguistics at the turn of the 20th and 21st centuries, two completely new directions emerged – cognitive linguistics and linguacultural studies. Cognitive linguistics is based on the study of the role of language in the processes of thinking, perceiving the world and accumulating knowledge, while linguacultural studies reveal the relationship between language and culture as a whole. One of the main studies in the field of modern linguistics is the analysis of the concept of "concept", as well as the identification of its main characteristics. Since there is no single definition of the concept of "concept", many researchers in the field of linguistics express different points of view on understanding the essence, nature and structure of concepts.

The aim of the article is to analyze theoretical research in the framework of modern linguistics. The object of this study is the concept of a concept as the basic unit of the linguistic picture of the world. The subject of study is the main

**doi.org/10.36719/2663-4619/2024/XVI**

theoretical interpretations of scientists regarding this topic, as well as various approaches to defining the concept and types of concepts. The study used the inductive-deductive method, applicable in the study and systematization of theoretical material, as well as the descriptive-analytical method, used in the characterization of the material under study.

Currently, the term "concept" is studied in many fields of science: literature, linguistics, philosophy, and cultural studies. The content of a concept as a unit of linguistic culture reflects the characteristics of any culture and the worldview of a linguacultural community.

The structure of each concept contains centuries of accumulated knowledge about the world's improvement. It is the set of key concepts that forms the linguistic picture of the world. Cultural concepts are collective meaningful mental formations that record the uniqueness of the corresponding culture.

Consequently, this is a way of representing, understanding, interpreting any objects, phenomena, processes. In human consciousness, a set of key concepts arises as a result of the subject functioning of a person with the help of activity, feelings and emotions.

The process of actualization of the concept occurs with the help of metaphorical models, which are used by representatives of various ethnocultures in order to reflect the national picture of the world of the people. It is this model that contains the worldview system of many generations. The concept is based on idioms, phraseological units, proverbs and sayings.

From a thematic point of view, concepts can be divided into the following groups:

1. A concept is a type of concept that includes general, specific features of any object, its specific characteristics. For

doi.org/10.36719/2663-4619/2024/XVI

example, in S. I. Ozhegov's dictionary, "cornflower is a light blue wildflower-weed that grows in rye and other cereals."

2. A prototype is an abstract image that contains similar features of the same object. This includes typical examples, models, ideals. For example, ideas about an ideal marriage, a career, success. These concepts are "helpers" with which a person distributes his knowledge about objects and phenomena of the surrounding world according to basic criteria and has clear ideas about them.

3. A scheme is a type of concept that has a mental model of an object or phenomenon, containing mental ideas ("river" as a blue ribbon, "sun" as a yellow circle).

4. A scenario is a type of concept based on a clear plan of action and a plot character. The scenario is verbalized in words. Examples of a scheme of action include a trip, a wedding, a competition, a casting, an exam.

5. A frame is a set of concepts that are stored in memory at the level of associations. According to the frame theory, in a specific situation a person unconsciously turns to the necessary frame, which indicates to him the correctness of subsequent actions. For example, the frame "university" evokes a number of associations in a person's mind: university - faculty - dean's office - exams - diploma - teachers. The frame "work" identifies itself with schedule - salary - responsibilities - management - colleagues.

6. Gestalt is a conceptual structure, a certain holistic image necessary for a person to fully understand a specific situation. For example, "work" serves as a gestalt for those people who have not encountered the employment process, as a result of which they are unaware of the structure, sequence and features of this process. Thus, gestalt appears as a conceptual system that unites all the above types of concepts that manifest

**doi.org/10.36719/2663-4619/2024/XVI**

themselves in the process of cognition. This system forms its own figurative, schematic, conceptual, frame and other levels or various combinations of these conceptual structures. All of them are closely connected in the thinking and speech activity of a person.

Thus, concepts serve as the basis for comparison, juxtaposition and categorization of all objects and phenomena of the surrounding world.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 39-42**
**Scientific Sources XVI Collection of Theses / 39-42**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Şəhla Abadova**
Azərbaycan Universiteti
magistrant
shahla.abadova@student.au.edu.az

# GƏNC AİLƏLƏRDƏ MÜNAQİŞƏNİN ƏSAS SƏBƏBLƏRİ

***Açar sözlər:*** *ailə, ailə münaqişələri, ailə münaqişələrinin səbəbləri, ailə münaqişələrinin səbəbləri, maarifləndirmə işləri*
***Keywords:*** *family, family conflicts, causes of family conflicts, causes of family conflicts, educational work*

Cəmiyyətdə ailəyə münasibət şəxsiyyətin sosial qiymətləndirilməsində və özünütəsdiqdə mühüm rol oynamışdır. Elə buna görə də ailə şəxsiyyətin və cəmiyyətin formalaşmasında mühüm sosial instutlardan biri hesab edilir. Ümumiyyətlə ailəyə tərif verəsi olsaq ona belə bir tərif verə bilərik: "Ailə- nikah və ya qan qohumluğuna əsaslanan şəxsiyyətin sosial, emosional və psixoloji vəziyyətinin formalaşmasında başlıca rol oynayan kiçik sosial qrupdur".

Hər bir ailənin özünə məxsus qayda qanunları vardır ki, buda uzun müddət bir yerdə yaşamaqdan və ailə daxili münasibətlərin formalaşmasından irəli gəlir. Bəzən bu qayda qanunlar ailədə münaqişələrə səbəb olur. Buna əsasən deyə bilərik ki, gənc ailələrdə yaranan münaqişələr cəmiyyətin ən aktual problemlərindən biri hesab olunur. Bu sahədə sosioloqlar və psixoloqlar bir çox araşdırmalar aparmışdılar. Bu araşdırmalarda münaqişələrin müxtəlif səbəbləri müəyyən edilmişdir.

İstinad: "Ailə münaqişələri-bir-birinə qarşı qoyulmuş meyllər və görüşlərin toqquşması əsasında ailə üzvləri arasında olan

gərgin vəziyyət deməkdir. Mütəxəssislərin rəyinə görə gənc ailələrdə 80-85 faizində münaqişələr, qalan 15-20 faizində isə hərc-mərclik baş verir. Ümumiyyətlə gənc ailələrdə münaqişələr öz səbəblərinə görə fərqlənir. Bu səbəblər aşağıdakılardır:

- ailə üzvlərinin fəallığının, özünü ifadə etməsi azadlığının məhdudlaşdırılması;
- ailənin bir və ya bir neçə üzvünün davranışının qəbul edilmiş normalardan kənara çıxması məsələn: alkoqolizm, narkomaniya vəs.;
- əks maraqların, meyllərin mövcudluğu, ailə üzvlərindən birinin tələbatlarının ödənilməsi imkanlarının məhdudluğu(onun özünün nöqteyi-nəzərindən);
- bütünlüklə ailədə qarşılıqlı münasibətlərin avtoritar, sərt tipi;
- çətin həll edilən maddi problemlərin mövcudluğu;
- ər-arvad arasındakı münasibətlərə qohumların avtoritar şəkildə müdaxiləsi;
- nikahda partnyorların seksual disharmoniyası (1, 13).

Bu istinaddan göründüyü kimi gənc ailələrdə münaqişələrin səbəbləri müxtəlif ola bilər. Başqa bir araşdırmada isə bu səbəblər tam fərqli verilmişdir. Həmin araşdırmaya istinadən gənc ailələrdə münaqişələrin ən geniş yayılmış səbəbləri bunlardır:”

- Ünsiyyətin olmaması-ailə üzvləri arasında açıq ünsiyyətin olmaması ən geniş yayılmış konflikt səbəbidir. Bu zaman gənc ailə üzvləri bir-birilərinin isdək və arzularını anlmırlar və problemlərini münaqişə yolu ilə həll etməyə çalışırlar.
- Məişət işləri- gənc ailələrdə məişət işlərinin düzgün bölünməməsi, bütün məişət işləri, ailədəki uşaqlara və yaşlı

valideynlərə baxmaq qadının vəzifəsi kimi yanaşıldıqda ailədə münaqişələrə gətirib çıxarır.

- Dəyərlərin fərqliliyi-ailə dəyərlərinin, mənəvi və sosial dəyərlilərin müxtəlifliyi gənc ailələrdə müəyyən bir zamandan sonra münaqişələrin yaranmasına səbəb olur ki, bu da ailələrin dağılmasına gətirib çıxarda bilir.

- Güclü və zəif tərəfləri şişirtmək- tərəflər tez-tez münaqişədə olduqda, tərəflərdən biri çalışır ki, digərini manipulyasiya və təhdid yolu ilə üstələsin. Əgər bu davam edərsə tərəflərdən biri artıq dominant mövqeyə keçir və digərini idarə etməyə çalışır və onun zəif tərəflərində istifadə istifadə edir" (2).

Bu araşdırmaların çox az bir hissəsidir. Burdan belə məlum olur ki, ailələrdə münaqişələrin çoxlu səbəbləri ola bilər, lakin əsas məsələ bu münaqişələri tərəflər necə həll etməyə çalışır. Münaqişələrin həll yolu müxtəlif ola bilər. Son zamanlar bir çox gənc ailələr bu münaqişələrin həll yolu kimi boşanmanı seçirlər ki, bu da çoxda müsbət bir hal deyil.

Ailədə münaqişənin həll edilməsində həmi ər həmi də arvad maraqlı olmalıdır. Belə ki, ailə həyatı müharibə meydanı deyil və orda qalib yoxdur düşüncəsini ailə üzvləri dərk etməlidir. Münaqişələrin fərqli həll yollarını tapmaq olar, sadəcə olaraq onun nədən qaynaqlandığını düzgün müəyyənləşdirmək lazımdır.

Burada sosial işçinin rolu ondan ibarətdir ki, münaqişələrin aradan qaldırılmasında vacib strategiyalardan istifadə etsin. Yəni ki, münaqişə tərəfləri ilə söhbətlərin keçirilməsi, yaranmış vəziyyətin təhlili edilməsi, həll yollarının araşdırılması, psixoloji konsultasiyaların aparılması vəs nəzərdə tutulur. Amma cəmiyyətdə bu cür münaqişəli ailələrin müəyyən edilməsi bir qədər çətindir çünki, mentalitetə uyğun olaraq heç

**doi.org/10.36719/2663-4619/2024/XVI**

kəs ailə daxili münasibətlərinə kənar müdaxiləni qəbul etmir. Bu isə sonda bir çox mənfi halların yaranmasına gətirib çıxarır.

Bu cür nəticələrin qarşısını almaq üçün gənclər arasında münaqişənin həll edilməsi ilə bağlı maarifləndirmə işləri aparılmalıdır. Belə ki, ailə qurmağa hazırlaşan gənclər üçün müəyyən seminarların keçirilməsi, onlara ailənin əhəmiyyəti və məsuliyyətli bir iş olması ilə bağlı isdər sosial şəbəkələrdə, isdərsə də televiziyada maarifləndirmə işləri aparılmalıdır. Kolleclərdə, gimnaziyalarda, universitetlərdə vəs. ailə daxili münasibətlərin idarə edilməsi ilə bağlı sosial işçilər tematik gecələr təşkil etməli, gəncləri psixoloji olaraq ailə həyatına hazırlanmasında maarifləndirici söhbətlər aparılmalıdır.

## Ədəbiyyat

1. https://anl.az/down/meqale/xalqcebhesi/2014/mart/357617.htm
2. https://www.talktoangel.com/blog/causes-of-family-conflict

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 43-45**
**Scientific Sources XVI Collection of Theses / 43-45**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Ülkər Abbaslı**
Azərbaycan Universiteti
magistrant
ulkrabbsl123@gmail.com

# DURĞUN SU EKOSİSTEMLƏRİNDƏ SUYUN TƏRKİBİNİN ÖYRƏNİLMƏSİ ÜÇÜN İNFORMASİYA TEXNOLOGİYALARININ İSTİFADƏSİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *demoqrafiya, PH, bioresurslar, aqroeko-sistemlər, urbanizasiya*

***Keywords:*** *demography, PH, bioresources, agroeco-systems, urbanization*

Hal-hazırda bir çox təhsil müəssisələrinin elmi-tədqiqat labaratoriyalarında suyun tərkibinin və digər proseslərin öyrənilməsi üçün informasiya texnologiyalarının istifadəsi geniş yayılmışdır. Bura məhlulun kimyəvi tərkibinin müəyyən edilməsi, qatılığın miqdarının ölçülməsi, reaksiyaların gedişinin və nəticələrinin praqnozlaşdırılması və s proseslər aid edilir.

Dünya əhalisinin qidalara olan tələbatlarını ödəmək üçün bir çox süni ekosistemlərdə qida məhsulları kimi heyvan cinsləri və bitki sortlarının yetişdirilməsi prosesi həyata keçirilir. Bu proses zamanı isə əsasən yeni texnologiyalardan və proqram təminatından istifadə olunur. Cinsə və Sortların yaradıldığı və yetişdirildiyi elmi-təqdiqat labaratoriyalarında bioresursların saxlanıldığı durğun suyun tərkibinin öyrənilməsi üçün aparat təminatından istifadə olunur. Aparat təminatı iki hissədən ibarətdir: Kompüter və iki ədəd planşet. İlk öncə planşetlərin iş sisteminə nəzər salaq. Planşetlərin iki ədəd

**doi.org/10.36719/2663-4619/2024/XVI**

olmasının səbəbi ilk planşet sadəcə suyun tərkibini müəyyən etdiyi zaman, ikinci planşet həm suyun, həm də suda yetişdirilən balıqların "PH" dəyərini müəyyən edir.

İlk planşet həm də suda olan azot ($N_2$), fosfor (P), ammonyak ($NH_3$) və 1 litr suya düşən oksigeni ($O_2$) müəyyən edir. Suyun tərkibində bioresursların böyüməsini gecikdirən yad maddələr olduqda isə planşet xəbərdarlıq siqnalı verir. İkinci planşet isə durğun suda olan bioresurların artımını qeydə alır. Bu aparat təminatının müsbət tərəfidir. Bu aparat təminatının mənfi tərəfi isə sərfiyyatın çox olmasıdır.

Respublikamızda urbanizasiyanın surətlə getdiyi bir dövürdə əhalinin qidaya olan təlabatında dəniz məhsullarına olan payın ödənilməsi üçün ölkəmizin bir çox regionlarında bu cür süni su hövzələrinin hesabına dəniz canlılarının yetişdirilməsi prosesi həyata keçirilir. Bu cür zavod və təsərrüfatlarda kompüter texnologiyalarının tətbiqi ilə suyun temperaturuna, duzluluğuna, qazların faizlə nisbətinə və s. nəzarət etmək xüsusiylə çoxalma dövründə vacib məsələdir.

Dünya əhalisinin demoqrafiyası heç bir dövrdə sabitliyini qorumamış, hər zaman dəyişkən olmuşdur. Kapitalizmdən əvvəlki dövrlərdə dünya əhalisi çox yavaş artım göstərirdi. Demoqrafların araşdırmalarına əsasən dünya əhalisi sürətlə artarsa 2040-cı ildə 10 milyarddan artıq insanın dünyada yaşaması nəzərdə tutulurdu. Hal-hazırda, yəni 2024-cü ildə dünya əhalisinin sayı 8,2 milyarda çatmışdır. Demoqrafik artışın çoxalması ilə əlaqədar dünya əhalisinin bir sıra problemləri üzə çıxmışdır. Bu problemlər isə aşağıdakılardır.

1. Məşğulluq
2. Yoxsulluq
3. Aclıq
4. Müharibələr
5. Kütləvi savadsızlıq

**doi.org/10.36719/2663-4619/2024/XVI**

6. Tibbi xidmətin keyfiyyətinin aşağı olması, xəstəliklərin yayılması
7. Ekoloji problemlər, yəni su qıtlığı, zibilliklərin artması və s.

Bu problemlərdən biri olan aclıq probleminin aradan qaldırılması üçün aqroekosistemlərdə qidanın yetişdirilməsi prosesində kompüter texnologiyalarından, eləcə də proqram təminatından geniş istifadə edilir. Bu cür tədbirlər aqrobağların suvarılması zamanı sudan istifadənin səmərəliliyini artırılması üçün, enerjiyə qanaət və s. məqsədlər üçün tətbiq edilə bilər.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 46-48**
**Scientific Sources XVI Collection of Theses / 46-48**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Aqil Əliyev**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
aqile190@gmail.com

# LEOPOLD VƏ MSTİSLAV ROSTROPOVİÇ XATİRƏ - EV MUZEYİ-ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TƏŞƏBBÜSÜ KİMİ

***Açar sözlər:*** *Leopold və Mstislav Rostropoviç, Xatirə-ev muzeyi, dünya musiqi sənəti, mədəniyyət, Heydər Əliyev, violonçel*

***Keywords:*** *Leopold and Mstislav Rostropovich, Memorial House Museum, world music art, culture, Heydar Aliyev, cello*

Heydər Əliyev elə bir dahi şəxsiyyətdir ki, yaşadığı dövr ərzində gördüyü xeyriyyə işlər ilə insanların yaddaşında dərin və silinməz izlər yazmışdır. Daima dövlətinin inkişafı, öz xalqının rifahının yüksəldilməsi üçün əlindən gələni etmişdir. Heydər Əliyev güclü iradəsi olması ilə bərabər, daxilən həssas, incə musiqi duyumuna malik, romantik təbiətli şəxs olmuşdur. Ulu öndər demişdir, "Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcəkdir" (1)

Bu zəmində Heydər Əliyevin hakimiyyəti dövründə intibahı şərtləndirən işlərini görürük. Təhsilə, mədəniyyətə, incəsənətə, musiqiyə göstərdiyi xüsusi qayğı nəticəsidir ki, Mstislav Rostropoviçi öz vətəninə qaytarmışdır. Məhz həyatının çətin dövründə sürgünlərə, haqsız təzyiqlərə məruz qaldığı dövrədə Bakıya gəlir. Heydər Əliyev maestro Niyaziyə Mstislav Rostropoviçi olduqca böyük qayğı və diqqətlə əhatə etməsi üçün tapşırıq verir. Heydər Əliyev Mstislav

doi.org/10.36719/2663-4619/2024/XVI

Rostropoviçin Vətənində sevgi ilə əhatə olunmasına çalışırıq. Beləliklə, mənən sarsıntı keçirən Mstislav Rostropoviç, qayğıkeş rəhbər Heydər Əliyev və bəstəkar Q.Qarayev, T.Quliyev, A.Rzayev, gənc pianoçu F.Bədəlbəyli, rejissor T.Kazımovski, bir sözlə, bakılı dostların əhatəsində layiq olduğu münasibəti görür (2).

1997-ci ildə Mstislav Rostropoviç ona hər zaman arxa duran dostu Heydər Əliyev cənablarını 70 illik yubileyinə Parisə dəvət edir. Azərbaycan Prezidenti Heydər Əliyev həmyerlisinin dəvətini qəbul edir.

Elə bu zaman Heydər Əliyevin sərəncamı ilə təşkilat komitəsi yaradıldı. Maestronun doğma vətəni Bakıda, Rostropoviçlər ailəsinin yaşadıqları mənzilin yerləşdiyi küçəyə və 21 saylı musiqi məktəbinə ata və oğul Rostropoviçlərin adı verilir. Yaşadıqları mənzilin qarşısında isə xatirə lövhəsi açıldı. Bunlarla yanaşı, dövlət başçısı tərəfindən həmin mənzildə Leopold və Mstislav Rostropoviçlərin xatirə ev-muzeyi yaradılması haqqında sərəncam verildi. Bütün bunlar isə Heydər Əliyevin dahi Maestronu dönə-dönə dəyərləndirməsinin təzahürü idi (2).

Sənəddən oxuyuruq: "Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev Bakı şəhəri, 23may 1997-ci il. No 571

Leopold va Mstislav Rastropoviçlərin dünya musiqi sənətinin inkişafında görkəmli xidmətlərini nəzərə alaraq qərara alıram:

1. Leopold va Mstislav Rastropoviçlərin yaşadıqları mənzildə (Bakı şəhəri Leopold və Mstislav Rastropoviçlərin küçəsi. 19) ev-muzeyi təşkil olunsun

2. Nazirlər Kabineti və Bakı şəhəri icra Hakimiyyəti bu sərəncamdan irəli gələn məsələləri həll etsin

1998-ci ildə Azərbaycan Nazirlər Kabinetinin qərarı ilə görkəmli musiqiçilərin Leopold və Mstislav Rastropoviçlərin

doi.org/10.36719/2663-4619/2024/XVI

xatirə ev-muzeyi yaradılmışdır. Muzey 2002-ci il mart ayının 4-də açılmışdır (3). Ümummilli Heydər Əliyevin Mstislav Rostropoviçi qəbul edərkən söhbətində vurğulamşdır: "Mən konsertə hökmən gələcəyəm. Axı, sizə dedim ki, sizin üçün, sizin ifanız, musiqiniz üçün darıxmışdım. Odur ki, sizin burada vaxtınızın xoş keçməsi üçün nə lazımdırsa, hər şeyi edirik. Mən bizimkilərə həmişə demişəm ki, çalışın, çalışın, çalışın....". "Azərbaycan" qəzeti, 8 oktyabr 2000-ci il (4).

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 81-ci ildönümü münasibətilə Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyində təntənəli tədbir keçirilmişdir. Muzeyin direktoru Şeyla Heydərova mərasimdə çıxış edərək bildirmişdir ki, Prezident Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycanda yüzdən artıq muzey yaradılmışdır. Onlardan biri də 1998-ci ildə yaradılmış Leopold və Mstislav Rostropoviçlərin ev-muzeyidir. Prezident Heydər Əliyevi maestro Rostropoviçlə mehriban dostluq telləri bağlayırdı. Muzeyin direktoru dedi ki, Heydər Əliyevin sayəsində Azərbaycan yenidən Rostropoviçə malik oldu, Mstislav Rostropoviç isə öz ilk vətəni Azərbaycana qovuşdu (5).

## Ədəbiyyat

1. https://www.anl.az/down/meqale/musiqi_dunyasi/2021/2-87/763950(meqale).pdf
2. https://www.anl.az/down/meqale/medeniyyet/2008/may/47911(meqale).pdf
3. Məlikova E. Azərbaycanın memorial xatirə muzeyləri, dərslik, Bakı, 2009, 232 səh.
4. https://lib.aliyevheritage.org/az/9963317.html
5. https://azertag.az/xeber/heyder_eliyevin_olkeye_rehberlik_etdiyi_illerde_yuzden_artiq_muzey_yaradilmisdir-311916

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 49-51**
**Scientific Sources XVI Collection of Theses / 49-51**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Səlminaz Əhmədova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
selmnazhmdv.03@gmail.com

# AZƏRBAYCAN MUSİQİ MƏDƏNİYYƏT DÖVLƏT MUZEYİNİN MUSİQİ ALƏTLƏRİNƏ GÖSTƏRDİYİ QAYĞI

***Açar sözlər:*** *muzey, musiqi, alət, qayğı, kolleksiysa*
***Keywords:*** *museum, music, instrument, care, collection*

Həyatımızın müxtəlif məqamlarında musiqinin müxtəlif növləri ilə rastlaşırıq: filarmoniyada daha çox klassik musiqini, şən məclisdə - populyar və yaxud xalq musiqisini, dostlarımızla - caz, rok, pop musiqilərini dinləyirik. Musiqi həyatımızın ayrılmaz bir parçasıdır. Bu baxımdan Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi milli musiqi tariximizin gələcək nəsillərə ötürülməsində misilsiz rol oynayır (Bayramova, 1999).

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, ölkənin zəngin musiqi mədəniyyətini və tarixini əks etdirən bir çox qiymətli eksponata ev sahibliyi edir. Muzeyin musiqi alətləri kolleksiyası da olduqca zəngindir və müxtəlif dövrlərə, regionlara və musiqi janrlarına aid olan alətləri əhatə edir. Bu alətlər, həmçinin Azərbaycan xalq musiqisinin unikal xüsusiyyətlərini və inkişafını təmsil edir (Bayramova, 2000).

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin əsas musiqi alətləri kolleksiyasına daxil olan bəzi alətlər:

1. Qaval – Azərbaycan xalq musiqisində əsas ritm alətlərindən biridir. Qaval, xüsusən xalq mahnılarında və şənliklərdə geniş istifadə edilir.

2. Tar – Azərbaycan müasir və klassik musiqisində çox yayılmış simli alətdir. Tar, həm solo ifaçılığı, həm də ansamblar üçün çox əhəmiyyətlidir.

3. Kamança – Yaylı alətlərdən olan kamança, əsasən xalq musiqisinin ifasında mühüm rol oynayır.

4. Saz – Azərbaycanda və digər türk xalqlarında çox məşhur olan simli alət, xüsusən aşıq musiqisində istifadə edilir.

5. Balaban – Xalq musiqisində geniş istifadə olunan bir nəfəsli alət, adətən anadolu və Qarabağ musiqilərində rast gəlinir.

6. Nəfəsli alətlər – Fərqli növ flütlər, zurna və s. kimi alətlər də muzeydə nümayiş etdirilir.

7. Daf – Dəf və digər çalğı alətləri, xalq və dini musiqilərdə əhəmiyyətli yer tutur.

8. Cello, skripka və digər klassik alətlər – Azərbaycan musiqisinin həm də Avropa klassik musiqisi ilə əlaqələrini göstərən alətlər.

Muzeydəki bu alətlər, həmçinin Azərbaycan musiqi alətləri sənətinin inkişafını və müxtəlif etnik qrupların musiqi mədəniyyətinin qarşılıqlı təsirini nümayiş etdirir. Bu kolleksiya, həm də musiqi tarixini, eləcə də Azərbaycanın zəngin folklorunu əks etdirən alətlərdir (Məlikova, 2021, s. 231).

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, ölkənin zəngin musiqi irsini qorumaq və təqdim etmək məqsədilə müxtəlif fəaliyyətlər həyata keçirir. Muzeyin ən önəmli işlərindən biri musiqi alətlərinə göstərilən qayğıdır. Bu qayğı bir neçə əsas sahədə özünü göstərir (Məlikova, 2022, s. 431):

1. Muzeyin kolleksiyasının zənginləşdirilməsi: Muzey, Azərbaycan və dünya musiqi mədəniyyətinin müxtəlif dövrlərinə aid musiqi alətlərini toplamaqla, həm milli, həm də beynəlxalq musiqi alətləri ilə zəngin bir kolleksiya yaradır. Bu alətlər həm ənənəvi, həm də müasir dövrə aid olur.

2. Restavrasiya və qorunma işləri: Muzeyin musiqi alətləri uzun müddətə qorunması və bərpası üçün xüsusi restavrasiya işləri həyata keçirilir. Bu, alətlərin tarixi dəyərinin qorunmasına və onların gələcək nəsillərə təqdim edilməsinə imkan verir.

3. Sərgilər və tədbirlər: Muzeydə mütəmadi olaraq musiqi alətləri ilə bağlı sərgilər təşkil edilir. Bu sərgilərdə ziyarətçilər müxtəlif dövrlərin və regionların musiqi alətləri ilə tanış ola bilirlər.

4. Əməkdaşlıq və beynəlxalq əlaqələr: Muzey, beynəlxalq musiqi muzeyləri və təşkilatları ilə əməkdaşlıq edərək, musiqi alətlərinin qorunması və təqdim edilməsi sahəsində müasir yanaşmaları izləyir.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi musiqi alətlərinə göstərdiyi qayğı ilə, ölkənin zəngin musiqi irsini yaşadır və onu dünya mədəniyyəti ilə paylaşır (5; 6).

## Ədəbiyyat

1. Bayramova, A. (1999). Heydər Əliyev və muzeylərimiz. Bakı.
2. Bayramova, A. (2000). Azərbaycanda muzey işinin tarixindən. Bakı: "Mədəni-maarif" jurnalı, N4/5,
3. Məlikova, E. (2021). Azərbaycan Muzeyşünaslığı, monoqrafiya, I cild. Bakı, 231.
4. Məlikova, E. (2022). Azərbaycan Muzeyşünaslığı, monoqrafiya, II cild. Bakı, 463.
5. https://apa.az/culture-policy/azerbaycan-musiqi-medeniyyeti-dovlet-muzeyine-turkiyeden-musiqi-aletleri-hediyye-olunub-525610
6. https://www.anl.az/down/meqale/zaman/2014/sentyabr/393145.htm

Elmi Mənbələr XVI Tezislər Toplusu / 52-55
Scientific Sources XVI Collection of Theses / 52-55
doi.org/10.36719/2663-4619/2024/XVI

**Sifayə Abbaslı**
Azərbaycan Universiteti
magistrant
abbassifaye@gmail.com

# UŞAQ EVLƏRİNDƏ YAŞAYAN VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLAN UŞAQLARLA SOSİAL İŞİN TƏŞKİLİ

***Açar sözlər:*** *valideyn himayəsindən məhrum olan uşaqlar, həssas qrup, uşaqlara reabilitasiya xidməti, uşaq hüquqları, uşaqlara müavinət*

***Keywords:*** *children deprived of parental care, vulnerable group, rehabilitation service for children, children's rights, children's benefit*

Validеyn himayəsindən məhrum olan uşaqlar hər zaman cəmiyyətimizin, dövlətimizin, eləcə də ayrı-ayrı ölkələrin və beynəlxalq təşkilatların (BMT, UNECSO və İCESCO)-nun daim diqqət mərkəzində olan sosial qrupdur. Bu qrupun nümayəndələri digərlərindən fərqli olaraq köməksiz vəziyyətdə, validеyn qayğısı və sevgisindən müəyyən qədər azaddırlar. Validеyn qayğısı uşağın maddi, mənəvi təməl ehtiyaclarını qarşıladığı üçün bu himayədən məhrum olan uşaqlar himayəçi qurumların, dövlətin, yaxud qeyri-hökümət təşkilatlarının köməyinə ehtiyac duyurlar.

Validеyn himayəsindən məhrum olan uşaqlar yaşı 18-dək hər iki validеyni məlum olmayan, validеynləri cəzaçəkmə müəssisəsində olan, bir validеyni vəfat etmiş, digəri orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş, validеyn tərbiyəsindən və qayğısından məhrum olan şəxslərdir (Validеynlərini itirmiş və validеyn

himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Qanun) (1).

Onlar arasında arzu olunmayan uşaqlar, fiziki və ya psixoloji zorakılıq görmüş, valideynlərini müharibə nəticəsində itirmiş, habelə bədbəxt hadisələr səbəbindən onlardan tamamilə ayrı düşmüş, məcburi köçkün, qaçqın, alkaqol və ya narkotik asılılığı olan şəxslərin övladlarıdır.

Bu uşaqlar "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanuna əsasən dövlət və ya qeyri-hökümət təşkilatlarının himayəsində təlim və tərbiyə edilir, hüquqları qorunurlar.

Uşaq evlərində yaşayan, valideyn himayəsindən məhrum olan uşaqlar xüsusi qayğıya ehtiyac duyduqları üçün onlarla sosial işin təşkili cəmiyyətə inteqrasiya olunmaları baxımından əsaslı bir fəaliyyətdir.

Bu prosesdə ən önəmli məsələ uşaqlarla reabilitasiya-profilaktika prosesinin aparılmasıdır.

Əvvəlcə uşaqların vəziyyətinin ilkin qiymətləndirilməsi ilə başlanılır. Onların psixoloji və sosial vəziyyətin müəyyənləşdirilir, təhsil, sağlamlıq vəziyyəti və tibbi xidmətlərə ehtiyacları müəyyənləşdirilir və hüquqlarının qorunması ilə bağlı məsələlər müvafiq qanunvericilik, eləcə də **beynəlxalq hüquqi sənəd və aktlarla tənzimlənir.**

Bu uşaqların bir çoxu psixoloji travma yaşadıqları üçün onlara psixoloji dəstəyin verilməsi çox vacibdir. Bu zaman uşaqlarla psixoloji konsultasiyalar və terapevtik müdaxilələr keçirilir, emosional dəstək göstərilir, məktəbə və sosial mühitə uyğunlaşmaları üçün psixoloji hazırlıq aparılır. Sonrakı mərhələlərdə sosial, fiziki və profilaktik tədbirlər nəzərdən keçirilir (Xəlilov, 2012; 2).

doi.org/10.36719/2663-4619/2024/XVI

Sosial reabilitasiya, uşaqların cəmiyyətə inteqrasiya olunmasına və normal sosial həyat tərzi sürməsinə köməklik etdiyi üçün onların sosial bacarıqları inkişaf etdirilir, təhsil hüquqları təmin edilir.

Fiziki reabilitasiya zamanı uşaqlar tibbi xidmətlərdən istifadə edirlər. (Buraya müalicəvi fizioterapiyanı da aid edə bilərik). Sonuncu mərhələdə aparılan profilaktik tədbirlər isə uşaqların intellektual inkişafını dəstəkləyir. Onlara fərdi proqramlar tətbiq edilməklə, sosial bacarıqlar öyrədilir.

Valideyn himayəsindən məhrum olmuş uşaqlar ailə tipli uşaq evlərində, 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslər internatlarda, sosial-reabilitasiya yardım mərkəzlərində, sosial sığınacaqlarda və səhiyyə sistemi müəssisələrində saxlanılırlar. (Sosial xidmət haqqında Qanun) (3).

Dövlət Statistika Komitəsinin məlumat mərkəzindən əldə etdiyimiz məlumata əsasən, 2024-cü ildə İnternat müəsisələrində təlim-tərbiyə alan valideyn himayəsindən məhrum olmuş 1459 var. Qeyd edək ki, bu rəqəm 2023-cü ildə 1363 idi.

Valideyn himayəsindən məhrum olan uşaqlara göstərilən sosial reabilitasiya, psixoloji, tibbi, təhsil və karyera qurulmasında göstərilən xidmətlərin, eləcə də 18 yaşdan sonra verilən birdəfəlik müavinətlərin (5017,5 manat) genişləndirilməsi və artırılması həmin şəxslərin sağlam vətəndaş kimi cəmiyyətə adaptasiya olunmasına yardımçı ola bilər. Azərbaycan Respublikası bu siyasəti həyata keçirməklə, bu cür problemlərin ölkəmizdə daha da azalmasına, həmin uşaqların faydalı şəxsiyyətə çevirilməsində müəyyən qədər öz töhfəsini verir.

## Ədəbiyyat

1. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının qanunu https://e-qanun.az/framework/3859
2. Xəlilov, H. (2012). Uşaq və yeniyetmələrin inkişafının sosial psixoloji məsələləri (Şərq Qərb).
3. Sosial xidmət haqqında Qanun https://e-qanun.az/framework/23195

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 56-57**
**Scientific Sources XVI Collection of Theses / 56-57**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Şövkət Rəhimova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
shovkatrehimova98@gmail.com

# "İSMAYIL HİDAYƏTZADƏNİN TEATRIMIZDAKI YERİ"

***Açar sözlər:*** *İsmayıl Hidayətzadə, rejissor, aktyor, teatr, səhnə, tamaşa, Koroğlu, opera, dram*

***Keywords:*** *Ismayil Hidayatzade, director, actor, theatre, stage, play, Koroglu, opera, drama*

İsmayıl Hidayətzadə Azərbaycan teatrının əlamətdar xadimlərindən biridir. O, əvvəllər "balaca Ərəblinski" olaraq tanınmış, Hüseyn Ərəblinskini təqlid etməyə çalışmış və bu məşhur ad ona bir çox gənc aktyorla müqayisədə daha çox verilmişdi. Lakin zaman keçdikcə Hidayətzadə öz tərzini formalaşdırmış, teatrda özünəməxsus xarakter yaratmağa başlamışdır. Ərəblinski ilə olan əlaqəsi, onun sənətinə qarşı olan ehtirası və böyük ustadından aldığı dərslər Hidayətzadəni yalnız aktyor kimi deyil, həm də rejissor olaraq tanınmağa gətirib çıxardı.

1920-ci ildən etibarən İ.Hidayətzadə artıq böyük səhnəyə addımlarını atımışdı. O, dövlət teatrında Cəfər Cabbarlının "Sevil" əsərində Əbdül Əli bəy, "Almas" pyesində Şərif, "1905-ci ildə" pyesində isə Salamov, M.F.Axundovun "Hacı Qara" əsrində Hacı qara, Ostrovskinin "Günahsız müqəssirlər"də Şamqa, Trenevin "Lyubov Yarovaya" da isə Şvabdiya rollarlarını canlandırıb. Hidayətzadə, həm də rejissorluq sahəsində təcrübə qazanmış eyni zamanda Akademik Milli

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Dram Teatrında, "Siyavuş", "Şahnamə", "1905-ci ildə", "Qaçaq Nəbi" kimi tamaşaların quruluşunu vermişdir.

İ.Hidayətzadə yalnız aktyorluq , rejissorluq deyil , eyni zamanda bir çox qərb müəlliflərininin əsərlərini tərcümə etmişdi. İsmayıl Hidayətzadə "Qız qalası" adlı ilk milli baletin librettosunu yazmış, Opera və Balet Teatrında da mühüm işlər görmüşdür. O bu teatrda ilk işi olan "Koroğlu" operasını Bütün bunlarla yanaşı, o, Azərbaycan teatrını inkişaf etdirmək, yeni kadrolar yaratmaq və özünəməxsus sənət tərzini qorumaqla məşğul olmuşdur.Moskvada keçirilən 1937-ci ildə Azərbaycan mədəniyyəti günlərində səhnələşdirdiyi "Koroğlu" və "Arşın mal alan" tamaşaları onun uğurlarını daha da artırmışdır.

Hidayətzadənin oyununda təbiilik, inandırıcılıq və xarakterik təhlil mövcud idi. Onun müasiri, rejissor Tuqanov onu "həmişə inandırıcı və real" olaraq qiymətləndirirdi. İsmayıl Hidayətzadə, yalnız teatr sahəsindəki fəaliyyətləri ilə deyil, həm də onun ilk milli baletinin yaradılması və opera studiyasının qurulması ilə də Azərbaycan mədəniyyətinə xidmət etmişdir.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 58-62**
**Scientific Sources XVI Collection of Theses / 58-62**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Samirə Yusifova**
Azərbaycan Universiteti
magistrant
samira.yusifova@student.au.edu.az

# BEYNƏLXALQ SOSİAL SİYASƏTDƏ ÖLKƏ İQTİSADİYYATININ ROLU

***Açar sözlər:*** *sosial inkişaf, sosial ədalət, iqtisadiyyat, sosial siyasət, bərabərlik*

***Keywords:*** *social development, social justice, economics, social policy, equality*

Sosial siyasət, daha geniş olaraq cəmiyyətin inkişaf sahəsinin spesifik bir aspekti olaraq nəzərdən keçirilir. Xarici dövlətlərdə xarici siyasət, maliyyə və ticarət siyasəti, müdafiə siyasəti, vergi siyasəti, təhsil siyasəti, gənclər siyasəti, demoqrafik siyasət və əmək siyasəti kimi müxtəlif siyasət növləri mövcuddur və hər biri fərqli sahələrdə əsaslı məqsədlərə xidmət edir. Sosial siyasətin əsas məqsədi isə sosial problemləri həll etmək və əhalinin rifahını təmin etməkdir. Ümumiyyətlə, siyasətin birbaşa və ya dolayı yolla sosial məsələlərlə əlaqəsi olduğu hallarda onun sosial siyasət olduğu qəbul edilir. Məsələn, gəlir vergisi *"yoxsulluq"* və *"məşğul-luğa"* təsir göstərərək sosial siyasət kimi qiymətləndirilir. Eyni tədbir müəssisələr üçün malların qiymətlərini tənzimləmək məqsədilə tətbiq edildikdə isə bu, sosial siyasət sayılmır, çünki burada sosial problemlər deyil, iqtisadi məqamlar ön plandadır. Beləliklə, sosial siyasət yalnız sosial problemlərin həlli ilə əlaqədar olan strategiyalar toplusunu əhatə edərək, cəmiyyətin ən həssas təbəqələrinin müdafiəsi və ümumi sosial ehtiyacların ödənilməsi ilə bağlı kollektiv səyləri əks etdirir. Bu baxımdan,

doi.org/10.36719/2663-4619/2024/XVI

sosial siyasət sahəsi geniş və çoxşaxəli olmaqla, cəmiyyətin ümumi strukturuna və rifah səviyyəsinə birbaşa təsir göstərir (Altan, 2009).

Bazar iqtisadiyyatı şəraitində sosial yönümlü siyasətin əsas istiqamətlərini müəyyən etmək, onun həyata keçirilmə yollarını seçmək və bu istiqamətdə islahatların özünəməxsus mexanizmlərini elmi əsaslarla düşünmək, proqnozlaşdırmaq olduqca vacibdir. Həmçinin, sosial müdafiə problemlərinin həllində beynəlxalq iqtisadi qurumlarla razılaşdırılmış qərarların qəbulunu təmin etmək xüsusi əhəmiyyət daşıyır. Azərbaycan iqtisadiyyatının inkişafında sosial gərginlik və sosial yük kimi obyektiv faktorların köklərini və gələcək inkişaf perspektivlərini araşdırmaq, demoqrafik dəyişiklikləri, təbii artımı, qaçqın və məcburi köçkün reallıqlarını, işsizlik və miqrasiya problemlərini dərindən təhlil etmək zəruridir. Bütün bu problemlərin həll yollarını müəyyənləşdirərək ölkənin və dövlətin iqtisadi siyasətində bu istiqamətdə real qərarların və mexanizmlərin tətbiqi təmin edilməlidir [2]. Sosial yönümlü siyasətin əsas istiqamətləri Azərbaycanın milli, mənəvi və demoqrafik xüsusiyyətləri nəzərə alınmaqla müəyyən edilməli və məşğulluq səviyyəsinin artırılması, həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluğun azaldılması kimi hədəflərə yönəlməlidir. Bu hədəflərlə yanaşı, orta gəlirli ailələrin əhalinin ümumi sayında xüsusi çəkisinin artırılması, bu istiqamətdə nəzərdə tutulan iqtisadi tədbirlərin elmi əsaslara uyğun proqnozlaşdırılması da mühüm əhəmiyyət kəsb edir.

Sosial siyasətin reallaşdırılmasının mürəkkəb mexanizmi onun əsas məqsəd və vəzifələrinin həyata keçirilməsinə yönəlməlidir. Bu mexanizm strukturca aşağıdakı kimi təşkil olunur:

- ***Sosial siyasətin subyekti*** - sosial münasibətləri tənzimləyən amillər əsasında təmsil olunmuş dövlət;

- ***Siyasi partiyalar, ictimai-siyasi hərəkatlər və vətəndaş cəmiyyətinin digər institutları*** - sosial siyasətin formalaşmasına və icrasına təsir göstərən əsas sosial qurumlar;
- ***Sosial siyasətin obyekti*** - cəmiyyətdə müxtəlif məna daşıyan və müxtəlif formalarda ifadə olunan sosial proseslər;
- ***Subyektlər və obyektlər arasında əlaqəni tənzimləyən normativ* - hüquqi aktlar sistemi**.

Konkret məsələlərin həlli zamanı bu struktura əlavə elementlər daxil edilə bilər ki, bunlardan ən vacibi sosial təminat mexanizmləridir (Bağırov, Həsənli, 2011).

Beynəlxalq sosial siyasətin yaranmasına təsir edən əsaslandırmalar isə daha çox humanitar və mənəvi xarakter daşıyır. Sənaye inqilabından sonrakı dövrdə insanların pis iş şəraitində, aşağı əmək haqqı ilə və bəlkə də ən əsası əlverişsiz iqtisadi şərtlər üzündən işləmək məcburiyyətində qaldıqları yoxsulluq, işəgötürənlərin ucuz işçi qüvvəsi hesab etdikləri qadın və uşaq işçi qüvvəsinin istehsal sektorunda yer tutmağa başlamasına səbəb oldu. İnsanların aclıq və yoxsulluq zülmündən azad ola bilməsi üçün belə bir sosial-iqtisadi mühitdə sülhə nail olmaq yalnız beynəlxalq sülhün və beynəlxalq ədalətin daxili sülhlə eyni dərəcədə təmin edilməsi ilə mümkün olacaqdır. Sosial siyasətin beynəlmiləlləşməsi üçün başqa bir bəhanə, əlverişsiz iş və həyat şəraitini ümumi səviyyədə bölüşən işçilər tərəfindən həmrəylik hissi adlandırıla bilər. Bu mənfi sosial-iqtisadi mübadilədən sonra yaranan həmrəylik hissi əvvəlcə milli və daha sonra beynəlxalq səviyyədə "Həmkarlar İttifaqı" hərəkətliliyinə səbəb oldu. Məhz bu andan etibarən bütün bu hərəkatların işçilər üçün bərabər və təhlükəsiz iş şəraiti yaratmaq istəyi və dövlətin işçiləri qorumaq üçün müdaxilə etmək istəyi başladı. Beynəlxalq sosial siyasətin formalaşmasında mühüm rol oynayan əsaslandırmalar işığında Beynəlxalq Sosial siyasət

"iqtisadi və sosial ehtiyacları olan insanları və qrupları qorumaq, bazar iqtisadiyyatı qaydaları ilə yaradılan və qloballaşma ilə ağırlaşan beynəlxalq sülhü təhdid edən bərabərsizliyi, qeyri-sabitliyi azaltmaq və aradan qaldırmaq məqsədi ilə sosial siyasətin və onları təşkil edən təşkilatın beynəlxalq aspektlərini" müəyyənləşdirir; Bu təşkilatlar vasitəsi ilə "milli, regional və beynəlxalq səviyyədə izləniləcək siyasətləri, bu siyasətlərin əhatə edəcəyi tədbirləri və bu tədbirlərin həyata keçirilməsini və nəzarətini öyrənən bir elm sahəsi olaraq təyin olunur". Tərifdən göründüyü kimi, beynəlxalq normaların yaradılması və onların beynəlxalq səviyyədə fəaliyyətinin təmin edilməsi beynəlxalq sosial siyasətin əsas məqsədidir. Beynəlxalq sosial siyasətin məqsədləri çox müxtəlif olsa da və zaman keçdikcə əhəmiyyətinə görə dəyişsə də, ümumilikdə bir neçə hissəyə bölünür. Bunlara aşağıdakılar adiddir:

- *beynəlxalq bazarda rəqabət şəraitində bərabərliyin təmin edilməsi,*
- *sülhün qorunması, sosial ədalətin təmin edilməsi,*
- *iqtisadi inkişafda sosial və humanitar məqsədlərin nəzərə alınması*
- *beynəlxalq hərəkata rəhbərlik* daxildir (Şenkal, 2005).

Beynəlxalq sosial iqtisadiyyatda siyasi və iqtisadi sistemlər arasında sıx bir qarşılıqlı əlaqə mövcuddur. Bu sahənin müstəqil bir araşdırma sahəsi kimi meydana çıxması, beynəlxalq təşkilatların formalaşmasında və idarə edilməsində əhəmiyyətli rol oynamışdır. Sosial siyasətin neoliberal konsepsiyası maliyyə siyasəti vasitəsilə kapital yığımının inkişafına kömək edir. Latın Amerikasının bir çox ölkəsində sosial təminat sistemlərinin özəlləşdirilməsi maliyyə mənbələrinin özəl kapitala verilməsi və kapitalın yığılması ilə nəticələndi. Neoliberal siyasətin sosial siyasətə ikinci təsiri hədəf təyin etməkdir.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Maliyyənin azaldılması sosial siyasətə əhəmiyyətli dərəcədə təsir göstərir. Neoliberal siyasət təzyiq qrupları olan sosial qruplar üçün siyasətləri təbliğ edərkən, kənd yoxsulları və qeyri-rəsmi sektor işçiləri bu sahəyə aid deyillər (Marliere, 2007).

Neoliberal siyasətlə formalaşan qloballaşma prosesi sosial demokratiya konsepsiyası baxımından bir çox problem gətirdi. Əvvəlki dövrlərdə müdafiə olunan müdaxiləçi dövlət konsepsiyasının dekommunizasiyası artıq mümkün olmasa da, qloballaşma nəticəsində yaranan sərvətin siniflər və millətlər arasında balanslı şəkildə bölüşdürülməsi üçün ciddi qaydalara ehtiyac var. Ancaq bunun üçün ümumi qəbul edilmiş iqtisadi qanunlara meydan oxumaq və beynəlxalq təzyiqlərlə mübarizə aparmaq lazımdır. Bu nəticələrdən qaçaraq, sosial demokratiya hərəkatı neoliberal qloballaşmanın ifratlarını qınamaqla kifayətlənir və əksinə, bunun ciddi alternativinin olmadığını qəbul edirdi.

## Ədəbiyyat

1. Altan, Ö. Z. (2009). Sosial Siyasət Dərsləri. Eskişehir: Anadolu Universiteti.
2. Bağırov, D. A., Həsənli, M. X. (2011). "Maliyyə" dərslik. Bakı.
3. Marliere, P. (2007). “Social Democracy in Europe: Continuity and Change”, Social Democracy Yesterday and Today, Trans: Bilal Canatan, Democracy Platform Magazine.
4. Şenkal, A. (2005). Qloballaşma prosesində sosial siyasət. İstanbul: Alfa Yayınları.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 63-65**
**Scientific Sources XVI Collection of Theses / 63-65**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Səbuhi Fətullazadə**
Azərbaycan Universiteti
magistrant
sabuhi.fatullazada@student.au.edu.az

# HƏRBİ VƏZİYYƏTDƏ PSİXİ SAĞLAMLIQ, TRAVMALAR VƏ TERAPİYA ÜSULLARI

***Açar sözlər:*** *psixi sağlamlıq, travmalar, koqnitiv davranış terapiyası, qrup terapiyası, EMDR*

***Keywords:*** *mental health, traumas, cognitive behavioral therapy, group therapy, EMDR*

Psixi sağlamlıq dedikdə insanın öz fəaliyyətini həyata keçirə bildiyi, adi həyat stresslərinin öhdəsindən gəldiyi, səmərəli çalışa bildiyi vəziyyət hesab edilir. İnsanın psixi sağlamlıq səviyyəsi sosial, psixoloji və bioloji amillərdən asılıdır. Dünya üzrə faktlar göstərir ki, yoxsulluq, müharibə, fəlakətlər, qeyri-sağlam həyat tərzi, zorakılıq təhlükəsi, sürətli sosial dəyişikliklər və digər səbəblərdən psixi sağlamlıq pozula bilər. Xüsusi ilə də müharibələr psixi sağlamlığa ciddi təsir göstərir (1).

Hərbi vəziyyətdə insanlar, həyatını itirmə təhlükəsi, silahlı toqquşmalar, əsir düşmə, günahkarlıq, yaxınlarını itirmə və zorakılıq səhnələrinə şahid olmaq  kimi travmatik hadisələrlə qarşılaşa bilərlər. Bunun nəticəsində isə PTSP, təşviş pozuntusu və depressiya kimi problemlər yarana bilər. PTSP insanların gözlənilməz bir anda qarşılaşdığı güclü narahatlıq, qorxu və çarəsizlik hissləri nəticəsində yarana bilər. Təşviş pozuntusu insanların anlaya bildikləri və gözlənilən təhlükəyə cavab olaraq hiss etdikləri bir duyğu hesab olunur. Bu problemlərin aradan qaldırılması üçün isə koqnitiv davranış

terapiyası, qrup terapiyası və EMDR terapiyasından istifadə etmək olar.

Koqnitiv davranış terapiyası insanların düşüncə, hiss və davranışları arasında bir əlaqənin mövcud olduğunu qeyd edir. İnsanları narahat edən yaşadıqları hadisələr deyil, həmin hadisələr haqqındakı düşüncələri və fikirləridir. İnsanlar başlarına gələn hadisələri müxtəlif cür dəyərləndirə bilərlər. Kimisi üçün normal olan bir vəziyyət, başqası üçün pis, dözülməz bir şey ola bilər (3).

Qrup terapiyası oxşar problemləri olan bir neçə insanın eyni vaxtda problemlərini həll etməyə yönəlmiş terapiya növüdür. Qrup terapiyanın məqsədi təcrübələri paylaşmaq, çətinliklərlə mübarizədə yeni resurslar əldə etmək və yollar tapmaq, özünüqiymətləndirmə, motivasiyanın yüksəldilməsi, kompleksləri aradan qaldırmaqdan ibarətdir. Qrupun yaranması üçün ən az 8-10, ən çox 18-20 nəfərin iştirakı ilə yaranır (2).

EMDR terapiyası keçmiş hadisələri xatırlamağı və göz hərəkətlərindən istifadə edərək yaddaşı yenidən proqramlaşdırmağı nəzərdə tutur. EMDR terapiyası aşağıdakı kimi tətbiq olunur:

1. Pasiyentin keçmişi: İlkin olaraq müalicə planı hazırlanır və pasiyentin keçmişi qiymətləndirilir.
2. Hazırlıq: Pasiyentin terapiyada iştirak etməsi üçün razılıq alınır və bu mərhələ terapevtlə inam hissini inkişaf etdirmək üçün də vacib sayılmalıdır.
3. Qiymətləndirmə: Terapevt, pasiyentin xatirələr ilə bağlı mövcud mənfi emosiyalarını və hisslərini aydınlaşdırır və müsbət inamı dəstəkləyir.
4. Desensitizasiya: Terapevtinizin barmağını gözlərinizlə izləməklə sizdən hansı reaksiyalar yəni– yaxşı, pis və ya neytral – olduğunuzu bildirməyiniz xahiş ediləcək.

5. Yerləşdirmə: Bu mərhələdə əsas məqsəd pasiyentin müsbət inancını və inamını gücləndirməyə yönəlir.

6. Bədən Skanı: Xatirə ilə əlaqəli fiziki və somatik reaksiyalar müəyyən edilib hazırlanacaq.

7. Yekun: Terapevt vizuallaşdırma üsullar tətbiq edir və seansdan sonra nələr ola biləcəyi barədə sizə ətraflı məlumat verir.

8. Yenidən qiymətləndirmə: Terapevtiniz yeni hədəflərə keçmək və köhnə hədəflərə yenidən nəzərdən keçirmək barədə müəyyən qərarlar verəcək (4).

## Ədəbiyyat

1. https://azertag.az/xeber/oktyabrin_10_u_umumdunya_psixi_saglamliq_gunudur-2781130
2. https://dushunce.az/entries/s%C9%99bin%C9%99-%C6%8Fl%C9%99kb%C9%99rova/qrup-terapiyas%C4%B1
3. https://psixologiyainstitutu.az/2022/10/16/koqnitiv-davranis-terapiyasi-n%C9%99dir/
4. EMDR Therapy for Trauma, PTSD, Anxiety, and Panic.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 66-68
Scientific Sources XVI Collection of Theses / 66-68
doi.org/10.36719/2663-4619/2024/XVI

**Aytac Həsənova**
Azərbaycan Universiteti
magistrant
xtac@inbox.ru

# KİBER ZORAKILIQ MÜASİR DÖVRÜN AKTUAL PROBLEMİ KİMİ

***Açar sözlər:*** *kiber zorakılıq, sosial media, bullinq, psixoloji problemlər, texnologiya*

***Keywords:*** *cyberbullying, social media, bullying, psychological problems, technology*

İnternetin və yeni ünsiyyət vasitələrinin meydana çıxmasından sonra zorakılığın başqa bir forması Kiber zorakılıq yarandı. Bu zorakılıq növü üçün uşaq, yeniyetmə və gənclərin istifadə etdiyi ən müasir alətlərdən, kompüterlərdən və smartfonlardan istifadə edilir. Və bu alətlər vasitəsilə zorbalar öz yaşıdlarını qorxudur və aşağılayırlar. Bu gün bu zorakılıq daha çox sosial şəbəkələrdə özünü biruzə verir. Kiber zorakılıq edən şəxslər tez-tez virtual hücumları zamanı şəxsiyyətlərini, üzlərini və adlarını kompüter ekranının arxasında gizlədirlər. Əslində, bu zorakılıq törədən şəxslər çox vaxt həqiqətən zəif olurlar, çünki onların çoxu ya ailələri tərəfindən imtina edilmiş, tək qalanlar və yaxud da valideyn nəzarətindən kənar qalan şəxslərdir. Çox vaxt böyüklərin diqqətini cəlb etmək üçün bu yola əl atırlar (2).

Kiber zorakılıq bir insanı qorxutmaq, ona zərər vermək və ya alçaltmaq üçün texnologiyadan istifadəni əhatə edən zorakılığın bir formasıdır. Kiber zorakılıq edən şəxslər istənilən vaxt sosial media, mətn mesajları, e-poçtlar, vebsaytlar və

digər rəqəmsal kanallar vasitəsilə insanı təqib edə bilər. Kiber zorakılığa aşağıdakılar daxil ola bilər:

- təhqiredici və ya hədələyici e-poçt və ya mesajlar göndərmək;
- foto, video və ya şərh kimi şəxsi alçaldan məzmunun yerləşdirilməsi;
- bir insanı ələ salmaq üçün vebsayt yaratmaq;
- şəxsin sosial şəbəkələrdəki səhifələrində təhqirlər yazmaq;
- başqalarını ələ salmaq üçün saxta sosial media hesabları yaratmaq;
- internetdə insanlar haqqında sirr və ya şayiələr yaymaq;
- onlayn video oyunları oynayan başqalarına təcavüz;
- xəbəri olmadan bir şəxsi lentə almaq və bu lenti sosial şəbəkələrdə yaymaq (1).

Kiber zorakılığın təsirləri real şəkildə baş verən zorakılığın nəticələri qədər ciddi şəkildə özünü göstərə bilir. Kiberbullinqin qurbanları narahatlıq, özünə inamsızlıq, depressiya hətta ən pis halda intihara meyillilik kimi psixoloji problemlərlə üzləşə bilərlər. Məxsusən də yeniyetmələr daha tez təsirə düşə bildikləri üçün bu cür hallarda daha çox təsirlənir, çünki emosional həssaslıqları daha yüksək olur.

Bu problemin həlli üçün nə qədər çalışılsa da problem tam olaraq həllini tapmamış olaraq qalır. Sadəcə problemin daha çox vüsət almaması üçün ictimaiyyətin məlumatlılığını artırmaq, valideynlərin və müəllimlərin uşaqlara açıq dialoq qurmasına şərait yaratmaq və ən əsası da texnologiya şirkətlərinin istifadəçi məlumatlarını qorumaq üçün güclü siyasətlər tətbiq etməsi vacibdir. Təbii ki, bununla bitmir. Xüsusilə də bu problemlə mübarizə üçün qaydaların sərtləşdirilməsi və zərərçəkmişlərə dəstək xidmətlərinin artırılması da son dərəcə vacibdir.

doi.org/10.36719/2663-4619/2024/XVI

## Ədəbiyyat

1. https://jeunessejecoute.ca/information/cyberintimidation-definition-et-solutions/
2. https://www.undertrenta.it/attualita/il-bullismo-ieri-e-oggi/

Elmi Mənbələr XVI Tezislər Toplusu / 69-71
Scientific Sources XVI Collection of Theses / 69-71
doi.org/10.36719/2663-4619/2024/XVI

**Suzanna Osmanova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
suzannaosmanova17@gmail.com

# SƏMƏD VURĞUNUN EV MUZEYİNDƏKİ RƏSM ƏSƏRLƏRİNİN EKSPOZİSİYADA ƏHƏMİYYƏTİ

***Açar sözlər:*** *Səməd Vurğun, ekspozisiya, rəsm, ev muzeyi, Mikayıl Abdullayev*

***Keywords:*** *Samad Vurgun, exhibition, painting, home museum, Mikayil Abdullayev*

Səməd Vurğunun ev muzeyi, onun həyatını və yaradıcılığını əks etdirən bir mədəniyyət məkanıdır. Bu muzey, Azərbaycanın böyük şairi və yazarı olan Səməd Vurğunun xatirəsini yaşatmaqla yanaşı, onun həyatına, yaradıcılığına və ətraf mühitinə aid zəngin bir kolleksiya təqdim edir. Muzey XIX əsrdə inşa edilmiş yaşayış binasının III mərtəbəsində yerləşir. Səməd Vurğun ömrünün son illərini bu mənzildə yaşamış, gərgin yaradıcılıq və ictimai fəaliyyətlə məşğul olmuşdur. Şairin vətənində - Qazax rayonunun Yuxarı Salahlı kəndində muzeyin filialı olan "Poeziya evi" isə 1976-cı ildən fəaliyyətədir (Məlikova, 2022, s. 463). Səməd Vurğunun ev muzeyindəki rəsm əsərləri isə çox mühüm rol oynayır. Bu əsərlər, şairin həyatını, ideyalarını, hisslərini və dövrünü daha yaxşı başa düşmək üçün vacib vizual vasitələrdir. Rəsm əsərləri ekspozisiyada bir neçə əsas məqsədi daşıyır. Səməd Vurğunun şeirlərindəki dərin emosiyalar və düşüncələr, onun poetik dilindən əlavə, rəsm əsərlərində də öz əksini tapır. Bu əsərlər, şairin iç dünyasını və yaradıcılığının ruhunu canlandırır. Həmin dövrün rəngləri, obrazları və mənzərələri, şairin

ilham mənbələrini anlamağa kömək edir. Şairin şeirlərində çoxsaylı simvollar və metaforalar mövcuddur (Məlikova, 2009, s. 232). Rəsm əsərləri bu simvolları və şairin poetik dili ilə bağlı təfərrüatları daha aydın şəkildə təhlil etməyə imkan verir. Muzeyin ekspozisiyası 5 otaq və dəhlizlərdən ibarətdir. Muzeydəki üç otaq – şairin qonaq otağı, iş və yataq otaqları olduğu kimi qorunub saxlanılır (3).

Ekspozisiyada Səməd Vurğunun maddi yardımı ilə 1950-ci illərin əvvəlində qohumu olan iki yetim qardaş üçün tikdirdiyi evin maketi sərgilənir. Maketin yuxarısındakı divardan xalq rəssamı Mikayıl Abdullayevin çəkdiyi "Gənc şair" (1975) əsəri asılıb. Maketin sağ tərəfindəki stenddə şairin uşaqlıq, gənclik, seminariyada oxuduğu illərdən çəkilmiş şəkilləri, müəllimlərinin və oxuduğu II Moskva Universitetinin binasının fotosu öz yerini alıb. Burada şairin şəxsi əşyaları yer alıb: 1953-cü ildə Ukraynadan gətirdiyi onların milli geyimi, diş fırçası, darağı, qayçısı, saatı, portsiqarı və başqa əşyaları var.

1944-cu ildə xalq rəssamı Mikayıl Abdullayevin naturadan çəkdiyi portretdə şair Şüvəlandakı bağda təsvir olunub. Əsər əvvəllər Moskvada Puşkin adına Təsviri İncəsənət Muzeyində, sonra Bakıda İncəsənət Muzeyində nümayiş etdirilib. Ev Muzeyinin açılışı ərəfəsində portret buraya gətirilib. Bundan başqa, divarda rəssam Kamil Xanlarovun "Xavər xanımın portreti" (1989) və ailə üzvlərinin fotoşəkilləri var. Əvvəldə söz açdığımız "sükuta qərq olmuş" saat da buradadır. Otaqdakı royalda bir çox bəstəkarlar – şairin dostları olan Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Səid Rüstəmov və başqaları özlərinin bir sıra gözəl əsərlərini ifa ediblər. Şairin dostu Pavel Antokolskinin hədiyyəsi – uzunömürlülük allahı sayılan Şou Sinin fiquru servantın üstündə, gürcü şairi George Leonidzenin hədiyyəsi olan şərab dəsti və Azərbaycan Rəssamlar İttifaqı adından verilmiş, Səttar Bəhlulzadənin

**doi.org/10.36719/2663-4619/2024/XVI**

"Qudyalçay sahili" (1953) mənzərəsi və Səməd Vurğunun son şəkli sayılan foto da bu otaqdadır (4).

Görkəmli fırça ustası M.Abdullayev, O.Sadıqzadə, N.İsmayılov, D.Kazımov, T.Kərimov, H.Zeynalov, N.Polyakov və başqalarının rəngkarlıq əsərlərində görkəmli söz xiridarının yaddaqalan obrazı yaradılmışdır. Bu lövhələrdə şairin yarıməsrlik ömrünün müxtəlif anlarına "güzgü" tutan rəssamlar onun təzadlı yaradıcı və insani yaşantılarına düşündürücü bədii görkəm verə bilmişlər (4). Muzeydəki rəsm əsərləri, Səməd Vurğunun şeirlərindən, şairin dövrünün mədəni atmosferindən və onun ətrafındakı insanların təsəvvürlərindən ilham almış sənətkarlar tərəfindən yaradılmışdır. Şeir və incəsənət bir-birini tamamlayan sahələrdir. Səməd Vurğunun öz dövrünün ən mühüm şairlərindən biri olaraq, onun əsərləri ilə yanaşı, sənətkarların onun ilham mənbələrindən ilham alaraq yaratdığı rəsm əsərləri də diqqətə layiqdir (5; 6).

## Ədəbiyyat

1. Məlikova, E. (2022). Azərbaycan Muzeyşünaslığı, monoqrafiya, II cild. Bakı, 463.
2. Məlikova, E. (2009). Azərbaycanın memorial xatirə muzeyləri, dərslik, Bakı, 232.
3. https://teleqraf.com/news/art/88715.html
4. https://kulis.az/xeber/senet/xeber-15451
5. https://icomaz.az/az/S%C9%99m%C9%99d%20Vur%C4%9Funun%20Ev%20Muzeyi
6. https://anl.az/down/meqale/525/525_noyabr2009/97203.htm

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 72-75**
**Scientific Sources XVI Collection of Theses / 72-75**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Aytac Hüseynli**
Azərbaycan Universiteti
magistrant
aytajhuseynlii@gmail.com

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCANDA SOSİAL XİDMƏTİN İNKİŞAFI

***Açar sözlər:*** *sosial xidmət, qanunvericilik, sosial siyasət, beynəlxalq proqramlar, sosial müdafiə*

***Keywords:*** *social service, legislation, social policy, international programs, social protection*

**Sosial xidmət anlayışı.** Beynəlxalq Sosial İşçilər Federasiyanın verdiyi tərifə əsasən (IFSW, 2014) sosial xidmət sosial dəyişiklik və inkişafı, sosial birliyə təşviqatı, insan hüquq və azadlıqlarını təmin etməyi özündə ehtiva edən bir peşə sahəsidir. Sosial ədalət, insan hüquqları, müxtəlifliklərə hörmət sosial xidmətin əsasını təşkil edir. 1988-ci ildə Beynəlxalq Sosial İşçilər Federasiyası (IFSW) sosial işin bir peşə olaraq ötən illərdə olduğu kimi bu gün insan hüquqları peşəsi olduğunu bütün dünyaya elan otmişdir.

Azərbaycan Respublikası Sosial xidmət haqqında qanuna görə sosial xidmət - çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması və ictimai həyatda digər insanlarla bərabər iştirak imkanlarının yaradılması istiqamətində həyata keçirilən kompleks tədbirlər sistemidir.

**Azərbaycanda sosial xidmətin yaranması və inkişafı.** Azərbaycanda ibtidai sosial xidmətin yaranması Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) dövrünə təsadüf edir. AXC müstəqilliyini elan etdikdən sonra dövlətin sosial siyasətini

həyata keçirmək üçün müvafiq təşkilatlar yaradıldı. Sözü gedən təşkilatlar əsasən dərnək və xeyriyyə cəmiyyətləri formasında fəaliyyət göstərir və müxtəlif sosial təşəbbüslər həyata keçirirdi. Bu təşəbbüslərə qadınların təhsilə cəlb edilməsi və onların sosial müdafiəsi ilə əlaqədar proqramlar irəli sürülməsi və.s daxil idi. Vətəndaşların səhiyyə və təhsil ehtiyaclarını təmin etmək üçün bir çox məktəblər və tibb müəssisələri açıldı (Hüseynov, 2014).

Sovet hakimiyyəti illərində Azərbaycanda sosial xidmətin təşkili tamamilə dövlətin nəzarəti altında mərkəzləşdirilmiş formada təşkil edilmişdir. Bu dövrdə dövlət bütün sosial xidmətləri idarə edirdi və vətəndaşların ehtiyaclarına cavab verilməsi üçün müvafiq sosial xidmət siyasəti həyata keçirirdi. İqtisadiyyatın kollektivləşdirilməsi siyasəti ilə əlaqədar dövlət tərəfindən sosial müavinət sistem yaradıldı. Əlilliyi olan şəxslər, ahıllar, uşaqlar və müharibə veteranlarına müavinətlər ödənirdi. Eyni zamanda müxtəlif sosial xidmət müəssisələri – uşaq evləri, xəstəxanalar, sosial yardım mərkəzləri və s. yaradılmışdı.

Müasir dövr Azərbaycan tarixində sosial xidmətin inkişafı 1980-ci illərin sonlarından etibarən başladı. Bu dövr Ermənistanın Qarabağa ərazi iddialarının artması, sonrasında Qarabağ Müharibəsinin başlaması ilə xarekterizə olunur. Sosial xidmət göstərilməsi istiqamətində ilk təşəbbüslərdən biri 15 avqust, 1989-cu ildə yaradılmış "*Qarabağa Xalq Yardımı Komitəsi*" idi. Həmçinin həmin ilin dekabr ayında Azərbaycan Qaçqınlar Cəmiyyəti yaradılmışdır. Hər iki təşkilat müharibədən zərər çəkmiş əhali və məcburi köçkünlər üçün maliyyə dəstəyi göstərirdi.

**Müstəqillik dövründə sosial xidmətin inkişafı.** Müstəqilliyin qazanılmasından sonra sosial xidmətlər sahəsində müstəqil idarəetmə strukturlarının yaradılması ilə bu

**doi.org/10.36719/2663-4619/2024/XVI**

istiqamətdə əsaslı addımlar atıldı. 1992-ci ildə Dövlət Sosial Müdafiə Fondunun yaradıldı və vahid sosial müavinət və pensiya sistemi formalaşdırıldı. Bu dövrdə beynəlxalq təşkilatların-BMT-nin, UNICEF-in və Dünya Bankının dəstəyi ilə sosial xidmətlər sahəsində bir sıra layihə və proqramalara imza atıldı. Bu proqramlar əsasən uşaq hüquqları, qadınların müdafiəsi və əlilliyi olan şəxslərin sosial inteqrasiyası ilə bağlı olmuşdur.

Sosial xidmətlər sisteminin tənzimlənməsi üçün dövlət tərəfindən müvafiq qanunvericilik bazasının yaradılması 2000-ci illərin əvvəllərinə təsadüf edir. 2005-ci ildə sosial xidmətlərin keyfiyyətinin artırılması, şəffaflığın təmin edilməsi məqsədilə "Sosial xidmət haqqında" qanun və digər müvafiq normativ aktlar qəbul edildi. Ölkəmizdə sosial xidmət sahəsində dövlətin vəzifələri “Sosial xidmət haqqında” qanunun 6-cı maddəsinə əsasən aşağıdakı kimi təsnif edilir (2):

- sosial xidmət sahəsində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi
- vahid sosial xidmət təsnifatının hazırlanması
- sosial xidmətin təmin edilməsi üçün zəruri infrastrukturun və şəraitin, o cümlədən maddi-texniki bazanın yaradılması və inkişaf etdirilməsi
- sosial xidmət sahəsində beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi və təcrübə mübadiləsinə şərait yaradılması və digər tədbirlər.

Bu gün Azərbaycanda sosial xidmətin təşkili həm dövlət həm də vətəndaş cəmiyyəti qurumları tərəfindən təşkil olunur. Bu qurumlardan ən əhəmiyyətlisi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi tabeliyində fəaliyyət göstərən Sosial Xidmətlər Agentliyidir. Agentlik Sosial Xidmət haqqında Qanuna əsasən sosial xidmətə ehtiyacı olan şəxslərə bu xidmətin göstərilməsini təmin edir.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Hazırda da bu sahəni daha da inkişaf etdirmək məqsədilə dövlət tərəfindən mütəmadi olaraq islahatlar həyata keçirilir, yeni proqram və layihələrə imza atılır.

## Ədəbiyyat

1. Hüseynov, C. (2014). Azərbaycanda Sosial Yardım Sahəsində fəaliyyət göstərən Qeyri-Hökumət Təşkilatlarının Profili və Verdikləri Yardımın Qiymətləndirilməsi, Magistrlik dissertasiyası, Ankara.
2. https://e-qanun.az/framework/23195

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 76-79**
**Scientific Sources XVI Collection of Theses / 76-79**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Azadə Nəzirova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
azadenezirova26@gmail.com

# ARXİV SƏNƏDLƏRİNDƏ QARABAĞ XANLIĞININ DAXİLİ SİYASƏTİ

***Açar sözlər:*** *Qarabağ, xanlıq, sənəd, arxiv, Pənahəli, İbrahimxəlil*

***Keywords:*** *Karabakh, khanate, document, archive, Panahali, Ibrahimkhalil*

Bildiyimiz kimi Azərbaycan ərazisində xanlıqların yaranması XVIII əsrin 40-cı illərinə təsadüf edir. Belə ki, Nadir şahın öldürülməsi ilə Azərbaycan XVIII əsrin ikinci yarısından bir neçə xırda dövlətlərə-xanlıqlara, sultanlıqlara parçalandı. Baş verən siyasi pərakəndəlik ölkəni zəiflətdi və ayrı-ayrı ərazilər arasında nəinki siyasi, təsərrüfat əlaqələrinin inkişafına da mane oldu. Qarabağın öyrənilməsində sənədli mənbələrin sistemləşdirilərək təhlili onu göstərir ki, xanlığın təşəkkülünü şərtləndirən amillər içərisində aşağıdakıları da qeyd etməliyik.

1. Yerli feodal və əyanların vahid hakimiyyət altında birləşdirilməsi və onların mərkəzi hakimiyyət altında birləşdirilməsi.
2. Qarabağ məliklərinin hakimiyyət, torpaq və ərazi iddialarının qarşısının alınması
3. Pənahəli xanın bilavasitə özünün xan olmaq istəyi (2).

Qarabağ xanlığını müstəqil elan edən Pənahəli xana rəsmi şəkildə xanlıq titulunun verilməsi Adil şahın adı ilə əlaqədardır. Belə ki Mirzə Camal Cavanşirin "Qarabağnaməsinə" əsasən Nadir şahın qardaşı oğlu Əhməd xan Adil

şah ləqəbi ilə şahın taxtına keçdi. Adil şah tərəfindən Cənubi Azərbaycanın hakimi təyin edildi. Təbriz xanlığını idarə edən Əmiraslan xan 1747-ci ildə Qarabağ xanlığının Adil şaha itaət etməsi ilə xanlıq və sultanlıq titulu vermişdir (Cavanşir, 1989). Bu amil bizə göstərir ki, xanlıq idarəçilik xüsusiyyətlərinə görə müstəqil idi. Amma xanlıq üçün XVIII əsrin II yarısında əsas təhlükə Gürcü çarlığı və Rusiyanın xanlığın daxili işlərinə qarışması olmuşdur. Pənahəli xanın birləşdirmə siyasətini davam etdirən İbrahimxəlil xan öz ərazilərində müstəqillik meyilləri olan məlikləri müzakirə üçün Şuşa qalasına çağırmağa nail olmuşdur. Xanın heç nədən xəbəri olmadığını və güzəşt edəcəyinə inanan məliklər həb edilib müstəqil idarəegmədən uzaqlaşdırıldı. Həbs edilən məliklərin əvəzinə (Xəmsə məlikləri-Xaçın, Talış(Gülüstan), Vərəndə, Çiləbörd, Dizaq) öz adalmalarından təyin etdi. Bu hahisə Çar Rusiyasının narazılığına səbəb oldu. Arxiv sənədlərinin birində belə bir məlumat qeyd olunur ki, məliklər öz nümayəndələrini rus çarınıb yanına göndərmiş və Potyomkinin Qarabağ gələrsə, Rusiya ilə birlikdə xanlığa qarşı mübarizə aparmağa hazırdılar. Rus qoşunlarının tələbi ilə məliklər azad edildi. Azad edilən məliklər II İrakliyə müraciət edərərək Gürcüstanda məskunlaşmaq üçün icazə istəmişdilər (1).

Dövrün inzibati, sosial-iqtisadi tarixini sadəcə həmin dövrə aid bir çox mənbələrdən həmçinin arxiv mənbələrindən də öyrənilmişdir. Bu sənədlər kompleksləri tədqiqat obyektinə çevrilərək mövzunun tamamlanmasında vasitəçi rol oynamışdılar. Xan qeyri-məhdud hakimiyyətə malik idi, yəni qanunverici və icraedici hakimiyyət xanların səlahəiyyətləri idi. Ali Məşvərətçi Şura isə yalnız qərarların verilməsində iştirak edirdi. .

Qarabağ xanlığının sosial-iqtisadi münasibətlərini öyrənmək üçün mühüm arxiv sənəd mənbələrindən biri də 1823-cü il

**doi.org/10.36719/2663-4619/2024/XVI**

təsviridir. Qarabağda xanlıq ləğv edilən kimi Qafqazda rus qoşunlarının komandanı, general A, P. Yermolovun göstərişi ilə ilə Qarabağın əhalisinin sayını və gəlirlərini əks etdirən 35 cədvəl tərtib edilmişdir. Sonrakı dövrdə əhalinin təsərrüfat və statistikasını əks etdirən iki əlavə sənəd cədvəli də hazırlanmışdır. Azərbaycan Dövlət Tarix Arxivinin Hərbi Dairə Rəsmi fondunda 14 saylı sənəddə Qarabağ xanlığının tarixinə dair maraqlı materiallar saxlanılır (2. 1).

Qarabağ xanlığı inzibati ərazi bölgüsünə görə 21 mahal və eləcə də beş, xristian məlikliyindən ibarət olmuşdu. Azərbaycan Dövlət Tarix Arxivinin 24-cü fondynda saxlanılan 143 nömrəlu sənədə əsasən mahalları naiblər, xristian məlikləri isə məlikliklər idarə editdi. Mahalların əhalisinin böyük çoxluğu türk-müsəlman əhali idi. Bu faktı arxiv sənədlərindəki mahal əhalisinin statisik göstəricilərindən daha ətraflı öyrənmək mümkündür (4).

Qarabağ xanlığının daxili siyasətinə həmçinin əhalinin statistik göstəriciləri haqqında məlumatlar da arxiv fondlarında qorunur. Məlumdur ki, Qarabağ xanlığının əhalisinin əksəriyyəti türk-müsəlman əhalisi olmuşdur. Buna nümunə olaraq Cavanşir, otuziki, Ziyadoğlu, iyirmidörd tayfalarını göstərə bilərik. İlk dəfə olaraq Mirzə Adıgözəl bəyin Qarabağnaməsində xanlığın etnik tərkibi haqqında, siyasi və iqtisadi həyatında heç bir əhəmiyytəli rol oynamayan alban xrsitian məlikləri haqqında ətraflı məlumat vermişdir. Sənədli mənbələrə istinad edərək qeyd etməliyik ki, Çar Rusiyası işağlı və ermənilərin C. Qafqaza köçürülməsindən sonra da statsitik göstəricilərə də bölgənin əsas üstünlüyü daima Azərbaycan türklərindən ibarət olmuşdur. 1823-cü ilə dair statistik qeydlərdə Qarabağ əyalətində xanlara, bəylərə məxsus olan torpaqlarda ermənilərin yerləşdiyi kəndlər qeyd edilmişdir (Məsələn: Otuziki mahalının Cələbilər ndində 17 ev Xaçın

**doi.org/10.36719/2663-4619/2024/XVI**

mahalı Sarakeçiş kəndində 18 ev və. s). 1834-cü il statistik göstəricilərin əsasən (arxiv materiallatına istinad edilərək) ermənilər sadəcə əhalinin 34, 8 %-ni təşkil etmişdilər (5). Lakin XIX əsrin sonlarında əhalinin etnik tərkibində dəyişiklik daha çox olmuşdu. XIX əsrin 80-ci illərində ermənilər artıq əhalinin 58, 2% olmuşdu (6).

Ermənilərin Qarabağa köçürülməsini, Qarabağ regionunun etnik tərkibinin zamanla dəyişilməsini kameral siyahılardan daha dəqiq öyrənmək olur. Köçürülən erməni əhalisi buna baxmayaraq müxtəlif dövrlərdə Azərbaycan xalqı üçün daima ciddi problemlər yaratmışdılar. Bunun bariz nümunəsi kimi, bölgədəki tarixi Azərbaycan adlarının bir çoxunun ermənilər tərəfindən dəyişidirlməsi, həmin ərazilərdəki türk-müsəlman əhalinin öz əzəli torpaqlarını tərk etməyə məcbur edilməsi əslində erməni və onların himayədarı olan Rusiyanın işğalçılıq siyaəstinin başlıca məqsədi idi.

## Ədəbiyyat

1. AMEA, AA. Bakıxanov adına Tarix İnistutunun Elmi arxivi (inv. 1795/2), (inv. 21.), (inv. 8903).
2. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi. Fond 24, siyahı 1, iş 143. Fond 24, siyahı 1, iş 166
3. Cavanşir, M. C. (1989). Qarabaği. Qarabağ tarixi, I kitab. Bakı, 148.
4. https://milliarxiv.gov.az/az/azerbaycan-torpaqlarina-ermenilerin-kocurulmesi-haqqinda-arxiv-materiallari
5. https://azerbaijan. az/related-information/105
6. https://milliarxiv. gov. az/az/azerbaycan-torpaqlarina-ermenilerin-kocurulmesi-haqqinda-arxiv-materiallari

Elmi Mənbələr XVI Tezislər Toplusu / 80-83
Scientific Sources XVI Collection of Theses / 80-83
doi.org/10.36719/2663-4619/2024/XVI

**Cəmilə Rüstəmova**
Azərbaycan Universiteti
magistrant
rustmovac@gmail.com

# İNSAN ALVERİ QURBANLARININ SOSİAL REABİLİTASİYASI VƏ CƏMİYYƏTƏ İNTEQRASİYASINDA SOSİAL XİDMƏTLƏRİN TƏŞKİLİ

***Açar sözlər:*** *insan, insan alveri, sosial reabilitasiyası, cəmiyyətə inteqrasiya, sosial xidmətlər*
***Keywords:*** *human, human trafficking, social rehabilitation, integration into society, social services*

İnsan alveri qurbanlarının reabilitasiyası və inteqrasiyası üçün sosial xidmətlərin təşkili səhiyyə, hüquq və sosial sektorlar üzrə əlaqələndirilmiş səyləri tələb edən mürəkkəb, lakin vacib vəzifədir. Qurbanlar çox vaxt travmadan, psixi sağlamlıq problemlərindən və sosial dəstəyin olmamasından əziyyət çəkirlər ki, bu da onların cəmiyyətə reinteqrasiyasına mane olur. Sosial xidmətlərə psixoloji məsləhət, tibbi yardım, hüquqi yardım, təhsil, peşə hazırlığı və mənzil təminatı daxil edilməlidir. Bu xidmətlər qurbanların təcili ehtiyaclarını həll etməyə kömək edir, eyni zamanda onlara öz həyatlarını müstəqil şəkildə yenidən qurmaq imkanı verir (Jones, 2016). Effektiv sosial reabilitasiya proqramı adətən qurbanların təhlükəsizliyini təmin etmək və onların fiziki və psixi sağlamlığını sabitləşdirmək üçün təcili böhrana müdaxilə ilə başlayır. Bunun ardınca, uzunmüddətli inteqrasiya proqramları qurbanların məşğulluq perspektivlərini və sosial hərəkətliliyini artıraraq bacarıqların öyrədilməsi və təhsil imkanlarını təmin

**doi.org/10.36719/2663-4619/2024/XVI**

edir. Hüquqi yardım da mühüm əhəmiyyət kəsb edir, qurbanlara mürəkkəb hüquq sistemlərini idarə etməyə və ədaləti təmin etməyə kömək edir. Qeyri-hökumət təşkilatları (QHT-lər) və dövlət qurumları ilə əməkdaşlıq vacibdir, çünki bu təşkilatlar ixtisaslaşmış resurslar təklif edir və sosial inklüzivliyi təşviq edən dəstək şəbəkəsi yaradırlar (Patel, 2018).

İnsan alveri qurbanlarının reabilitasiyasına və inteqrasiyasına yönəlmiş sosial xidmətlərin təşkili, sağ qalanlara öz həyatlarına nəzarəti bərpa etmək və cəmiyyətə yenidən inteqrasiya etməkdə kömək etmək üçün çox vacibdir. Bu cür xidmətlər təkcə qurbanların təcili ehtiyaclarını deyil, həm də onların uzunmüddətli rifahını təmin edən multidisiplinar yanaşma tələb edir. İnsan alveri qurbanlarının uzunmüddətli reabilitasiyası onların unikal və mürəkkəb ehtiyaclarını qarşılamaq üçün çoxşaxəli yanaşma tələb edir. Məsləhət və Psixi Sağlamlıq Xidmətləri qurbanlara travmalarını müalicə etmək, özünə dəyər qazandırmaq və möhkəmlik yaratmaqda kömək etmək üçün vacibdir. Travma ilə bağlı məlumatlandırılmış, qurban mərkəzli məsləhətlərin təmin edilməsi xidmətlərin insan alveri qurbanlarının təcrübələrinə həssas olmasını təmin edir, onlara emosional və əqli cəhətdən sağalmaq üçün təhlükəsiz mühit təklif edir. Bacarıqların İnkişafı və Təhsili müstəqilliyin və iqtisadi səlahiyyətlərin gücləndirilməsi üçün çox vacibdir. Peşə təhsili, təhsil proqramları və bacarıqların artırılması seminarlarında iştirak etməklə, sağ qalanlar məşğulluğu təmin etmək və maliyyə sabitliyinə nail olmaq üçün vacib alətlər əldə edirlər ki, bu da onların həyatlarını yenidən qurmaq yolunda mühüm addımdır. Sosial Reinteqrasiya Proqramları hərtərəfli dəstək strukturunda mühüm rol oynayır, çünki bu proqramlar sağ qalanlara öz icmaları ilə yenidən əlaqə saxlamağa və sosial şəbəkələrini yenidən qurmağa kömək edir. İcma əsaslı təşəbbüslər, dəstək qrupları

**doi.org/10.36719/2663-4619/2024/XVI**

və mentorluq proqramları qurbanlara etibarlı münasibətlər qurmaq və müsbət sosial qarşılıqlı əlaqədə olmaq üçün təhlükəsiz yerlər təklif edir (Ford, 2019). Birlikdə bu xidmətlər təkcə qurbanların psixoloji sağalmasına kömək etmir, həm də onlara yenidən qurban olma riskini minimuma endirərək və uzunmüddətli rifahı təşviq edərək, cəmiyyətə uğurla reinteqrasiya etmək imkanı verir.

Hüquqi və iqtisadi səlahiyyətlərin verilməsi insan alverindən xilas olmuş şəxslərin sosial reabilitasiyası və uzunmüddətli inteqrasiyası üçün vacibdir. Məşğulluq proqramlarına çıxış çox vacibdir, çünki onlar sağ qalanlara maliyyə müstəqilliyinə aparan yol təqdim edir. Müəssisələr və təşkilatlarla əməkdaşlıq edərək, sosial xidmətlər sağ qalanların bacarıq səviyyələrinə və ehtiyaclarına uyğunlaşdırılmış iş imkanları yarada bilər. Bu, təkcə özünü təmin etməyi təşviq etmir, həm də inam və möhkəmlik yaratmağa kömək edir, sağ qalanlara məqsəd və sabitlik hissi ilə irəliləmək üçün güc verir. İşə yerləşdirmə dəstəyi, işəgötürənlər üçün iş yerində həssaslıq təlimi ilə birlikdə sağ qalanların özlərini dəyərli və təhlükəsiz hiss etdikləri xoş bir mühit təmin edə bilər. Maliyyə Yardımı və Mikrokreditlər sağ qalanlara iqtisadi güclənmə üçün əlavə vasitələr təklif edir (Zimmerman, 2012). Qrantlar, subsidiyalar və mikrokreditlər sağ qalanlara kiçik biznesə başlamaq kimi sahibkarlıq məqsədlərini həyata keçirməyə imkan verə bilər. Bu maliyyə müstəqilliyi zəifliyin azaldılmasında çox vacibdir, çünki o, sağ qalanların yenidən istismar vəziyyətlərinə düşməsinin qarşısını alır. Mikrokreditlər, həmçinin, sağ qalanlara öz bacarıq və maraqlarına uyğun olan müəssisələrə sərmayə qoymağa imkan verən çeviklik təmin edir, şəxsi inkişafı və sabitliyi daha da dəstəkləyir. Birlikdə məşğulluğa çıxış və maliyyə yardımı sağ qalanları öz həyatlarını ləyaqət və

doi.org/10.36719/2663-4619/2024/XVI

muxtariyyətlə yenidən qurmaq üçün lazım olan resurslarla təchiz edən möhkəm bir çərçivə təşkil edir (Russell, 2020).

## Ədəbiyyat

1. Ford, M. (2019). Human Trafficking, Modern Slavery, and the Human Condition. New York, "Routledge".
2. Patel, N. (2018). Human Trafficking: Prevention and Rehabilitation Strategies. Chicago, "University of Chicago Press".
3. Russell, L. (2020). Global Perspectives on Victim Rehabilitation. London, "SAGE Publications".
4. Jones, J. (2016). Victim Support and Social Reintegration: A Framework for Action. Boston, "Beacon Press".
5. Zimmerman, C. (2012). Human Trafficking and Health: A Global Perspective. Cambridge, "Cambridge University Press".

Elmi Mənbələr XVI Tezislər Toplusu / 84-88
Scientific Sources XVI Collection of Theses / 84-88
doi.org/10.36719/2663-4619/2024/XVI

**Ceyhunə Əhədli**
Azərbaycan Universiteti
magistrant
jeyhuna.ahadly@student.au.edu.az

# ƏLİLLİYİ OLAN ŞƏXSLƏRİN REABİLİTASİYASINDA PSİXOSOSİAL YANAŞMANIN TƏSİRİ

***Açar sözlər:*** *əlilliyi olan şəxs, sosial dəstək, psixososial reabilitasiya, psixoloji rifah, sosial qərəz*

***Keywords:*** *person with disabilities, social support, psychosocial rehabilitation, psychological well-being, social bias*

"Əlillik” anlayışı insanlıq tarixi qədər qədimdir və müxtəlif cəmiyyətlərin mövcud olduğu ilk dövrlərdən etibarən “sosial fenomen” olaraq diqqət çəkir. Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) görə “Əlillik” - "İmkansızlıq, yaş, cinsiyyət və sosial - mədəni amillərə əsaslanaraq bir insandan gözlənilən rolların məhdudlaşdırılması və ya yerinə yetirilməməsidir". Bir insanın mühiti, ailə faktoru və mənəviyyatı əlilliyin təcrübəsinə və dərəcəsinə böyük təsir göstərir. Mühitin əlverişsiz olması, əlilliyi olan şəxslərin başqaları ilə bərabər cəmiyyətdə tam və səmərəli iştirakına mane olan situasiyalar yaradır. Əlilliyi olan insanlar cəmiyytədə mövcudluğu zamanı qarşılaşdıqları problemlər yalnız fərdi məhdudiyyətlərlə qısnanılmır həmçinin, ***sosial qərəz, ayrıseçkilik*** və ***əlçatmazlıq*** kimi digər diskrimanisyalara məruz qalırlar (2).

Buna görə əlilliyi olan şəxslərin reabilitasiyasına çoxölçülü bir yanaşma ilə təsir lazımdır. *Fiziki terapiya, peşə reabilitasiyası, psixoloji dəstək* və *sosial şüur proqramları* kimi müxtəlif üsullar insanın həm fiziki, həm də psixososial

rifahının yaxşılaşmasına şərait yaradır (Türkiye Özürlüler Araştırması, 2002).

Hal-hazırda yalnız tibbi müdaxilələr əlilliyi olan şəxslərin müstəqil həyat sürmələri və cəmiyyətdə tam iştirak etmələri üçün kifayət deyil. Əlilliyi olan şəxslərin reabilitasiyası insanların həyat keyfiyyətini yaxşılaşdıran və sosial bərabərliyi təşviq edən vacib bir proses kimi qəbul edilməlidir.

Əlilliyi olan şəxslərin reabilitasiya sistemində sosial-psixoloji yanaşmaların olması ***sosial birliyi*** və ***psixoloji rifahı*** artırmağa yönəlməlidir. Bu yanaşmalar əlilliyi olan insanların üzləşdiyi *sosial maneələr* və *şəxsi problemlər* çərçivəsində nəzərdən keçirilir. Bu yanaşmaların əsas komponentləri bunlardır:

- Sosial dəstək sistemləri,
- Sosial damğa (stiqmatizasiya) və ayrıseçkilik,
- Psixososial reabilitasiya,
- Şəxsiyyətin formalaşması və özünüinkişaf,
- Ailə dinamikasının strukturu,
- İctimai iştirak və aktivlik,
- Əlilliyi olan şəxslərin hüquqları və mövcudluğu.

Yuxarıda adı qeyd edilən, Psixososial reabilitasiya, əlilliyi olan insanların psixoloji, sosial və emosional ehtiyaclarını qarşılamağa yönəlmiş, onların həyatlarında daha aktiv və mənalı iştirakını dəstəkləyən bir müdaxilə üsuludur. Bu proses insanın fiziki, əqli və sosial bacarıqlarını inkişaf etdirməyi, sosial mühitə inteqrasiyasını təmin etməyi və müstəqil həyat tərzini mənimsəməsini hədəfləyir. Psixososial reabilitasiyanın əsas məqsədi, əlilliyi olan şəxslərin həyat keyfiyyətini yüksəltmək və onların ictimai həyatda tam iştirakını təmin etməkdir.

Psixososial reabilitasiya prosesi aşağıdakı əsas addımlardan ibarətdir:

**doi.org/10.36719/2663-4619/2024/XVI**

**- Qiymətləndirmə -** Əlilliyi olan şəxsin fiziki, psixoloji, sosial və emosional vəziyyətinin hərtərəfli təhlili aparılır. Bu addım, insanın güclü tərəflərini müəyyənləşdirməklə fərdi reabilitasiya planının hazırlanması üçün təməl rolunu oynayır.

**- Məqsədlərin müəyyən edilməsi -** Əlilliyi olan şəxs və onun ailəsinin iştirakı ilə qısa və uzunmüddətli məqsədlər formalaşdırılır. Bu məqsədlər insanın həyat keyfiyyətini yaxşılaşdırmağa yönəlmiş, reallaşdırıla və ölçülə bilən şəkildə qurulmalıdır.

**- Müdaxilə -** Qiymətləndirmə və məqsədin müəyyən edilməsi mərhələlərindən sonra fərdin ehtiyaclarına uyğun müdaxilə metodları həyata keçirilir. Bu mərhələyə fərdi və qrup terapiyası, sosial bacarıqların inkişaf etdirilməsi, peşə reabilitasiyası, ailə dəstəyi və fərdi inkişafda məlumatlılığı artırmaq məqsədilə maarifləndirmə tədbirləri daxildir.

**- Müşahidə və yenidən qiymətləndirmə:** Reabilitasiya prosesinin gedişi mütəmadi olaraq izlənilir və məqsədlərə nail olunub-olunmadığı qiymətləndirilir. Zərurət yarandıqda reabilitasiya planına yenidən baxılaraq uyğun dəyişikliklər həyata keçirilir.

Bu mərhələlər vasitəsilə psixososial reabilitasiya prosesi, əlilliyi olan şəxslərin həyat keyfiyyətini yüksəltmək və onların cəmiyyətə daha aktiv inteqrasiyasını təmin etməyə yönəlmiş məqsədyönlü və strukturlaşdırılmış bir yanaşma ortaya qoyur. Psixososial reabilitasiyanın faydalarını isə aşağıda qeyd olunduğu kimi təsnifləndirə bilərik (3):

1. Həyat keyfiyyətinin yaxşılaşdırılması,
2. Əlilliyi olan şəxsin müstəqillik duyğusunun bərpa olunması,
3. Cəmiyyətdə iştirakçılığını təmin etmək,
4. Psixoloji rifahın yüksəldilməsi,
5. Əlilliyi olan şəxsin ailəsinə dəstək.

Psixososial Reabilitasiya, əlilliyi olan şəxslərin həyatını daha mənalı etmək və cəmiyyətə verdikləri töhfələri dəstəkləmək üçün mühüm bir yanaşmadır. Bu proses, əlilliyi olan insanların yalnız xüsusi ehtiyacları olan fərdlər deyil, eyni zamanda cəmiyyətin ayrılmaz bir hissəsi olduqlarını və potensiallarını inkişaf etdirmək hüququna sahib olduqlarını vurğulayır. *Psixososial reabilitasiya* xidmətlərinə çıxışın asanlaşdırılması və cəmiyyətdə əlilliyi olan şəxslərə dair məlumatlılığın artırılması daha əhatəli bir sosial mühitin formalaşmasına yardım edəcəkdir. Əlilliyi olan şəxslərin şəxsiyyətinin formalaşması və fərdi inkişafı, sağlam fərdlərdən fərqlənə bilər, lakin əsas ehtiyaclar və inkişaf mərhələləri baxımından oxşarlıqlar da mövcuddur. Şəxsiyyətin formalaşması və fərdi inkişaf proseslərində əlilliyi olan şəxslər özünəhörmət və özünütanıma ilə bağlı çətinliklər yaşaya bilərlər. Sosial mühitdə xarici görünüşlərinə, bacarıqlarına dair reaksiya, mühakimələr, bu insanlarda mənfi emosiyalara və demotivasiyaya səbəb ola bilər (4). Əlilliyi olan şəxslərin ailələrində, digər ailələrə nisbətən daha fərqli bir dinamika yaranır. Ailədə sağlamlıq imkanları məhdud uşağın doğulması ilə ailədaxili rollar dəyişə bilir, yeni vəzifələr yaranır və bir çox hallarda emosional gərginlik artır. Ailə üzvlərinin bu vəziyyətə uyğunlaşması üçün müəyyən müddət tələb olunur. Bu zaman çərçivəsində onlar günahkarlıq, qəzəb və kədər kimi hisslər yaşaya bilər. Digər ailə üzvlərindən, dostlardan və peşəkar dəstək xidmətlərindən alınan kifayət qədər dəstək bu uyğunlaşma prosesini asanlaşdırır. Sağlamlıq imkanları məhdud uşağa qayğı, ailədə digər uşaqların laqeyd qalmasına və ya ailə münasibətlərinin gərginləşməsinə səbəb ola bilər.

Əlilliyi olan şəxslərin həyatı digər insanlardan fərqli olsa da, əsas ehtiyaclar və inkişaf mərhələləri baxımından oxşarlıqlar mövcuddur. Əlilliyi olan insanların həyat keyfiyyətini

**doi.org/10.36719/2663-4619/2024/XVI**

yüksəltmək üçün ailələrin, cəmiyyətin və dövlətin birgə səylərinin dəstəklənməsi vacibdir. Bu səbəbdən, sosial bacarıqların inkişafını təmin edərək fərdin potensial zəifliyini azaltmağa yönəlmiş tədbirlər hər bir reabilitasiya planının əsas komponenti olmalıdır.

## Ədəbiyyat

1. Türkiye Özürlüler Araştırması [TÖA]. 2002.
2. https://www.who.int/health-topics/disability#tab=tab_
3. https://rm.coe.int/16805a2a15
4. https://www.psrrpscanada.ca/what-psychosocial-rehabilitation

Elmi Mənbələr XVI Tezislər Toplusu / 89-91
Scientific Sources XVI Collection of Theses / 89-91
doi.org/10.36719/2663-4619/2024/XVI

**Əli Məmmədli**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
elii.memmedli.065@gmail.com

# SEYİD ƏZİM ŞİRVANİNİN ARXİV FONDUNUN QORUNMASININ NƏZƏRİ ƏSASLARI VƏ MÜASİR PROBLEMLƏRİ

***Açar sözlər:*** *Seyid Əzim Şirvani, arxiv fondu, nəzəri əsasları, qorunması, müasir problemlər*
***Keywords:*** *Seyyed Azim Shirvani, archival fund, theoretical foundations, preservation, modern problems*

1. Seyid Əzim Şirvaninin arxiv fondları, onun yaradıcılığının, şəxsi həyatının və ictimai fəaliyyətinin əhəmiyyətli sübutlarıdır. Bu fondlar, yalnız Şirvaninin özünə aid sənədləri deyil, həm də onun dövrünə, ədəbiyyatına və mədəniyyətinə dair məlumatları ehtiva edir. Arxivlərin qorunması, bu dəyərli məlumatların gələcək nəsillərə ötürülməsi baxımından kritik əhəmiyyət kəsb edir. Bu yazıda, Şirvaninin arxiv fondlarının qorunmasının nəzəri əsasları və müasir problemləri araşdırılacaq. (Həsənova, 2024).

I. Arxiv Fondlarının Nəzəri Əsasları

1.Arxiv Fondlarının Mahiyyəti

Arxiv fondları, tarixi sənədlərin və qeydlərin sistemli bir şəkildə toplanması, qorunması və saxlanılması məqsədini güdür. Seyid Əzim Şirvaninin arxiv fondları, onun ədəbiyyata olan töhfələrini, həyatını, fəlsəfəsini və ictimai fəaliyyətini əks etdirir. Bu sənədlər, yalnız bir şəxsə aid deyil, eyni zamanda dövrün mədəniyyətini, sosial dinamikasını və tarixi kontekstini də əhatə edir.

doi.org/10.36719/2663-4619/2024/XVI

2.Arxivlərin Tarixi və İnkişafı

Arxivçilik, qədim dövrlərə, xüsusilə də Mesopotamiya və Misirə qədər uzanır. İlk arxivlər, dövlət orqanlarının və mülkiyyət sahiblərinin məlumatlarını qorumaq məqsədilə yaradılmışdır. Müasir arxivçilik, XX əsrdə formalaşmış və bu sahə müstəqil bir ixtisas halına gəlmişdir. Seyid Əzim Şirvaninin dövründə də arxivlərin rolu, tarixi hadisələrin və mədəniyyətin qorunması baxımından əhəmiyyətli idi.

3.Arxiv Fondlarının Qorunmasının Əhəmiyyəti

Arxiv fondlarının qorunması, mədəni irsin və tariximizin saxlanılması, gələcək nəsillərə ötürülməsi üçün vacibdir. Arxivlər, eyni zamanda, tədqiqatçılar və tarixçilər üçün qiymətli bir qaynaqdır. Şirvaninin arxiv fondları, onun yaradıcılığını öyrənmək və ədəbiyyat tarixindəki yerini müəyyənləşdirmək üçün mühüm əhəmiyyət kəsb edir (İsmayılov, 2019).

II. Arxiv Fondlarının Qorunma Problemləri

1.Fiziki Qorunma Problemləri

Arxiv fondlarının fiziki qorunması, mühitin nəzarəti, mühafizə metodları və sənədlərin bərpası məsələlərini əhatə edir. Fiziki ziyan, su, istilik, işıq, toz və digər amillərdən qaynaqlanır. Seyid Əzim Şirvaninin əlyazmalarının və digər sənədlərinin saxlanmasında müasir qoruma metodlarının tətbiqi vacibdir. Məsələn, sənədlərin xüsusi konteynerlərdə saxlanması, mühitin nəzarətdə saxlanması və işıqdan qorunması kimi tədbirlər görülməlidir.

2.Rəqəmsal Qorunma Problemləri

Rəqəmsal arxivlərin yaradılması, məlumatların qorunmasını daha mürəkkəb edir. Rəqəmsal formatların köhnəlməsi, məlumat itkiləri, kibertəhlükəsizlik riskləri və texnoloji dəyişikliklər müasir arxivlərin əsas problemlərindən biridir. Seyid Əzim Şirvaninin arxivinin rəqəmsal mühafizəsi üçün müasir texnologiyalardan istifadə edilməlidir. Məlumatların

mütəmadi ehtiyat nüsxələrinin yaradılması, proqram təminatlarının yenilənməsi və kibertəhlükəsizlik sistemlərinin tətbiqi müasir dövrdə əhəmiyyətlidir.

3.Hüquqi və Etik Problemlər

Arxiv materiallarının istifadəsi hüquqi və etik məsələlərlə bağlıdır. Müxtəlif ölkələrin qanunvericiliyi, müəllif hüquqları, şəxsi məlumatların qorunması və arxivlərin açıq olması məsələləri arxivçilik fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir. Seyid Əzim Şirvaninin şəxsi arxivinin mühafizəsi, onun hüquqlarının qorunması və ictimaiyyətə təqdim edilməsi baxımından diqqət tələb edir (Qasımova, 2021).

## Ədəbiyyat

1. Həsənova, F. (2024). Seyid Əzim Şirvaninin Arxiv Fondunun Mühafizə Strategiyaları: Gələcək Perspektivlər. Bakı: Humanitar Elmlər İnstitutu.
2. İsmayılov, E. (2019). Seyid Əzim Şirvaninin Arxiv Fondunun Mühafizəsi: Müasir Texnologiyalar və Yanaşmalar. ədəbiyyat, №2.
3. Qasımova, L. (2021). Arxiv Mühafizəsinin Nəzəri Aspektləri: Şirvaninin İrsinin Qorunması. ədəbiyyat, №1.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 92-94**
**Scientific Sources XVI Collection of Theses / 92-94**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Fuad Rüstəmli**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
fuadrhustamli@gmail.com

# KORONAVİRUS DÖVRÜNDƏ H.Z.TAĞIYEVİN EV MUZEYİNİN FƏALİYYƏTİ

***Açar sözlər:*** *Koronavirus, ev muzeyi, pandemiya*
***Keywords:*** *coronavirus, home museum, pandemic*

Koronavirus (COVID-19) pandemiyası dövrü, dünyanın hər yerində muzeylərin fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərdi. Azərbaycanda da muzeylər və digər mədəniyyət müəssisələri, pandemiya ilə əlaqədar olaraq, bir müddət bağlandı və onlayn fəaliyyətlərə keçdi. H.Z. Tağıyevin Ev Muzeyi də bu dövrü müasir texnologiyalardan istifadə edərək insanlara xidmət göstərdi.H.Z. Tağıyev, XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanın görkəmli iş adamı, xeyriyyəçi və milli mədəniyyətin inkişafına böyük töhfə vermiş şəxsiyyətlərdən biridir. Onun adına olan ev muzeyi, Bakının mədəni həyatında mühüm yer tutur və pandemiya dövründə də bir sıra yeniliklər həyata keçirilib (1).

Pandemiya dövründə, muzeylər təkcə fiziki ziyarətçiləri qəbul etməkdən çəkinmədilər, həm də müasir texnologiyalardan istifadə edərək öz fəaliyyətlərini onlayn müstəviyə daşıdılar.

Bu dövr ərzində H.Z. Tağıyevin Ev Muzeyinin fəaliyyəti bir neçə əsas istiqamətə yönəldildi (Muzeylərin onlayn fəaliyyəti və ya tarixi eksponatlarla maraqlananlar üçün zaman, məkan anlayışının olmaması, 2020, s. 7)

1. Onlayn Turlar və Virtual Ziyarətlər

Covid 19 pandemiyası ilə əlaqədar olaraq, muzeylər bir çox ziyarətçisini onlayn platformalara yönəltdilər. H.Z. Tağıyevin Ev Muzeyi də bu tendensiyaya uyğun olaraq virtual ziyarət imkanı yaratdı. Muzeyin rəsmi veb saytı və sosial media səhifələrində, ziyarətçilər ev muzeyinin müxtəlif otaqlarını və eksponatlarını 360 dərəcə görüntü vasitəsilə kəşf edə bildilər. Bu, həm yerli, həm də xarici ziyarətçilər üçün muzeyin kolleksiyalarına asanlıqla çatmaq imkanı verdi.

2. Onlayn Tədbirlər

Pandemiya dövründə bir çox mədəniyyət müəssisəsi, muzeylər öz tədbirlərini fiziki olaraq keçirə bilməsələr də, onlayn fəaliyyətlərini gücləndirdilər. H.Z. Tağıyevin Ev Muzeyi, virtual sərgilər, webinarlar, canlı yayım,tv proqramları və video söhbətlər təşkil edərək izləyiciləri ilə onlayn əlaqə saxladı. Müxtəlif mövzularda onlayn seminarlar, H.Z. Tağıyevin həyatına və onun fəaliyyətlərinə dair mühazirələr keçirildi.

3. Sosial Media fəaliyyəti

Pandemiya dövründə muzeylər, xüsusən də Instagram, Facebook və YouTube kimi sosial media platformalarında daha aktiv oldular. H.Z. Tağıyevin Ev Muzeyi də bu dövrdə sosial şəbəkələrdə istifadəçilərlə əlaqələrini davam etdirdi. Muzeyin rəsmi hesablarında, H.Z. Tağıyevin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, video materiallar və yazılar paylaşılaraq izləyicilərin məlumatlandırılması təmin olundu.

4. Yaradıcı Tədbirlər və Müasir Texnologiyaların İstifadəsi

Pandemiya dövrü, muzeylərin yaradıcı yanaşmalarını ortaya çıxartdı. H.Z. Tağıyevin Ev Muzeyi, muzeyin kolleksiyalarına və xeyriyyəçilik fəaliyyətlərinə dair dijital platformalar yaratdı. Bu platformalar vasitəsilə ziyarətçilər, muzeyin zəngin tarixini daha geniş bir şəkildə kəşf edə bildilər. Əlavə olaraq, muzeyin fəaliyyətləri ilə bağlı QR kodlar, mobil

**doi.org/10.36719/2663-4619/2024/XVI**

tətbiqlər və onlayn interaktiv sərgilər də yaradıldı (Pandemiya dövründə muzeylər: Yeni normalara uyğunlaşma, 2020, s. 7).

Nəticə olaraq qeyd edəbilərik ki,pandemiya dövründə H.Z. Tağıyevin Ev Muzeyi, sosial məsuliyyətini yerinə yetirməklə yanaşı, müasir texnologiyalardan istifadə edərək öz fəaliyyətlərini canlı tutdu. Virtual ziyarətlər, onlayn tədbirlər və sosial media fəaliyyəti, muzeyin geniş auditoriya ilə əlaqə qurmasına və H.Z. Tağıyevin zəngin irsini təbliğ etməsinə imkan yaratdı. Beləliklə, bu dövr, muzeyin həm tarixi əhəmiyyətini, həm də müasir mədəniyyət mühitindəki yerini möhkəmləndirdi.

## Ədəbiyyat

1. Muzeydə “18 may - Beynəlxalq Muzeylər günü”nə həsr olunmuş vebinar keçiriləcək. http://azhistorymuseum.gov.az/az/news/3424 (müraciət tarixi 13.11.2024)
2. Muzeylərin onlayn fəaliyyəti və ya tarixi eksponatlarla maraqlananlar üçün zaman, məkan anlayışının olmaması. (2020, 15-17 avqust). Kaspi, 7.
3. Pandemiya dövründə muzeylər: Yeni normalara uyğunlaş-ma. (2020, 16 dekabr). Mədəniyyət, 7.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 95-98
Scientific Sources XVI Collection of Theses / 95-98
doi.org/10.36719/2663-4619/2024/XVI

**Emin Məmmədov**
Azərbaycan Universiteti
magistrant
emin.mammadov@student.au.edu.az

# MÜHARİBƏ ŞƏRAİTİNDƏ ƏLİLLİK QAZANMIŞ ŞƏXSLƏRİN SOSİAL HÜQUQLARI

***Açar sözlər:*** *əlillik qazanmış şəxs, hüquqi dəstək, göstəriən güzəştlər, qanunvericilik, hüquqi baza*

***Keywords:*** *disabled person, legal support, indicative benefits, legislation, legal basis*

Tarixi və siyasi kontekstlərə nəzər yetirdikdə Qarabağ müharibəsi, Sovet İttifaqının süqutundan sonra baş vermiş və Azərbaycan ərazisinin bir hissəsinin işğalı ilə nəticələnmişdir. 1990-cı illərin əvvəllərində başlayan münaqişə, 1994-cü ildə imzalanan atəşkəs müqaviləsinə baxmayaraq, uzun müddət davam etmiş və 2020-ci ildə yenidən alovlanmışdır. Azərbaycan və Ermənistan arasında baş verən bu uzunmüddətli münaqişədə yüz minlərlə insan məcburi köçkün vəziyyətinə düşmüş, minlərlə insan həlak olmuş, çox sayda insan isə yaralanaraq əlillik qazanmışdır. Müharibə şəraitində əlillik qazanmış şəxslərin sosial hüquqlarını və onların hazırkı vəziyyətini araşdırmaq, yaşadıqları problemlərin həllinə dair addımların atılmasında böyük rol oynayır.

Müharibə şəraitində əlillik qazanmış şəxslər müharibə zamanı və ya hərbi xidmət zamanı yaralanmış şəxslərdir. Cəmiyyətin ən həssas qruplarından biri hesab olunan həmin insanlar psixoloji və fizioloji travmalarla üzləşmiş, eləcə də öz həyatlarında bir çox problemlərlə qarşı-qarşıya qalmışlar. Bu və ya bu kimi problemlərin minimuma endirilməsi məqsədilə

doi.org/10.36719/2663-4619/2024/XVI

həmin şəxslərin sosial hüquqlarının müdafiə edilməsi və onlara təqdim olunan güzəştlər, dövlətin və cəmiyyətin həmin insanlara göstərdiyi diqqətin təzahürüdür. Azərbaycan Respublikasının mövcud qanunvericiliyi, müharibə şəraitində əlillik qazanmış şəxslərin tibbi, sosial, iqtisadi dəstəklərin göstərilməsini təmin edən hüquqi aktlarla zəngindir. Lakin buna baxmayaraq mövcud olan problemlər və bu şəxsələrin ehtiyaclarının tam təmin olunması məsələsi hələ də aktualdır (Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə dəstək).

Müharibə şəraitində əlillik qazanmış şəxslərin sosial hüquqlarının qorunması və onlara müxtəlif güzəştlərin təmin edilməsi vacibdir. Belə ki, bu şəxslərin sosial hüquqlarının qorunması onların həyat keyfiyyətini artırmaq, cəmiyyətə inteqrasiya etmək və iqtisadi müstəqilliklərini təmin etmək məqsədilə mühüm rol oynayır. Həmin şəxslərin əsas hüquqlarını bir neçə formada qruplaşdıra bilərik.

İlk növbədə sağlamlıq və reabilitasiya hüququndan bəhs edə bilərik ki, müharibə şəraitində əlillik qazanmış şəxslər tibbi yardıma eləcə də reabilitasiya xidmətlərindən istifadə hüququna malikdirlər. Bu xidmətlər dövlət tərəfindən təmin olunmalı və pulsuz olmalıdır.

Maddi yardım və sosial təminat hüququ dövlət tərəfindən müavinət və pensiyalar ödənilməli, onların maddi ehtiyacları qarşılanmalıdır. Müharibə əlillərinə xüsusi maddi yardımlar və müavinətlər təmin edilməlidir.

Təhsil və peşə hazırlığı dedikdə həmin şəxslər üçün təhsil almaq və peşə hazırlığı kurslarına qatılmaq imkanları yaradılmalıdır. Bu imkanlar onların cəmiyyətə inteqrasiya olunmasına, eləcə də iqtisadi tərəfdən müstəqil olmasına dəstək olacaqdır.

Məskunlaşma hüququ, bu şəxslərə dövlət tərəfindən yaşayış yerləri təqdim edilməlidir ki, bu da onların yaşayış şəraitinin

**doi.org/10.36719/2663-4619/2024/XVI**

yaxşılaşdırılması üçün güzəştlər edilməlidir (Əlilliyi olan şəxlərin hüquqları haqqında).

Müharibə şəraitində əlillik qazanmış şəxslərin sosial hüquqları və güzəştləri mövzusu, dövlət və cəmiyyət üçün böyük əhəmiyyət kəsb edir. Qarabağ müharibəsi nəticəsində minlərlə insanın fiziki və psixoloji travmalar yaşaması, sosial müdafiə sisteminin gücləndirilməsini və bu şəxslərin hüquqlarının qorunmasını zəruri edir. Bu sahədə həyata keçirilən tədbirlər, yalnız müharibə əlillərinin həyat keyfiyyətini yaxşılaşdırmaqla qalmır, eyni zamanda cəmiyyətin insan hüquqları və sosial ədalət prinsiplərinə sadiqliyini də əks etdirir.

Müharibə şəraitində əlillik qazanmış şəxslərin sosial hüquqlarının və güzəştlərinin təmin edilməsi sahəsində bir sıra mühüm nailiyyətlər əldə olunmuşdur. Dövlət tərəfindən göstərilən maddi yardımlar və sosial təminatlar, reabilitasiya xidmətləri və tibbi yardımlar, təhsil və peşə hazırlığı imkanları, mənzil təminatı və vergi güzəştləri bu şəxslərin həyat şəraitinin yaxşılaşdırılmasına və cəmiyyətə inteqrasiyasına böyük töhfə vermişdir. Müharibə əlillərinin tibbi və psixoloji reabilitasiyası sahəsində görülən işlər, onların fiziki və ruhi sağlamlığının bərpası baxımından mühüm əhəmiyyət kəsb edir (Əlilliyi olan şəxslərin əmək hüququ və güzəştləri).

Nəticə olaraq qeyd etmək istərdim ki, Azərbaycanda müharibə şəraitində əlillik qazanmış şəxslərin hüquqlarının qorunması və onların sosial müdafiəsi ilə bağlı geniş qanunvericilik bazası mövcuddur. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və digər aidiyyəti qurumlar tərəfindən həyata keçirilən proqramlar, müharibə əlillərinin reabilitasiyası, maddi təminatı, təhsil və peşə hazırlığı, mənzil təminatı və digər sahələrdə dəstəyin təmin olunmasına yönəlib. Bu tədbirlər, dövlətin sosial siyasətinin mühüm tərkib hissəsini

doi.org/10.36719/2663-4619/2024/XVI

təşkil edir və müharibə şəraitində əlillik qazanmış şəxslərin həyat şəraitinin yaxşılaşdırılmasına yönəlmişdir.

## Ədəbiyyat

1. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə dəstək https://sosial.gov.az/
2. Əlilliyi olan şəxlərin hüquqları haqqında https://e-qanun.az/
3. Əlilliyi olan şəxslərin əmək hüququ və güzəştləri https://vergiler.az/

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 99-102**
**Scientific Sources XVI Collection of Theses / 99-102**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Firuzə Əliyeva**
Azərbaycan Universiteti
magistrant
firalevia@gmail.com

# GENDER ƏSASLI ZORAKILIĞA MƏRUZ QALMIŞ ŞƏXSLƏRLƏ SOSİAL İŞİN TƏŞKİLİ

***Açar sözlər:*** *gender bərabərsizliyi, gender əsaslı zorakılıq, sosial iş və dəstək*
***Keywords:*** *gender inequality, gender-based violence, social work and support*

Gender əsaslı zorakılıq (GƏZ) cəmiyyətin müxtəlif təbəqələrində geniş yayılan və ciddi sosial, psixoloji, hüquqi nəticələrə malik olan bir problemdir. GƏZ cəmiyyətdəki gender bərabərsizliyi, patriarxal ənənələr və stereotiplərdən qaynaqlanaraq qadın və ya kişi - hər iki cinsə qarşı tətbiq edilə bilər. Statistik olaraq, gender əsaslı zorakılıq daha çox qadınlara yönəlir, onların fiziki, psixoloji və sosial rifahına ciddi zərər verir (Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, 2021). Belə zorakılığa məruz qalan şəxslərə dəstək göstərmək və onların reabilitasiya olunması üçün sosial işin təşkili mühüm əhəmiyyət daşıyır.

Gender əsaslı zorakılıq müxtəlif yollarla təzahür edir. Ən geniş yayılmış formaları bunlardır (İsmayılov, 2016):

**Fiziki Zorakılıq** – Bədənə yönəlmiş hücumlar, döymə, təcavüz və digər fiziki əziyyətlər.

**Psixoloji Zorakılıq** – Şəxsin psixoloji vəziyyətinə təsir edən təhqirlər, təhdidlər, idarəetmə və manipulyasiya.

**Cinsi Zorakılıq** – Cinsi istismar, təcavüz və digər zorla baş verən cinsi hərəkətlər.

**İqtisadi Zorakılıq** – İqtisadi asılılıq yaratmaq üçün zorakılıq, işdən qovulma, pul vəsaitinə nəzarət.

**Sosial və İctimai Zorakılıq** – Cəmiyyət və ailə daxilindəki təcridedici davranışlar, əlaqələrin kəsilməsi.

Bəzi tədqiqatçıların fikirlərinə görə, sosial işin əsas məqsədi, gender əsaslı zorakılığa məruz qalan şəxslərin psixoloji, hüquqi və sosial ehtiyaclarını qarşılayaraq onların bərpa prosesini dəstəkləməkdir. Sosial işçilər empatik bir yanaşma ilə çalışmalı, bu sahədə etik prinsiplərə riayət etməli, zorakılığa məruz qalmış şəxslərin hüquqlarını qorumaqla yanaşı, onların gizliliyini təmin etməli və hər hansı bir fərdi diskriminasiya ilə qarşılaşmalarının qarşısını almalıdırlar (Azərbaycan Sosial İşçilər Assosiasiyası, 2018). Sosial işçilər zorakılığa məruz qalan şəxslərin problemlərinin dərinliyini başa düşməli, onlara empatiya və şəfqət göstərməli, güclü münasibətlər qurmalı və effektiv həll yolları tapmalıdırlar.

Zorakılığa məruz qalmış şəxslərin təcili müdafiə xidmətləri və sığınacaq xidmətləri ilə təmin edilməsi vacibdir. Bu, onların təhlükəsizliyini təmin etmək üçün ilk addımdır. Gender əsaslı zorakılığa məruz qalmış şəxslər tez-tez güclü psixoloji travmalarla üzləşirlər. Sosial işçilər onların emosional vəziyyətini psixoloq ilə birlikdə təhlil edərək bərpa prosesində güclü dəstək verməlidir. Bu, terapiya sessiyaları, qrup müzakirələri və stressi idarəetmə metodları vasitəsilə təmin oluna bilər. Zorakılığa məruz qalan şəxslərin hüquqlarını müdafiə etmək üçün onlara hüquqi məsələlərin həlli ilə əlaqədar kömək göstərilməlidir. Sözügedən şəxslərin ən böyük problemlərindən biri də iqtisadi asılılıqdır. Sosial işçilər, bu şəxslərin iqtisadi müstəqillik əldə etmələri üçün müxtəlif proqramlar təşkil etməli, iş və ya maliyyə dəstəyi tapmağa kömək etməlidirlər.

Baxmayaraq ki, 2010-cu ildə ölkəmizdə "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunu qəbul olunub,

doi.org/10.36719/2663-4619/2024/XVI

lakin GƏZ ilə mübarizə üçün mövcud qanunlarda dəyişikliklərin edilməsi və onların tətbiqi gücləndirilməlidir. Bundan başqa, qeyri-hökumət təşkilatları tərəfindən gender əsaslı zorakılığa qarşı daha çox sosial xidmətlər göstərilməlidir. Gender əsaslı zorakılığın həlli yalnız qurbanlarla məhdudlaşmır, bu, eyni zamanda cəmiyyətin struktur problemlərinə qarşı mübarizəni tələb edir (Pandya, 2014). Buna görə də gender bərabərliyi və zorakılığa qarşı mübarizənin gücləndirilməsi üçün geniş ictimai maarifləndirmə kampaniyaları keçirilməlidir. Həmçinin, müxtəlif ölkələrdə bu sahədə tətbiq edilən tədbirlər və proqramlar incələnərək, Azərbaycanın sosial iş xidmətlərində tətbiq oluna biləcək metodlar müəyyən edilməlidir.

Aparılmış araşdırmanın nəticəsində qeyd etmək olar ki, gender əsaslı zorakılığa qarşı mübarizə effektiv sosial işin düzgün təşkili ilə səmərəli ola bilər. Sosial işçilərin qurbanlara dəstək verməsi, onların hüquqlarını qorumaq, bərpa proseslərini dəstəkləmək və cəmiyyətdə maarifləndirmə işlərini gücləndirmək, zorakılığın qarşısının alınmasına və qurbanların sosial bərpasına kömək edəcək. Sosial xidmətlər sisteminin inkişafı, müvafiq qanunların və siyasətlərin tətbiqi bu mübarizədə mühüm rol oynayır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi. (2021). "Gender əsaslı zorakılıqla mübarizə: qanunvericilik və təcrübələr". Bakı: Dövlət Komitəsi Nəşriyyatı.
2. İsmayılov, F. (2016). "Gender əsaslı zorakılıq və sosial işin rolu". Bakı: Elm və Təhsil Nəşriyyatı.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

3. Azərbaycan Sosial İşçilər Assosiasiyası. (2018). "Zorakılıq qurbanlarına sosial işin təşkili və onların reabilitasiyası". Bakı: ASİA Nəşriyyatı.
4. Pandya, S. (2014). "Social Work Practice and Gender-Based Violence". New Delhi: Sage Publications

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 103-105**
**Scientific Sources XVI Collection of Theses / 103-105**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Niyaməddin Rzayev**
Lənkəran Dövlət Univeristeti
magistrant
niyamedinrizayev@gmail.com

# ORTA MƏKTƏBDƏ ELEKTROSTATİKANIN ÖYRƏNİLMƏSİ ÜZRƏ TƏCRÜBƏ İŞİ

***Açar sözlər:*** *təcrübə, elektrik yükü, elektrometr, elektroskop, elektrik filtri*

***Keywords:*** *experience, electric charge, electrometer, electroscope, electrical filter*

Elektrik sahəsi və ya elektrik yükləri dedikdə materiyanın müəyyən forması və ya müəyyən xassəsi nəzərdə tutulur. Hələ çox qədim zamanlarda yunan alimi Fales göstərmişdir ki, kəhrəba çubuğu ipək parçaya sürtdükdə o, kiçik əşyaları özünə cəlb edir. Bu fikir uzun müddət yaddan çıxarılmış və 16-cı əsrdə ingilis alimi Hilbert tərəfindən irəli sürülmüşdür. Cisimlər necə elektriklənirlər? Bu suala cavab verməyə çalışaq. Masallı rayonu Rüdəkənar kənd tam orta məktəbinin 8A sinifinə "Cisimlərin elektriklənməsini və elektrik yükü" mövzusunu tədris edən zaman şagirdlərlə bərabər təcrübələri izahlı qaydada apardıq. Elektrik hadisələri gündəlik həyatda şagirdlərin ən çox rast gəldikləri hadisələrdən biri olduğundan bu mövzu nəzərdə tutulan alt standartların reallaşdırlmasında mühüm əhəmiyyətə malikdir. Mövzu ilə ilkin tanışlığ zamanı şagirdlərlə sadə bir neçə təcrübə apardıq, bu zaman bizə daraq və kağız parçaları lazım oldu. Darağı saçımıza sürdüyümüz zaman kağıza yaxınlaşdırdıq və nəticədə kağız parçaları darağa doğru cəzb olunmağa başladı. Digər təcrübəyə baxdıqda; Yanan bir şama, saçımıza sürtüyümüz qələmi yaxınlaşdırırıq,

doi.org/10.36719/2663-4619/2024/XVI

bu zaman şamın yanan hissəsi qələmə tərəf cəzb olunmağa başladı. Bu hadisələrin nədən baş verdiyini şagirdlərə “Tədqiqat sualı” olaraq cavab vermələrini istədim. Şagirdlər öz fikirlərini dedikdən sonra təcrübələrin nəzəri izahına keçdim. Qələmi saçımıza sürtməzdən əvvəl neytral idi, yəni yüksüz idi. Saçımıza sürtməklə qələm elektrik yükü ilə yüklənmiş olur. Nəticədə qələmi kağız parçalarına və yaxud da yanan şama və ya su şırnağına yaxınlaşdırdığımız zaman onları özünə cəzb etməyə başlayır.

**Elektroskop və Elektrometr**

Cisimlərin yüklənməsini laboratoriya şəraitində müşahidə etmək üçün istifadə olunan ən sadə cihaz elektroskopdur. Elektroskopun işləmə mexanizminə baxsaq; Əsas hissəsi ucuna nazik kağızdan hazırlanan iki “yarpaq” yapışdırılmış metal çubuqdan ibarətdir. Çubuq dielektrik tıxacdan keçirilib cihazın gövdəsinə yerləşdirilmişdir. Gövdə iki tərəfdən şüşə ilə örtülmüşdür. Daha sonra yüklənmiş cismi metal çubuğa toxundurduqda çubuq və kağız yarpaqlar eyniadlı yüklə elektrikləndiyindən lentlər bir-birindən itələnir. Deməli elektroskop nə qədər çox yüklənərsə, lentlər daha böyük bucaq altında meyil edər. Əyani olaraq Təcrübəyə şagirdlərlə birgə baxış keçirdik. Bunun üçün mənfi(-) yüklə yüklənmiş cismi elektroskopun metal çubuğuna toxundururuq və metal çubuğ mənfi yüklə yükləndi, metal çubuğa yapışdırdığımız kağız yarpaqlar da eyni adlı yüklə yükləndirlər. Nəticədə lentlər eyni adlı yüklər (hər ikisi də mənfi) olduğuna görə bir-birlərindən itələnməyə başladılar. Cisimlərin elektriklənməsini və elektrik yükünün xassəsini araşdırmaq üçün elektrometr adlanan cihazdan istifadə olunur. Elektrometrində işləmə mexanizimminə baxsaq; Eyni ilə elektroskop kimi onun da iş prinsipi elektriklənmiş cisimlərin qarşılıqlı təsirinə əsaslanır. Elektrometrin içərisində olan əqrəbi xarici təsirlərdən qorumaq üçün iki tərəfi bağlı şüşə

ilə örtülmüş, metal çubuq gövdədən rezin tıxacla izolə edilir. Daha sonra elektrometr metal çubuğuna elektriklənmiş cisimlə toxunduqda həm çubuq, həm də metal əqrəb eyni yüklə elektriklənir və əqrəb çubuqdan itələnir. Əqrəbin meyl etmə bucağına əsasən elektriklənmə dərəcəsini müəyyən etmək olar. Meyl bucağı nə qədər çoxdursa, əqrəb və çubuq da bir o qədər böyük elektrik yükü alır. Təcrübəni şagirdlərlə aparırıq; Elektrometrin metal çubuğa müsbət(+) yüklə yüklənmiş cisimlə toxunduq, bu zaman həm də metal əqrəb müsbət (+) yüklə yüklənməyə başladı və əqrəb çubuqdan itələndi. Bu təcrübənin nəticəsinə əsasən şagirdlər cisimlərin elektriklənməsini əyani müşahidə etmiş oldular. Tapşırığın son mərhələsində, hazır cihazla tələbələr elektrik yüklü cisimləri müəyyən etməyə yönəlmiş təcrübələr aparmalıdırlar.

**Tapşırıq:**

Təcrübədə havanı tozdan, tüstüdən və digər çirkləndiricilərdən təmizləmək üçün müxtəlif növ filtrlərdən istifadə olunur. Elektrik filtrinin ən sadə dizaynı, oxu boyunca adi bir telin uzandığı bir metal borudur. Beləliklə, uzanan məftillə metal boru arasında elektrik sahəsi yaranır, telin özü isə elektrik mənbəyinin mənfi qütbü ilə bağlı olur. Havanın çirklənmədən təmizlənməsi prinsipinə əsaslanaraq, onun tərkibində təkcə yüklənmiş toz hissəcikləri deyil, həm də neytral yüklü toz hissəciklərin olmasını nəzərə alaraq şagirdlər yüklənməni müşahidə etmiş olurlar.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 106-109**
**Scientific Sources XVI Collection of Theses / 106-109**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Pəri Ədilova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
peri.abdulmanafova@gmail.com

# AZƏRBAYCAN RESPUBLİKASININ ŞƏKİ BÖLGƏSİNDƏ TARİXİ-ARXEOLOJİ ABİDƏLƏRİN QORUNMASI SƏVİYYƏSİ: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

***Açar sözlər:*** *arxeologiya, ümumdünya mədəni irsi, tarix muzeyi, Şəki, tarixi abidə*
***Keywords:*** *archeology, world cultural heritage, historical museum, Sheki, historical monument*

Yer kürəsində ən qədim insan məskənlərinin aşkara çıxarıldığı məkanlardan biri də Azərbaycandır. Buna görə də ölkəmizin ərazisində ibtidai icma cəmiyyəti dövrünə aid arxeoloji artefaklardan tutmuş XVIII-XX əsrlərdə yaradılmış maddi-mədəniyyət nümunələrinədək tarixi abidələrin möhtəşəm kompleksi aşkara çıxarılmış və mühüm elmi dəyər kəsb edən obyektlər kimi qiymətləndirilmişdir. Bu abidələrin tədqiqində 1993-cü ildə yaradılmış və AMEA-nın nəznində fəaliyyət göstərən Arxeologiya və Etnoqrafiya İnstitutunun (24 sentyabr 2021-ci il tarixindən Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu) böyük xidmətləri var.

Azərbaycanda Arxeoloji tədqiqatlar və onlarla əlaqədar Arxeologiya elmi XX əsrin 20-30-cu illərində formalaşmağa başlamışdır. 1925-1960-cı illərdə Azərbaycan SSR Tarix Muzeyi Arxeoloji Mərkəz kimi fəaliyyət göstərmiş və Davud Şərifovun, İshaq Cəfərzadənin, Yevgeni Paxomovun, Məmmədəli Hüseynovun, Saleh Qaziyevin rəhbərliyi altında

Azərbaycan Respublikasının bir çox bölgələrinə, o cümlədən Şəki bölgəsinə arxeoloji ekspedisiyalar təşkil etmişdir. Şəki rayonunun ərazisində miqyaslı arxeoloji qazıntılar isə XX əsrin 70-ci illərində başlanmışdır. O dövrdə Azərbaycanda arxeologiyanın sürətli inkişafı ilə bağlı rayon mərkəzlərində və şəhərlərdə də tarix və diyarşünaslıq muzeyləri yaradılmışdır. XX yüzilliyin 70-ci illərindən başlayaraq, Şəki bölgəsində həyata keçirilən arxeoloji qazıntılar zamanı arxeoloji tariximizin müxtəlif dövlərinə işıq salan abidələr müəyyən edilmiş və öyrənilmişdir. Hazırda 1976-cı ildə yaradılmış Arxeologiya və Etnoqrafiya Muzeyində saxlanılan və sərgilənən 300 min eksponat içərisində Şəki bölgəsində aparılmış arxeoloji qazıntılar zamanı əldə edilmiş eksponatlar da var. Məsələn, Şəki (Nuxa) şəhərinin şəkilli etnoqrafik təsviri. Rəngli İllüstarisya, - 1861. №152; E. Reslerin Nuxa (Şəki) bölgəsinə səfəri və Böyük Dəhnə kəndində apardığı tədqiqatların nəticələri haqqında hesabat. Emil Resler. Arxeoloji komitənin xəbərləri. 1902. № 6 (Səfərəliyeva, 2016, s. 181).

XIX əsrin II yarısından başlayaraq, Azərbaycanda, o cümlədən Şəki bölgəsində həyata keçirilmiş arxeoloji qazıntılar, aparılmış tədqiqatlar və əldə olunmuş nəticələr möhtəşəm bir arxeoloji mənzərinin ərsəyə gəlməsinə səbəb olmuşdur. Bu mənzərəni təşkil edən abidələrin bir qismi eneolit, son tunc və ilk dəmir dövrünə, həmçinin antik dövrə və erkən orta əsrlər dövrünə aid abidələrdir. Arxeoloji abidələrin əksəriyyətini qəbir abidələri, dini məzmun kəsb tikililər, həmçinin qalalar və qala divarları, kurqan və nekropollar təşkil edir. Bir sıra obyektiv və subyektiv səbəblərdən həmin abidələri lazımi səviyyədə işıqlandırmaq və tədqiq etmək mümkün olmamışdır. Bununla belə, XX əsrin 20-30-cu illərindən indiyədək aşkar olunmuş arxeoloji abidələr Azərbaycan xalqının qədim tarixini əsaslı şəkildə rekonstruksiya etməyə imkan verir.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Ən qədim və antik dövrə, həmçinin erkən orta əsrlər Qafqaz Albaniyasına aid abidələrin, həm orta əsrlərdə, həm də son dövrlərdə qorunması səviyyəsi qənaətbəxş deyil və bunu şərtləndirən çoxlu sayda obyektiv və sbyektiv faktorlar var. Onlardan ən vacib olanlarını nəzərdən keçirək. İlk növbədə, qeyd etmək lazımdır ki, erkən orta əsrlərin sonunda Cənubi Qafqazda ərəb ekspansiyası ilə bağlı, region islam arealına daxil oldu. İslamın qanunlar toplusu olan şəriət isə hər hansı bir məqsədlə qəbirlərə toxunulmasını qəti qadağan edirdi. Bu səbəbdən bütün orta əsrlər tarixi boyu müxtəlif dövrlərə aid qəbir abidələri toxnulmaz və baxımsız qalmışdır. Bəzi qəbirlərdə nəcib metallardan hazırlanmış bahalı zinət əşyalarının olmasını ehtimal edən quldurlar hər hansı etik qaydaları nəzərə almayaraq, qəbirlərə müdaxilə edir və onları soyurdular. Qeyd edək ki, qarətçilər yalnız kurqanların altında, dərinliklərdə yerləşən qəbirləri və yerin dərin qatlarında olan nekropolları aşkar edə və soya bilməmişlər. Bu və digər səbəblərdən ölkəmizin bir çox ərazilərində, o cümlədən Şəki bölgədində bu gün də toxunulmaz qalmış kurqanlar və nekropollar aşkara çıxarılır və tədqiq edilir.

Son 100 ildə Azərbaycanın digər bölgələrində olduğu kimi Şəki bölgəsində də aşkar edilmiş maddi mədəniyyət abidələrinin ümumdünya mədəni irsinin nümunələri kimi mühafizəsi prioritet təşkil edir. 1972-ci il noyabrın 16-da UNESCO-nun XVII sessiyasında "Ümumdünya mədəni və təbii irsinin qorunması" haqqında Konvensiya qəbul edilmişdir. Azərbaycan Respublikası bu Konvensiyaya 1993-cü il dekabrın 16-da qoşulmuşdur. 2000-ci ildə UNESCO-nun "Ümumdünya mədəni irsi Komitəsinin" 24-cü sessiyasında isə Azərbaycanda ilk tarixi abidələr - "İçəri şəhər", Şirvanşahlar sarayı" kompleksi və "Qız qalası" UNESCO-nun Ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir. Daha sonra Azərbaycan ərazisində

yerləşən bir neçə tarixi-mədəni obyekt UNESCO-nun Ümumdünya mədəni irsi siyahısına daxil edildi. Bu obyektlər sırasında Şəki Xan sarayı da daxil olmaqla Şəki şəhərinin mərkəzi hissəsində yerləşən abidələr də vardır. Bir çox tarixi-mədəni abidələr, o cümlədən "Kiş" Tarix-Memarlıq Qoruğu UNESCO-nun Ümumdünya mədəni irsi siyahısına daxil olmağa namizəddir.

"Kiş" Tarix-Memarlıq Qoruğunda yerləşən orta əsrlərə aid Müqəddəs Yelisey məbədində, bir çox qiymətli artefaktlar və ayrı-ayrı tarixi dövrlərə aid abidələr vardır (Qaraəhmədova, 2000, s. 90). 2011-ci ildə qoruğun ərazisində aparılan restavrasiya və təmir işləri yekunlaşdıqdan sonra Müqəddəs Yelisey məbədində Qafqaz Albaniyası Muzeyi fəaliyyətə başlamışdır. Azərbaycanın ayrı-ayrı bölgələrində, həmçinin Şəkidə unikal cizgiləri ilə seçilən tarixi abidələrin olmasına baxmayaraq, onlara ümumdünya mədəni irsinin mühafizəsi kontekstində yanaşılması arzuolunan səviyyədə deyil.

## Ədəbiyyat

1. Səfərəliyeva, G. (2016). Azərbaycanın tarixi abidələri və toponimləri: biblioqrafiya. Tərtib edən; xüsusi redaktor və məsul K.Tahirovun azad edilməsi; redaktor Leyla Axundova. Bakı, 500 s.
2. Qaraəhmədova, A. A. (2000). "Kiş kilsəsinin yerüstü dəfnləri". Məqalə (rus dilində). MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun "Qafqazın Arxeologiya və Etnoqrafiyası" Beynəlxalq elmi konfransının materialları.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 110-112**
**Scientific Sources XVI Collection of Theses / 110-112**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Rəcəb Həsənov**
Lənkəran Dövlət Universiteti
magistrant
recebhesenov55@gmail.com

# FOTOELEKTRİK EFFEKTİNİN ÖYRƏNİLMƏSİ

***Açar sözlər:*** *işıq kvantları, cərəyan, tezlik, işıq seli, fotocərəyan, kvant enerjisi, fotoelektrik effekti*
***Keywords:*** *quant of light, current, frequency, flood of light, photocurrent, quantum energy, photoelectric effect*

İşığın təbiəti haqqındakı hadisələrin inkişafında mühüm addımlar atılmasına bütün mikrozərrəciklərin hərəkəti kvant nəzəriyyəsinin qanunlarına tabe olmasına baxmayaraq materiyanın ilk kvant xassələri işığın udulma və buraxma proseslərinin tədqiqi zamanı aşkar edilmişdir. Bu xassələrdən biri də fotoeffekt hadisəsidir. Fotoeffekt işığın təsiri ilə maddədən elektronların qoparılması kimi maraqlı bir hadisənin öyrənilməsinə həsr edilmişdir. Biz, gündəlik həyatımızda, demək olar ki, hər gün metro, market, ofis idarəsinə daxil oluruq. Kənar müdaxilə olmadan qapılar üzümüzə açılır. Buna səbəb nədir? Bu hadisə işıq olmadıqda da müşahidə oluna bilərmi? Bütün bunların hamısı yarımkeçirici, işıq effekti və.s nəticəsində əmələ gəlir. Fotoeffekt nədir və onun əsasında hansı qanunlar dayanır? Bu məsələni araşdıraq. Fərz edək ki, bizə hər hansı metal verilmişdir. Onun üzərinə işıq seli göndərək. Metalın səthini işıqlandırdıqda ondan elektronlar çıxması hadisəsi fotelektrik effekti adlanır. Tutaq ki, T torşəkilli lövhə və M metal lövhəsi şəkildə göründüyü kimi cərəyan mənbəyi və qalvanometrə birləşdirilmişdir (şəkil 1). M metal lövhəsinə T tor lövhəsinin məsamələrindən işıq dəstəsi

doi.org/10.36719/2663-4619/2024/XVI

buraxsaq qalvonometr cərəyan göstərəcəkdir. Bu ona görə baş verir ki, işığın təsiri ilə mənfi yüklənmiş M metal lövhəsindən çıxan elektronlar müsbət yüklənmiş T tor lövhəsinə doğru hərəkət edərək dövrəni qapayır və bu səbəbdən də qalvanometr cərəyan göstərir. Bu cərəyan fotelektrik cərəyanı adlanır.Bu cərəyanın qiyməti T və M elektrodları arasındakı gərginlik artdıqca artır.



Şəkil 1

Gərginliyin müəyyən bir qiymətindən sonra isə onun artmaqda davam etməsinə baxmyaraq cərəyan sabit qalır. Cərəyanın bu qiymətinə doyma cərəyanı $J_d$ deyilir. Koordinat müstəvisinin y oxunda fotocərəyanı ($J_f$), x oxunda isə batareyanın gərginliyini U götürsək, ($J_d$) ilə (U) arasındakı asılılıq şəkildəki kimi olacaqdır. 1888-1890 cı illərdə A.Q.Stoletov təcrübələr apararaq fotoeffet hadisəsini tədqiq etmiş və göstərmişdir ki, işıq seli dəyişdikdə doyma cərəyanın qiyməti də dəyişir. Tezliyi böyük olan işıqla (məsələn, ultrabənövşəyi işıqla) təcrübə apardıqda fotoeffekt daha səmərəli olur. İşığın təsiri ilə müsbət yüklənmiş lövhə elektron buraxmır, mənfi yüklənmiş lövhə isə buraxır. İşıq şiddəti artıqca fotocərəyan da artır. Lakin işığın təsiri ilə metaldan

**doi.org/10.36719/2663-4619/2024/XVI**

çıxan elektronların sürəti işıq kvantlarının sayından yox, kvantın enerjisindən, başqa sözlə işığın tezliyindən asılıdır. Doyma fotocərəyanının qiyməti işıq selinin qiymətindən, çıxan elektronların sürəti isə işıq dalğasının uzunluğundan asılıdır. Hər bir metal üçün fotoeffektin "qırmızı" sərhəd qiymətindən böyük olduqda fotoeffekt müşahidə olunmur, kiçik olduqda isə müşahidə olunur. Foteeffekt hadisəsindən istifadə edərək bir sıra qurğular düzəldilmişdir. Günəş panelləri, kameralar həmçinin ödənişli yollarda istifadə olunan kassalar onun köməyi ilə işləyir. Bu effekt sadə görünsə də, əslində o qədər böyük bir hadisədir ki, A.Enşteyn ona görə Nobel mükafatı almışdır. A.Eynşteyn 1905 ci ildə Plankın kvant nəzəriyyəsini işığın yayılmasına tətbiq edərək belə hipotez irəli sürmüşdür: işıq arasıkəsilmədən deyil, diskret, porsiyalarla (kvantlarla) yayılır. İşıq kvantının enerjisi yalnız tezlikdən asılıdır, yəni $\varepsilon = h\nu$ olur. Eynşteyn, enerjinin saxlanma qanununu metalda baş verən foteeffektə tətbiq edərək $h\nu = A + \frac{mv^2}{2}$ düsturunu almışdır. Burada A – elektronun (metaldan) çıxış işi, $\frac{mv^2}{2}$ -isə qopan elektronun kinetik enerjisidir.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 113-116**
**Scientific Sources XVI Collection of Theses / 113-116**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Gözəl Mustafayeva**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
magistrant
gozlmustafayeva@gmail.com

# AZƏRBAYCAN DİLİNİN SİNTAKSİSİNİN ORTA MƏKTƏB SƏVİYYƏSİNDƏ TƏDRİSİNİN ƏHƏMİYYƏTİ VƏ ƏSAS MƏQSƏDLƏRİ

***Açar sözlər:*** *dil qaydalarının tədrisi, sintaksis, metodika, qrammatika, metod*

***Keywords:*** *teaching language rules, syntax, methodology, grammar, method*

Azərbaycan dili fənni milliliyin müdafiəsi və ictimaiyyətin tərəqqisi üçün əsas vasitədir. Orta məktəbdə dil təlimi, təhsilalanlarda həm qrammatik, həm də ünsiyyət qabiliyyətlərinin təşəkkülünə vacib təsir göstərir. Bu çərçivədə, sintaksis – yəni cümlənin quruluşu və hissələri arasındakı bağlantıların mənimsənilməsi təhsilalanlarda dili daha zəngin və səlis mənimsəməyə yardım edir. Bu tezisdə orta məktəbdə (xüsusilə 8-9-cu siniflərdə) Azərbaycan dili sintaksisinin tədrisinin əhəmiyyəti, məqsədləri və bu prosesin şagirdlər üzərindəki təsiri tədqiq olunur.

**Tədqiqatın məqsədləri:**

1. Sintaksis təliminin məktəb səviyyəsində təhsilalanlara dilin qrammatik əsaslarını öyrədilməsindəki funksiyasını müəyyənləşdirmək.
2. Sintaksis biliklərinin təsilalanların dil və kommunikativ bacarıqlarına,vərdişlərinə, xüsusilə yazılı və şifahi fikir bacarıqlarına effektini şərhləndirmək.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 113-116
Scientific Sources XVI Collection of Theses / 113-116
doi.org/10.36719/2663-4619/2024/XVI

3. Təhsilalanların gələcək akademik və peşə həyatında nailiyyət qazanmağı üçün sintaksis tədrisinin vacibliyini sübut etmək.

**Əsas məqamları**:

**1. Sintaksis tədrisinin məqsədləri və əsas prinsipləri:**

Azərbaycan dili təlimdə sintaksisin mənimsədilməsi təhsilalanlara düzgün cümlə tərtib etmək, sözlərin və ifadələrin qrammatik əlaqəsini başa düşmələri üçün əsasdır**.** Sintaksis təlimin əsas məqsədi şagirdlərdə məntiqli, qrammatik və üslub baxımından düzgün cümlə qurma qabiliyyətini inkişaf etdirməkdir.

Sintaktik qaydaların mənimsənilməsi, onların fikirlərini daha aydın və səlis ifadə etmələrinə imkan yaradır.

**2. Dil qabiliyyətlərinin tərəqqisi**:

Yazılı və şifahi nitqdə qrammatik cəhətdən düzgün ifadə etmək bacarığı təhsilalanlar üçün vacibdir. Sintaksis tədrisi, xüsusilə cümlə quruluşunun doğru mənimsənilməsi, şagirdlərin yazı və nitq mədəniyyətini təkmilləşdirir. Bu, onların həm gündəlik ünsiyyətdə, həm də elmi və ya peşəkar səviyyədə özlərini daha səlis ifadə etmələrini yerinə yetirir. (Hüseynov, 2020) Tədqiqatlara əsasən, sintaksis qaydalarını düzgün öyrənən təhsilalanların yazılı və şifahi nitqlərində qrammatik yanlışların azalması müşahidə edilir. (Quliyev, 2018).

**3. Analitik və məntiqi düşüncənin inkişafı:**

Sintaksis anlayışı təhsilalanlarda məntiqi və analitik düşüncə yaradır. Cümlə quruluşlarının mənimsənilməsi, təhsilalanları məntiqi əlaqələr yaratmağa və fikir ardıcıllığı formalaşdırmağa vadar edir **.**Hər bir cümlənin qrammatik qaydalarla əlaqəli şəkildə təhlil edilməsi və hissələr arasındakı düzgün əlaqələrin yaradılması təhsilalanlarda tənqidi və analitik düşüncənin irəliləyişinə müsbət nəticə göstərir (Sadıqova, 2019).

**doi.org/10.36719/2663-4619/2024/XVI**

**4. Ümumi dil biliklərinin gücləndirilməsi:**

Sintaksis təlimi Azərbaycan dili fənni üzrə ümumi qrammatik biliklərin gücləndirilməsi üçün baza təşkil edir. Təhsilalanlar qrammatikanın başqa bölmə- lərini daha yaxşı başa düşmək üçün sintaktik qaydalardan istifadə edir. Bu, onların dil barədə daha həcmli bir düşüncəyə yiyələnmələrinə, nəticə olaraq başqa dilləri də mənimsəyərkən daha nailiyyətli olmalarına kömək olur.

**5. Qrammatik cəhətdən düzgün və məntiqli ünsiyyət bacarığının formalaşması:**

Sintaksis təliminin mühüm bir nəticəsi, təhsilalanlarda. qrammatik və məntiqi cəhətdən düzgün nitq formalaşdırmaqdır. Bu qabiliyyət, onların təhsildə və gündəlik həyatda özlərini qəti və aydın bir şəkildə ifadə etmələrinə yardım edir.Misal olaraq, fərqli cümlə tiplərinin və quruluşlarının öyrənilməsi, onların müxtəlif ünsiyyət hallarında müvafiq cümlələrdən faydalanmasını təmin edir.

**6. Gələcək tədris və peşə hazırlığına hazırlıq:**

Dil və ünsiyyət qabiliyyətləri akademik və peşə həyatında əsas tələblərdəndir. Sintaksis tədrisi, gələcəkdə təhsil alarkən yaxud da iş həyatında yazılı mətnlər yaratmaq və aydın, sərbəst nitq qurmaq qabiliyyətləri tələb olunduğunda təhsilalanlara vacib hazırlıq təmin edir (Hüseynova, 2023). Düzgün sintaktik biliklər, onların hər hansı peşə sahəsində öz düşüncələrini konkret ifadə etməklə birgə, başadüşmə bacarığını da artırır.

Nəticə etibarilə Azərbaycan dilinin sintaksisinin orta məktəb səviyyəsində tədrisi, təhsilalanların dil qabiliyyətlərini, məntiqi fikirlərini və yazı bacarıqlarını təkmilləşdirmək baxımından çox vacibdir. Bu tədrisin əlverişli şəkildə aparılması, təhsilalanlara gələcək təhsilləri və şəxsi inkişafları üçün güclü bir baza formalaşdırır.

Ümumilikdə, dil tədrisinin qrammatik əsaslarını çox geniş mənimsəyən təhsilalanlar, dilə daha çox bağlanır, milli kimliyə və mədəni irsə sahib çıxmaq bacarıqları yaranır.

## Ədəbiyyat

1. Hüseynov, M. (2020). Orta məktəbdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı: Mütərcim, 101-103.
2. Quliyev, T. (2018). Sintaksis və tədrisin yenilikləri. Bakı: Təhsil Nəşriyyatı, 78-80.
3. Sadıqova, F. (2019). Şagirdlərdə analitik düşüncənin inkişafında dilin rolu. Bakı: Maarif, 88-90.
4. Hüseynova, R. (2023). Peşə hazırlığında dilin rolu. Şamaxı: Mütərcim, 110-112.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 117-120
Scientific Sources XVI Collection of Theses / 117-120
doi.org/10.36719/2663-4619/2024/XVI

**Mələk Nadirli**
Azərbaycan Universiteti
magistrant
malaknadirli1@gmail.com

# YAŞIL İQTİSADİYYAT

***Açar sözlər:*** *yaşıl iqtisadiyyat, davamlılıq, texnologiyalar, enerji səmərəliliyi, resurslar*
***Keywords:*** *green economy, sustainability, technologies, energy efficiency, resources*

XXI əsr bəşər tarixi boyu qarşılaşdığı ən böyük ekoloji problemlərin öhdəsindən gəlmək səylərinin mərkəzindədir. Qlobal istiləşmə, havanın çirklənməsi, su ehtiyatlarının azalması və biomüxtəlifliyin itirilməsi kimi problemlər davamlı gələcək üçün təcili tədbirlər tələb edir. Bu kontekstdə "Yaşıl İqtisadiyyat" konsepsiyası iqtisadi inkişafı ətraf mühitin davamlılığı ilə birləşdirən bir model kimi önə çıxır. Bu məqalə yaşıl iqtisadiyyatın nə olduğu, onun əhəmiyyəti, tətbiqi və potensial faydaları haqqında müzakirələr təqdim edəcəkdir.

Yaşıl iqtisadiyyat iqtisadi fəaliyyətlərin ekoloji və sosial təsirlərini nəzərə alan və bu təsirləri yaxşılaşdırmağı hədəfləyən iqtisadi modeldir. Bu model çirklənmənin azaldılması, enerji və resurs səmərəliliyinin artırılması, bərpa olunan enerji mənbələrinə keçidin təşviq edilməsi və ekosistemlərin qorunmasını prioritetləşdirir. Yaşıl iqtisadiyyat təkcə ekoloji deyil, həm də iqtisadi və sosial ölçüləri əhatə edən davamlılığın hərtərəfli vizyonunu təklif edir (Hüseynov, 2022, s. 102).

Yaşıl iqtisadiyyata keçid planetimizin üzləşdiyi ekoloji problemlərin öhdəsindən gəlmək, eləcə də iqtisadi artım və sosial inkişafı dəstəkləmək üçün bir yol təklif edir. Bu yanaşma

doi.org/10.36719/2663-4619/2024/XVI

qalıq yanacaqların istifadəsini azaltmaqla və bərpa olunan enerji mənbələrini qəbul etməklə karbon ayaq izini azaltmaq məqsədi daşıyır. O, həmçinin yeni iş yerləri yaradır və enerji səmərəliliyinin artırılması və ekoloji cəhətdən təmiz texnologiyaların təşviqi ilə iqtisadi imkanlar təmin edir (4).

Yaşıl iqtisadiyyat təkcə ekoloji problemlərin həlli yollarının axtarışı deyil, həm də iqtisadi innovasiyaların və texnoloji tərəqqinin hərəkətverici qüvvəsidir. Bərpa olunan enerji mənbələrinə, enerji səmərəliliyi texnologiyalarına və davamlı kənd təsərrüfatı təcrübələrinə investisiyalar yeni biznes xətlərinin yaranmasına kömək edir və texnoloji yenilikləri sürətləndirir. Bu proses nəinki ekoloji tarazlığı qoruyur, həm də iqtisadi diversifikasiyanı və texnoloji rəqabət qabiliyyətini artırır.

Yaşıl iqtisadiyyata keçid qlobal miqyasda koordinasiya və əməkdaşlıq tələb edir. İqlim dəyişikliyi kimi sərhəd tanımayan problemlər beynəlxalq ictimaiyyətin birgə fəaliyyətini tələb edir. Paris İqlim Sazişi (5) kimi beynəlxalq müqavilələr yaşıl iqtisadiyyat məqsədlərinə nail olmaq üçün ölkələr arasında əməkdaşlığı gücləndirir. Lakin üzv ölkələr öz öhdəliklərini yerinə yetirsələr və milli siyasətlərini buna uyğun formalaşdırsalar, bu sazişlərin uğuru mümkündür.

Yaşıl iqtisadiyyat dayanıqlı gələcəyə doğru atılan addımların əsasını təşkil edir. Bu modelin uğuru siyasətçilərin, biznes liderlərinin, alimlərin və ayrı-ayrı şəxslərin birgə səylərindən asılıdır. Yaşıl iqtisadiyyata keçid çətinliklər və maneələrlə dolu bir yol olsa da, bu prosesdə əldə olunacaq ekoloji, iqtisadi və sosial faydalar bu səyləri doğrultmaqdan daha çoxudur. Gələcək nəsillərə daha yaşana bilən bir dünya buraxmaq məsuliyyəti ilə yaşıl iqtisadiyyat təkcə seçim deyil, həm də zərurət halına gəldi. Davamlı gələcəyə doğru irəliləmək üçün

doi.org/10.36719/2663-4619/2024/XVI

qlobal birlik bu transformasiyanı qəbul etməli və sürətləndirməlidir.

Yaşıl iqtisadiyyata keçiddə maarifləndirmə və ictimai məlumatlılığın artırılması mühüm əhəmiyyət kəsb edir. Davamlı həyat tərzi, istehlak vərdişləri və enerji istifadəsi haqqında ictimaiyyətin məlumatlılığının artırılması bu transformasiyanın təməl daşlarından biridir. Təhsil müəssisələri davamlı inkişaf üzrə proqramlar və kurslar təklif etməklə gələcək nəsilləri məlumatlandıra və təchiz edə bilərlər (Yalçın, 2016, s. 751). Media və texnologiya həm də ictimai məlumatlılığı artırmaq üçün güclü vasitə kimi istifadə edilə bilər.

Yaşıl iqtisadiyyat innovativ həllərin və davamlı texnologiyaların inkişafı və yayılması üçün platforma təmin edir. Ağıllı şəhərlər, davamlı kənd təsərrüfatı texnikaları, tullantıların idarə edilməsi sistemləri və suya qənaət texnologiyaları kimi innovasiyalar yaşıl iqtisadiyyat vizyonunun reallığa çevrilməsində mühüm rol oynayır. Bu texnologiyalar bizə təbii ehtiyatlardan daha səmərəli istifadəni təmin etməklə ekoloji izimizi azaltmağa kömək edir.

Bundan başqa, yaşıl iqtisadiyyata keçid qlobal məqsədlər və yerli fəaliyyətlər arasında sinerjinin maksimallaşdırılmasından asılıdır. Qlobal iqlim dəyişikliyi və ekoloji davamlılıq məqsədləri yerli səviyyədə atılacaq addımlarla dəstəklənməlidir. Bu yanaşma həm milli, həm də beynəlxalq səviyyədə siyasətçiləri, biznes liderlərini və qeyri-hökumət təşkilatlarını bir araya gətirir və ümumi məqsədlərə nail olmaq üçün əməkdaşlığı təşviq edir.

Güclü nəzəri əsasların olmasına baxmayaraq, nəzəri anlayışlar və yaşıl inkişaf siyasətlərinin praktiki həyata keçirilməsi arasında hələ də əhəmiyyətli boşluqlar mövcuddur (Mealy, Teytelboym, 2022, s. 2). Yaşıl iqtisadiyyata keçid səyahəti hər birimizin töhfə verə biləcəyi və məsuliyyət daşıya biləcəyi bir

prosesdir. Bu səyahət təkcə ekoloji problemləri həll etmir, həm də daha ədalətli, sağlam və firavan dünya yaratmaq imkanı verir. Buna görə də yaşıl iqtisadiyyat bugünkü çağırışlara innovativ və inklüziv həllər təqdim etməklə gələcək nəsillər üçün davamlı miras buraxmaq səylərimizdə əsas rol oynayır.

Yaşıl iqtisadiyyat dayanıqlı gələcəyə nail olmaq yolunu işıqlandıran perspektivli model kimi seçilir. Bu model ekoloji, iqtisadi və sosial ölçüləri birləşdirərək hərtərəfli yanaşma təklif edir. Bununla belə, bu keçidin uğuru hökumətlərin, biznesin və ayrı-ayrı şəxslərin kollektiv səylərindən və öhdəliklərindən asılıdır.

Yaşıl iqtisadiyyata keçid təkcə cari ekoloji problemləri həll etmək deyil, həm də daha ədalətli və davamlı iqtisadi sistem qurmaq imkanı verir. Buna görə də yaşıl iqtisadiyyat təkcə ekoloji siyasət deyil, həm də sosial və iqtisadi rifahın yüksəldilməsi üçün mühüm strategiyadır. Bu səyahətdə hər birimizin bir rolu var və birlikdə davamlı gələcək qurmaq üçün addımlar atmalıyıq.

## Ədəbiyyat

1. Hüseynov, S. (2022). Davamlı inkişaf, yaşıl iqtisadiyyat, “ağıllı kənd” və “ağıllı şəhər” konsepsiyası, Dövlət və Din, 100-105.
2. Mealy, P., & Teytelboym, A. (2022). Economic complexity and the green economy. Research Policy, 24.
3. Yalçın, A. Z. (2016). Yaşıl iqtisadiyyat düşüncəsi və davamlı inkişaf üçün maliyyə siyasəti. Çankırı Karatekin Universiteti İqtisadiyyat və İdarəetmə Fakültəsi Jurnalı, 749-775.
4. https://azertag.az/xeber/yasil_iqtisadiyyat_nedir-2333990
5. https://unfccc.int/process-and-meetings/the-paris-agreement

Elmi Mənbələr XVI Tezislər Toplusu / 121-124
Scientific Sources XVI Collection of Theses / 121-124
doi.org/10.36719/2663-4619/2024/XVI

**Gunel Bayramli**
Azerbaijan University
master student
gunelbagirova845@gmail.com

# ORGANIZATION OF SOCIAL WORK WITH DEMENTIA PATIENTS: OPPORTUNITIES AND CHALLENGES

***Keyswords:*** *dementia, families, psychosocial support, social workers, legal*
***Açar sözlər:*** *demansiya, ailələr, psixoloji dəstək, sosial işcilər, qanun*

Social work with people with dementia plays an important role in managing the health problems and life challenges experienced by these individuals. Dementia refers to a group of diseases that affect the functions of the brain and weaken individuals' basic cognitive functions such as memory, thinking, decision-making and communication. Social workers aim to improve the quality of life of people with dementia by providing various support and services to improve their quality of life, ensure their social integration and ease the burden of caregivers. The aim of social work with people with dementia is to enable these individuals to live a safe, respectful and quality life and to provide them with physical, psychological and social support. The services provided by social workers to people with dementia may differ according to individual needs. Social workers conduct a comprehensive assessment of people with dementia as a first step. This assessment includes the patient's cognitive status, the extent to which the patient can perform activities of daily living, psychological status, social

support networks, care needs and environmental factors. This plan takes into account the patient's cognitive functions and level of independence. Social workers for people with dementia not only provide medical care, but also offer a range of support to meet their mental and social needs.

- Home care support: Social workers provide guidance and professional care support to family members caring for people with dementia at home.
- Daily care and activities: In nursing homes, rehabilitation, therapy and social activities are organized for people with dementia.
- Psychosocial support: People with dementia often suffer from depression, anxiety and other psychological problems. Social workers can organize psychotherapy sessions, counseling services or support groups to meet the emotional needs of patients.

Dementia can be a huge burden for close family members and caregivers of patients. Social workers provide support to family members and caregivers, helping them to cope with the stress. Families and caregivers should learn the right ways to care for people with dementia and feel more confident in the care process. Social workers can provide caregivers with information on understanding the needs of people with dementia, improving communication skills and coping with challenging situations. Support groups can be organized for the caregiver. These groups make caregivers feel that they are not alone and allow them to share their experiences.

People with dementia may face problems such as isolation and loneliness over time. Social services can organize appropriate social activities for dementia patients to ensure their participation in social life and strengthen their social support networks. Such activities reduce patients' feelings of

loneliness and engage them in more social interactions. Legal and financial issues of people with dementia are also an important responsibility. Social workers provide legal and financial support to guide people with dementia and their families through these processes. It is important to identify the legal rights and financial needs of people with dementia. Social workers can help families with issues such as assessing patients' legal capacity, preparing wills, financial management and care contracts. Social workers can provide information to families about government grants to cover the costs of caring for people with dementia. The environmental needs of people with dementia are critical to their safety. Social workers can help patients make arrangements to make their home environment safe. Arrangements can be made at home to eliminate potential hazards and allow the patient to continue living more independently. Identifying appropriate care centers for dementia patients is among the tasks of social workers. In these centers, care is provided according to the needs of the patients (1).

Social workers face many problems. These problems are often related to people with dementia and their families. They may arise when the dementia patient has no relatives. The social worker may have difficulties in finding the patient's background. One of the most common issues with families is that they may deny the dementia diagnosis or refuse to provide care. Sometimes, caregivers may resort to violence against the patients. When the patient says that they are being subjected to violence, the social worker can hardly understand whether it is real or not. Dementia patients can sometimes describe the past event as if it were new. They should look at the patient's condition, talk to the neighbors, try to understand whether what the patient is saying is true or not.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Ultimately, effective social work with dementia patients depends on a collaborative approach that involves healthcare providers, families, communities, and policymakers working together to create a system that supports both patients and their caregivers. By overcoming these challenges, social work can significantly contribute to a more compassionate, informed, and supportive environment for individuals living with dementia.

## References

1. Dementia care: A global concern and social work challenge by Daniel B.Kaplan and Barbara Berkman

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 125-126**
**Scientific Sources XVI Collection of Theses / 125-126**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Elvira Şiriyeva**
Lənkəran Dövlət Universiteti
magistrant
elvirasiriyeva19@gmail.com

# İNFORMASİYA SİSTEMİNİN ALT SİSTEMLƏRİ

***Açar sözlər:*** *informasiya sistemi, alt sistem, şəbəkə, şifrələmə, təhlükəsizlik*
***Keywords:*** *information system, subsystem, network, encryption, security*

İnformasiya sistemləri (İS) müasir təşkilatlarda məlumatların effektiv idarə olunması və qərar qəbuletmənin dəstəklənməsi üçün əsas yollarından biridir. Bu sistemlər, öz funksiyalarını yerinə yetirmək üçün bir neçə alt sistemləri təşkil edir. Alt sistemlər, həm texniki, həm də funksional səviyyədə fəaliyyət göstərərək İS-in ümumi strukturunda vacib yer tutur.

Alt Sistemlərin Təsnifatı

İnformasiya sistemləri aşağıdakı əsas alt sistemləri təşkil edir:

1. Verilənlərin Toplanması və İdarəedilməsi

Toplanan məlumatların emalını və saxlanmasını yerinə yetirir.

Müasir verilənlər bazası idarəetmə sistemləri (məsələn, SQL) istifadə olunur (Əliyev, 2023).

2. Qərar Dəstəyi Sistemi (DSS)

Müəssisələrdə strateji qərarların qəbul edilməsi üçün istifadə edilir.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Alternativlərin qiymətləndirilməsi və optimal həllərin seçilməsi üçün alqoritmlər icra edilir (İsmayılov, Məmmədov, 2023).

3. Təhlükəsizlik Alt Sistemi

Verilənlərin məxfiliyinin qorunması və kiberhücumlara qarşı müdafiə həyata keçirir.

Şifrələmə metodları və identifikasiya sistemlərindən işlədilir (Şahbazova, 2022).

Bulud texnologiyaları, şəbəkə arxitekturaları və kommunikasiya infrastrukturunu təşkil edir (İsmayılov, Məmmədov, 2023).

5. İnsan Resursları Alt Sistemi

İşçi məlumatlarının idarə olunması və kadr ehtiyaclarının təhlili üçün istifadə edilir (UNEC Tədqiqatları, 2023).

İnformasiya sistemlərinin alt sistemləri onların funksionallığını genişləndirərək təşkilatların müxtəlif ehtiyaclarını ödəyir. Bu alt sistemlər bir-biri ilə inteqrasiya olunaraq, qərar qəbuletmə proseslərinin daha səmərəli həyata keçirilməsinə fürsət yaradır.

**Ədəbiyyat**

1. Əliyev, Ə. Ş. (2023). Müasir İdarəetmə Sistemlərində İnformasiya və Süni İntellekt Metodları. UNEC Nəşriyyatı.
2. İsmayılov, V. Ə., Məmmədov, T. A. (2023). İnformasiya Texnologiyalarının Tətbiqi və Biznes Prosesləri. UNEC Nəşriyyatı.
2. Şahbazova, Ş. N. (2022). İnformasiya Texnologiyaları. Çaşıoğlu Nəşriyyatı.
3. UNEC Tədqiqatları. (2023). İqtisadi İnformasiya Sistemləri haqqında Analizlər. UNEC Nəşriyyatı.
4. Əliyev R. (2023). Biznesdə Rəqəmsal Transformasiya və İnformasiya Sistemləri. Elm Nəşriyyatı.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 127-129
Scientific Sources XVI Collection of Theses / 127-129
doi.org/10.36719/2663-4619/2024/XVI

**Rübabə Quluzadə**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
r.quluzade08@gmail.com

# NAXÇIVAN ŞƏHƏRİNİN SƏNƏTKARLIQ SAHƏLƏRİ

***Açar sözlər:*** *Naxçıvan şəhəri, Naxçıvanda sənətkarlıq, dulusçuluq, misgərlik, zərgərlik*
***Keywords:*** *Nakhchivan city, Crafts in Nakhchivan, pottery, coppersmithing, jeweller's art*

Azərbaycan qədim sənətkarlıq mərkəzlərindən biridir və qədimdən burada müxtəlif sənət sahələri yaranıb inkişaf etmişdir. Azərbaycanın qədim bölgəsi olan Naxçıvan da bu baxımdan istisna təşkil etmir. Burada xüsusi ilə metalişləmə, duluçuluq, zərgərlik, misgərlik kimi sahələr qədim ənənələrə malikdir.

Arxeoloji tədqiqatlar zamanı Sədərək, Maxta, Ovçular təpəsi Şahtaxtı, Qarabağlar kimi qədim yaşayış yerlərindən zəngin sənətkarlıq və bəzək əşyalarının, rəngarəng motivli bəzəklər, metal, ağac, daşdan hazırlanmış bəzək əşyaları, nəfis zərgərlik məmulatlarının aşkar edilməsi Naxçıvanın qədim sənətkarlığın mərkəzlərindən biri olduğunu sübut edir (4). Hələ IV-V əsrlərdən başlayaraq Naxçıvanın ən iri şəhər və şəhərətrafı ərazilərində olduqca böyük sənətkarlıq və ticarət mərkəzləri meydana gəlməyə başlayıb (Hacıyeva, 2017, s. 16).

Naxçıvanda inkişaf edən əsas sənətkarlıq sahələrindən biri dulusçuluq olub. Dulusçuluğun inkişafı Neolit dövrü ilə əlaqələndirilir, Tunc dövründə isə gil qablar dulus çarxlarında hazırlanıb və kürələrdə bişirilib ki, bunu I Kültəpədə aşkar edilən dulus kürələrinin qalıqları sübut edir. İlk orta əsrlərin

sonlarından etibarən Azərbaycanda dulusçuluq daha yüksək səviyyədə inkişaf etmiş və saxsı qabların hazırlanması demək olar ki, bütün şəhər və vilayətlərdə yayılmışdır (Hacıyeva, 2017, s. 34).

Orta əsrlərdə əhalinin əsas hissəsini təşkil edən sənətkarlar var idi. Onlar üç qrupa bölünürdü: 1) Fərdi fəaliyyət göstərən sənətkarlar; 2) Xüsusi təşkilatlarda birləşmiş sənətkarlar; 3) İri feodal emalatxanalarında çalışan sənətkarlar (Şahverdiyev, 2018, s. 50).

Əhalinin məşğul olduğu qədim sənətkarlıq sahələrindən biri də misgərlik olub. Burada mis mədənlərinin olması bu sahəsinin inkişafına böyük təsir göstərib. XV əsrdə mis qablar əhalinin geniş təbəqəsinin və əyanların məişətində özünəməxsus yer tutub. Onlar nəinki Azərbaycanda, hətta Avropada da məşhur idi. Misal olaraq bədii metal ustası Osman ibn Salman Naxçıvaninin Fransanın Luvr muzeyində saxlanılan oyma naxışlarla bəzədilmiş bürünc dolçasını göstərə bilərik (5). Sənətkarlar düzəltdikləri əl işlərininin üzərində imzalarını həkk etdirdikləri üçün dünya muzeylərində saxlanılan belə nümunələri heç kəs öz adına çıxara bilmir. Misdən hazırlanan nümunələrin 40-a qədər növü olub və onlar 5 qrupda ümumiləşdirilir: Yemək qabları, süfrə qabları, su qabları, ağartı qabları və məişət əşyaları (5).

Sənətkarlığın digər sahəsi olan zərgərlik də Naxçıvanda inkişaf edib. I Kültəpədən aşkar edilən qızıl məftildən hazırlanmış sırğa, bilərziklər buna əyani sübutdur. X əsr müəllifi İbn Hövqəl Azərbaycanda zərgərlik sənətinin mühüm mərkəzləri sırasında Naxçıvanın adını çəkib (Əliyeva, 2024, s. 91).

Toxuculuq da sənətkarlığın qədim və ənənəvi sahələrindəndir. Kültəpədən aşkar edilmiş xalça dəzgahları bu sahənin Naxçıvan ərazisində nə qədər köklü olduğunu sübut

doi.org/10.36719/2663-4619/2024/XVI

edir. Toxuculuqda istifadə olunan materiallar yerli məhsullar olub və Naxçıvanın şəhər və kəndlərində istehsal edilib (Hacıyeva, 2017, s. 44). Bu sahə əsasən qadın əməyinə əsaslanıb.

## Ədəbiyyat

1. Əliyeva, N. (2024). Naxçıvan diyarında XIX-XX ƏSRİN əvvəllərində sənətkarlığın tarixi coğrafiyaya təsiri, məqalə. Naxçıvan, 4.
2. Hacıyeva, S. (2017). Naxçıvanda sənətkarlıq. Naxçıvan, 184.
3. Şahverdiyev, Z. (2018). Naxçıvan bölgəsi XIX-XX əvvəllərində. Bakı, 264.
4. https://nakhchivan.preslib.az/az_d3.html
5. https://www.wikimedia.az-az.nina.az/Nax%C3%A7%C4%B1vanda_s%C9%99n%C9%99tkarl%C4%B1q.html

Elmi Mənbələr XVI Tezislər Toplusu / 130-134
Scientific Sources XVI Collection of Theses / 130-134
doi.org/10.36719/2663-4619/2024/XVI

**Şadgün Məmmədova**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
sadgunsahin@gmail.com

# MUZEY SƏRVƏTLƏRİ VƏ XATİRƏ ƏŞYALARININ ELMİ BƏRPA MƏRKƏZİNİN BƏRPA ÜSULLARI

***Açar sözlər:*** *bərpa, muzey, şöbə, eksponat, qrafika, incəsənət*

***Keywords:*** *restoration, museum, department, exhibit, graphics, art*

MSXƏEBM-nin tərkibində 4 şöbə fəaliyyət göstərir. Bunlar, elmi-tədqiqat şöbəsi, rəngkarlıq şöbəsi, qrafika şöbəsi, və tətbiqi-incəsənət şöbəsidir.

Artıq 60 ilə yaxındır ki, MSXƏEBM Respublikamızın 200-dən artıq tarix və ev muzeyinə, diyarşünaslıq muzeyli və digər aparıcı müəssisələrimizə məxsus olan əşyaların bərpasına çalışır. Bu müddət ərzində Bərpa Mərkəzində 28.000-dən artıq fərqli növ muzey əşyalarının konservasiyası prosesi aparılmışdır. Bərpa olunmuş eksponatlar sırasında müxtəlif növ parça nümunələri, tikmə, ağac əşyası və ağac işləmələri, xalça və xalçaçılıq ləvazimatları, geyim, bədii metal nümunəsi (həmçinin gümüş məmulatları), keramika nümunəsi, arxeoloji qazıntılardan əldə edilmiş nümunələr, musiqi alətləri və s. görə bilərik.

Bərpa prosesinə qəbul edilmiş eksponatların zədələri qısa şəkildə təsvir edilir. Daha sonra eksponat üzərində bərpa üçün lazımi işlər görülür. Optik böyüdücü vasitəsilə vərəqin, rəng qatının hansı vəziyyətdə olması, eksponatda olan zədələrin (pas ləkələri, yağ, rəng, eyni zamanda həşərat ekskrementləri)

növləri dəqiqləşdirilir. Bərpaçının işinə çətinlik törətmiş olan, şübhə doğurucu qüsurlar varsa, fiziki-kimyəvi laboratoriya və tədqiqat nəticəsində müəyyən edilərək bərpa üçün göndərilir.

Bərpa üçün daxil olan eksponatların dəqiq müayinəsi üçün vizual yoxlama ilə yanaşı başqa spektrin görünən sahəsindən "lümunessent" təhlil həyata keçirilir.

Bu səbəblə ultrabənövşəyi şüanı yayan xüsusi avadanlıqların köməyindən istifadə edilir. Eksponatların işıqlandırılması prosesi ultrabənövşəyi şüaların köməyi ilə aparılır. Yəni eksponatlar üzərində lüminessent təhlili aparılır (Musayev, 2017).

"Lüminessent" təhlil nə üçün lazımdır?

Muzey eksponatlarının dərin qatlarında yerləşən, normal işıqda görünməsi çətin və ya mümkün olmayan kif ləkələrinin eyni zamanda mövcud olan digər qüsurların , solmuş müəllif yazılarınının aşkar edilməsində bizə kömək edir.

Bərpa Mərkəzinə qəbul olunmuş eksponatların tarixi, sənətşünaslıq və kimyəvi-texnoloji tədqiqatı aparılır, daha sonra həmin eksponatların konservasiyası müəyyən edilir. Artıq eksponatın üzərində praktiki işlər görülməyə başlanılır.

Bundan sonra əsərlər bərpa məqsədilə proseslərə məruz qalır. Misal üçün, rəng qatı bərkidilir, yuyulma, neytrallaşdırılma, quru təmizləmə, preslənmə, rəng qatı bərkidilməsi və ton vermə kimi proseslər aparılır.

Sulu boya ilə işlənilmiş eksponatların üzərində bərpa prosesi aparılmazdan əvvəl eksponatın rəng qatının suya davamlılığı yoxlanılır. Belə eksponatların rəngləri çox vaxt kövrək və qeyri-sabit olur.

Bu tip hallarda eksponatların rəng təbəqəsinin bərkidilməsi üçün qrafika şöbəsi tərəfindən 0,5 % -li təbii zülal tərkibdə olan məhluldan istifadə olunur. Bu məhlul vasitəsilə eksponatlar iki üsulla emal olunur. 1-ci bərpa mayenin hava

**doi.org/10.36719/2663-4619/2024/XVI**

təzyiqi ilə toz vəziyyətinə gətirilir, sonra pambıq piltə yaxud da, səpələmək üçün istifadə olunan cihazın köməyi ilə aparılır. Bu üsuldan istifadə etməkdə əsas məqsəd boyanın rəng qatının və qeyri-sabitliyinin tökülməsidir (2).

Əgər muzey eksponatında rəng təbəqəsinin vəziyyəti stabildirsə, və toxunmaq üçün imkan varsa bu zaman bərkidilmə prosesi 2-ci üsula uyğun olaraq aparılır. 2-ci üsulla bərpada isə 0,5 %-li təbii zülal tərkibinə məxsus məhlulla isladılmış pambıq piltələrdən istifadə olunur. İkinci üsuldan istifadə olunaraq aparılan bərpada əsərin hər sahəsinə bir dəfədən artıq toxunmamaq əsas şərtdir. Əsər qurudulduqdan sonra onun bərkidilməsinin hansı dərəcədə olması yoxlanılır., əgər ehtiyac varsa bu zaman həmin proses yenidən təkrarlanır. Rəng qatı bərkidildikdən sonra isə sulu boyalı rəsmlərin üzərində, tərtib olunan bərpa metoduna əsasən, bərpa prosesi ardıcıl şəkildə davam etdirilir.

O zaman sulu boyalı rəsmlərin qorunması necə həyata keçirilməlidir?

Bu cür rəsmlərin tez dağılıb, zədələnməsinin əsas səbəblər; temperaturun, həmçinin rütubətin kəskin şəkildə dəyişməsi; işığın və zərərli şüanın təsiri; havada mövcud olan zəhərli qazlar, tozun nəticəsində çirklənmə; ziyanvericilərin təsiri; əsərlərin hazırlanmasında istifadə olunan materialların davamsız olması; rəsm əsərlərinin mexaniki olaraq zədələnməsinə etinadsız yanaşmaq; əsərlər muzeyə daxil olmazdan öncə, muzey daxilində düzgün formada qorunmaması, əsərlərdən yanlış istifadə olunmasıdır (3).

Əsərlərin məhvini sürətləndirən digər məqam isə bərpa işləri aparılan zaman səriştəsiz və ehtiyatsız yanaşmadır. Bundan əlavə bərpa işinin gecikdirilməsi də əsərin məhvinə təsir göstərir.

doi.org/10.36719/2663-4619/2024/XVI

Temperaturun qeyri-sabit olması, kəskin ,mövsümi baş verən temperatur dəyişiklikləri, eyni zamanda gündəlik temperaturun artıb-azalması sulu boyalı rəsm əsərlərinin köhnəlməsinin əsas faktorudur. Məsələn temperaturun nisbi rütubət dərəcəsinin 50 %-dən aşağı olması, nəm çəkmiş kağız eksponatlarının öz elastikliyini itirməsinə, qabararaq əyilməsinə, əsərlərin üzərində qatların əmələ gələrək çatlamasına səbəb ola bilər. Bu səbəbdən də havanın nisbi rütubəti +18C, rütubət dərəcəsi 55+5% miqdarında olması məsləhət görülür.

Həmçinin sulu boyalı əsərlər təbii işığın təsirindən müdafiə olunmalıdır. Çünki bütün qrafika növləri, kitablar, əlyazma materialları və digər muzey yerləşdirmələrinin işıqlandırma dərəcəsi 50 lüks-75 lüks həcmində olmalıdır. Sulu boyalı rəsmlər işığın təsirindən tez solub, rəngləri tez bozara bilir. Buna görə də ekspozisiya zamanı bu tip rəsm əsərlərinin birbaşa günəş işiğına məruz qalmasına imkan verilməməlidir.

Belə rəsm əsərlərinin qorunmasının əsası onların bioloji zədələnmələrdən hansı dərəcədə mühafizə olunmasıdır. Belə zədələnmələrin əsas səbəbkarları ziyanvericilərdir (mikroorqanizmlər, həşəratlar, göbələklər).

Sulu boyalı rəsmləri muzey fondları daxilində 30 ədəddən artıq olmamaq şərti ilə mühafizə olunacağı qovluqda, yeşiklərdə qablaşdırırlar.

Həmçinin əsərlərin tozdan qorunması üçün onların mütəhərrik rəflərin və qapalı şkafların içində mühafizə olunması məsləhət görülür. Belə əsərlərin yerdəyişməsində onların bükülməsində mikalent kağızlar və ya kalkadan istifadə edilməsi məsləhət görülür (4).

Haşiyələnmiş yaxud da çərçivəyə alınmış akvarellər özəl şkaflarda saxlanılmalıdır. Belə şkafların rəflərinin sıx quraşdırılması, şaquli vəziyyətdə arakəsmələrdən istifadə olunması

doi.org/10.36719/2663-4619/2024/XVI

tövsiyə olunur. Arakəsmələrin bu şəkildə yerləşməsi muzey əşyalarının bir-birinə toxunmasına maneə olur.

Muzeylərin ən başlıca fəaliyyət prinsipi eksponatların qorunmasıdır. Bu eksponatların, kolleksiyaların qorunması muzey əməkdaşlarının öhdəsinə düşür.

## Ədəbiyyat

1. Musayev, E. (2017). "Kargüzarlıq və arxiv işi" QN, 584.
2. Milli Arxiv İdarəsinin nəzdində fəaliyyət göstərən "Sənədlərin bərpası üzrə Mərkəzi Laboratoriyası".
3. https://muzey-servetleri-ebm.az/az/content/69
4. https://muzey-servetleri-ebm.az/az/content/730

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 135-139**
**Scientific Sources XVI Collection of Theses / 135-139**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Hacı Soduyev**
Azərbaycan Universiteti
magistrant
hacisoduyev7@gmail.com

# QARABAĞA İŞĞALDAN SONRAKI QAYIDIŞ: SOSİAL-PSİXOLOJİ REİNTEQRASİYA PROBLEMLƏRİNİN TƏHLİLİ

***Açar sözlər:*** *Qarabağ, Böyük Qayıdış, sosial problemlər, sosial reinteqrasiya, iqtisadi inteqrasiya*
***Keywords:*** *Karabakh, Great Return, social problems, social reintegration, economic integration*

2020-ci ildə 44 günlük müharibədən sonra azad edilən ərazilərə geri dönən məcburi köçkünlərin doğma yurdlarına qayıtması onlarda bir sıra problemlərin yaranmasını səbəblərini təhlil edəlim. 44 günlük müharibədən sonra Dağlıq Qarabağa və ətraf ərazilərə qayıdan insanların yaşadığı psixoloji çətinliklər, həm müharibənin yaratdığı travmalarla, həm də yeni həyata adaptasiya ilə bağlıdır. Bu insanlar illərlə doğma yurdlarından uzaqda yaşayıb, həm itirdikləri yerlərin və yaxınlarının hüznünü, həm də bəzən heç vaxt görmədikləri torpaqlara qayıtmanın mürəkkəb emosiyalarını daşıdıqlarını görməmiz mümkündür. Onların psixoloji çətinlikləri əsas bunları qeyd etmək olar:

- Müharibə travması və posttravmatik stress pozuntusu (PTSP)
- Qarışıq emosional hisslər və kimlik çətinlikləri
- Yeni mühitə adaptasiya çətinlikləri
- Gələcəyə dair qorxu və təhlükəsizlik hissinin olmaması
- Maddi vəziyyət və işsizliyin təsiri

Qarabağa qayıdan şəxslərin sosial adaptasiyası, işğaldan azad edilmiş ərazilərdə yenidən qurulan həyatın bir hissəsinə çevrilmək üçün həm fərdi, həm də kollektiv səviyyədə qarşıya çıxan çətinliklərin öhdəsindən gəlmək və yeni şəraitə uyğunlaşma prosesini əhatə edir. Bu proses müharibənin izlərini hiss edən insanlar üçün həm fiziki, həm də psixoloji çətinlikləri müşayiət edirik.

Bu çətinliklərə qarşı dövlətin sosial adaptasiyanı dəstəkləyən bir sıra tədbirlərini görə bilərik. Misal: dövlət proqramları, psixoloji dəstək və reabilitasiya, iqtisadi təşəbbüslər və s. Qarabağa qayıdan şəxslərin sosial adaptasiyası, yalnız fiziki məskunlaşma deyil, həm də emosional və ictimai reabilitasiya tələb edir. Davamlı dövlət dəstəyi, ictimai həmrəylik və iqtisadi infrastrukturun bərpası ilə bu prosesin uğurla başa çatdığını görürük. Misal: "İstisu" mineral su zavodunun təməli 2022-ci il iyunun 26-da Prezident İlham Əliyev tərəfindən qoyulmuşdur. Zavodun tikinti işləri isə 2024-cü ildə tam başa çatdırılıb. Bu müəssisə regionda mineral su istehsalı və ixracı üçün vacib infrastruktur layihələrindən biridir və bölgə iqtisadiyyatının inkişafına da müsbət təsir göstərməsi gözlənilir (1).

Qarabağa qayıdan şəxslərin iqtisadi və sosial reinteqrasiyası onların dayanıqlı şəkildə bölgəyə yerləşməsi, sosial həyatın bir parçası halına gəlməsi və iqtisadi fəaliyyətlərdə iştirakını təmin etmək üçün həyata keçirilən çoxşaxəli tədbirlər sistemi deyə bilərik. Bu proses Qarabağın bərpası və inkişafı üçün strateji əhəmiyyət kəsb edir və bir neçə əsas istiqaməti əhatə edir.

| Sosial reinteqrasiya | İqtisadi reinteqrasiya |
|---|---|
| Sosial xidmətlərin təşkili | İş imkanlarının yaradılması |
| Yaşayış şəraitinin yaxşılaşdırılması | Müasir texnologiyaların tətbiqi |
| Toplumların birləşdirilməsi | Regional əlaqələrin bərpası |
| Mədəni irsin qorunması | Təlim və peşə hazırlığı |

Prosesin əhəmiyyəti Qarabağa qayıdan şəxslərin uğurlu reinteqrasiyası yalnız həmin şəxslərin rifahını təmin etməklə kifayətlənmir, həm də bölgənin uzunmüddətli inkişafına və sabitliyinə xidmət edir. Azərbaycan hökumətinin həyata keçirdiyi bərpa və quruculuq işləri, həmçinin beynəlxalq təşkilatların dəstəyi bu prosesin əsasını təşkil edir. Bu sahədə atılan addımlar Azərbaycanın Qarabağda dayanıqlı və müasir bir cəmiyyət qurmaq istəyini əks etdirir (2).

Qarabağa qayıdan şəxslərin milli kimlik və mədəni yaddaşının bərpası Qarabağın yenidənqurma və reinteqrasiya prosesində mühüm əhəmiyyət kəsb edir. Bu, Qarabağın tarixi, mədəni və milli dəyərlərinin qorunması, bərpası və gələcək nəsillərə ötürülməsi ilə əlaqədardır. Mədəniyyətin və milli kimliyin bərpası həm qayıdan insanlar, həm də bütövlükdə Azərbaycanın tarixi irsinin yaşadılması üçün strateji rola malikdir.

Milli kimlik və mədəni yaddaşın bərpasının əsas istiqamətləri buları qeyd etmək olar:

**Mədəni irsin bərpasına:** Qarabağda işğal dövründə dağıdılmış və ya zərər görmüş mədəni irs obyektlərinin, məqbərələrin, qədim yaşayış məkanlarının bərpasını qeyd etmək olar.

Misal: Qarabağda bir çox qədim məqbərələr zərər görmüş və ya tamamilə dağıdılmışdır. Bunlara Ağdamda Güllü Təpə, Şuşada Yuxarı Gövhər Ağa məscidi və digər tarixi məkanlar daxildir. Hazırda Azərbaycan hökuməti, beynəlxalq təşkilatlar və memarlıq mütəxəssisləri birgə bu məkanların bərpasını həyata keçirir (2).

**Sosial inteqrasiya və həmrəylik:** Qayıdan şəxslərin milli kimliklərini qoruyaraq yeni sosial sistemə uyğunlaşmasına şərait yaradılması, Qarabağın tarixi və şəhidlərinin xatirəsini yaşatmaq üçün memorial parklar və xatirə komplekslərinin salınması.

**Təhsil və mariflәndirməyə:** Qarabağda məktəblərdə milli tarix, mədəniyyətə dair xüsusi dərslərin keçirilməsi, Qarabağın musiqi, rəqs və incəsənət irsinin təşviqi üçün milli festivalların və sərgilərin təşkil olunmasını qeyd etmək olar.

**Qarabağın mədəniyyətinin beynəlxalq səviyyədə tanıdılması:** Qarabağın zəngin mədəni irsini dünya ictimaiyyətinə tanıtmaq üçün beynəlxalq sərgilər, təqdimatlar və sənət layihələrinin həyata keçirilməsi, UNESCO kimi təşkilatlarla əməkdaşlıq edərək Qarabağ mədəni irsinin dünya irsi siyahısına daxil edilməsi üçün işlərin görülməsi.

Nəticə olaraq Qarabağa qayıdış, təkcə fiziki bir hərəkət deyil, həm də çoxşaxəli bir yenidənqurma prosesidir (3). Bu prosesdə psixoloji dəstək proqramlarının, sosial adaptasiya mexanizmlərinin, iqtisadi bərpa strategiyalarının və milli-mədəni dəyərlərin qorunmasına yönəlmiş tədbirlərin ahəngdar şəkildə həyata keçirilməsi vacibdir. Qarabağın yenidən canlanması yalnız insanlar üçün yaşayış şəraiti yaratmaqla deyil, həm də onların mənəvi və mədəni bağlarını bərpa etməklə mümkün olacaqdır.

doi.org/10.36719/2663-4619/2024/XVI

## Ədəbiyyat

1. İlham Əliyev Kəlbəcərdə "İstisu" mineral su zavodunun təməlini qoyub: https://president.az/az/articles/view/56544/images/41\
2. İlham Əliyev "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda iştirak edib: https://president.az/az/articles/view/62400
3. İlham Əliyev Şuşada Aşağı Gövhər Ağa məscidinin bərpadan sonra açılışında iştirak edib: https://president.az/az/articles/view/66405

Elmi Mənbələr XVI Tezislər Toplusu / 140-142
Scientific Sources XVI Collection of Theses / 140-142
doi.org/10.36719/2663-4619/2024/XVI

**Nazim Hüseynov**
Lənkəran Dövlət Universiteti
magistrant
nazimhuseynov259@gmail.com

# MÜƏLLİM-ŞAGİRD MÜNASİBƏTLƏRİ ƏMƏKDAŞLIQ MÜSTƏVİSİNDƏ

***Açar sözlər:*** *müəllim, şagird, fəaliyyət, təlim, münasibət*
***Keywords:*** *teacher, student, activity, training, relationship*

Məlum olduğu kimi müasir dövrdə müəllimin ənənəvi yanaşmasında dəyişikliklər baş vermişdir. Hazırda müəllimin mövqeyi bələdçi – fasilitator, aparıcı – istiqamət verən bir mövqedir. Bu müəllimin liderliyinin yeni tipidir. Müasir dövrdə müəllim və şagirdin fəaliyyəti sıx əməkdaşlığa əsaslanır. Bu əməkdaşlığın da əsasında müəllim və şagird arasındakı pozitiv münasibətlər dayanır. Müəllimin şagirdlərlə fəaliyyəti məqsədli, ardıcıl, sistemli şəkildə əməkdaşlığa əsaslanır. O, şagirdlərə istiqamət verir, problemli vəziyyəti təşkil edir, tədqiqat məqsədlərinin qarşıya qoyulmasında, eyni zamanda dərs materiallarının mənimsənilməsində şagirdlərə metodik kömək göstərir. Şagirdlərin fəaliyyəti isə müəllimin verdiyi istiqamətə əsasən təşkil olunur. O, burada fəaliyyətə məcbur edilmir, yalnızca sövq edilir. Bu zaman şagirdin mövqeyi kəşf edən, tədqiqatçı, araşdırmaçı xarakteri daşıyır. Təlim prosesi zamanı müəllim şagirdlərə yalnızca metodik kömək göstərməməli, şagirdlərlə mənəvi əlaqə qurmalıdır. Bu zaman müəllim şagirdlərin fəaliyyətinə məharətlə rəhbərlik edə bilir. Proses zamanı da şagirdlərin şəxsi keyfiyyətləri, eyni zamanda əməliyyatlardakı müstəqilliyi ön plana çıxır. Bu da təlimin daha effektiv olmasını təmin edir. Müəllim şagird

**doi.org/10.36719/2663-4619/2024/XVI**

münasibətlərində humanist prinsipə əsaslanaraq aşağıdakı məqamlar gözlənilməlidir :

- Müəllim və şagirdin münasibətləri mənəvi ölçülərə söykənməlidir
- Həm müəllim, həm də şagird bir-birilərinə şəxsiyyət kimi yanaşmalıdır
- Müəllim və şagirdin fəaliyyəti əməkdaşlıq xarakteri daşımalıdır

Yuxarıda qeyd etdiklərimiz müəllim və şagirdin qarşılıqlı fəaliyyətinin tənzimlənməsində həlledici rol oynayır. Müəllim şagirdlərlə nə qədər düzgün münasibət qurarsa, onların təlimə olan maraqlarının artmasını təmin edər. Bunun üçün də ilk növbədə müəllimlər bir sıra pedaqoji qabiliyyətlərə və pedaqoji ustalığa malik olmalıdırlar. Bunlar aşağıdakılardır:

- Təşkilatçılıq qabiliyyətləri
- Təlim (öyrətmə) qabiliyyətləri
- Perseptiv qabiliyyətlər
- Kommunikativ qabiliyyətlər
- Suqqestiv qabiliyyətlər
- Tədqiqatçılıq qabiliyyəti
- Elmi-idraki qabiliyyətlər

Qeyd etdiyimiz bu qabiliyyətlər zamanla dəyişə bilər. Buna baxmayaraq müəllimlər bu qabiliyyətlərini hər gün daha da inkişaf etdirməli və özlərinə prioritet istiqamət seçməlidirlər. Müəllim şagird münasibətləri bir-birinə elə yönəlməlidir ki, qarşılıqlı anlaşmanı təmin etsin. Bu təlim prosesində çox mühümdür. Çünki təlim müəllim və şagird arasındakı münasibətlərlə başlayır və bu münasibətlərlə də bitir. Müəllim elə münasibət yaratmalıdır ki, dərsin sonunda həm özü, həm də şagirdlər qarşılarına qoyduğu məqsədə nail ola bilsin. Təlim zamanı müəllim həm pedaqoq, həm də psixoloq olmalıdır. Pedaqoq kimi o, şagirdlərində özünə qarşı hörmət, sevgi

**doi.org/10.36719/2663-4619/2024/XVI**

hisslərini, bir sözlə pozitiv münasibət yaratmalıdır. Pedaqoqa qarşı olan bu cür münasibətlər də şagirdlərin təlim marağını artırır. Şagirdlərin daha uğurlu olmalarını, verilən praktik məsələlərdə daha müstəqil işləmələrini təmin edir. Müəllim şagird münasibətlərində müəllimin fəaliyyətində aparıcı keyfiyyətlərindən biri də tədqiqatçılıqdır. Müasir dövrdə müəllim reallaşdıracağı standartlara əsaslanaraq keçdiyi dərsin məqsədlərini müəyyən edir. Buna uyğun olaraq konkret plan qurur. İmkan daxilində isə bunları reallaşdırır. Bunlardan əlavə təlim prosesi zamanı müəllimlərin şagirdlərin uğurlarına verdiyi reaksiyalar da müəyyən ölçüdə olmalıdır. Şagirdin zəkasını və intellektini deyil, onların gündəlik fəaliyyətini, səylərini qiymətləndirmək lazımdır. Şagirdə davamlı olaraq “səndən ağıllısı yoxdur”, “çox ağıllısan” kimi ifadələr işlətdikdə o, artıq səhv etdikdə bunu özlüyündə utanc verici bir vəziyyət kimi qəbul edər, necə deyək şagird arxayınlaşar. Bu zaman da dərindən öyrənmənin yerini səthi öyrənmə tutar. Yəni çalışmaq lazımdır ki, onların fəaliyyətinə, çalışma əzmlərinə qiymət verək. Müəllim şagirdin xarakterindən, şəxsi keyfiyyətlərindən asılı olmayaraq, hər bir şagirdi cəmiyyətin bir üzvü kimi görməli və onları sevgi ilə qucaqlamağı bacarmalıdır. Şəxsiyyətinə hörmət olunan hər bir şagird psixologiyası sağlam, zehni aydın, vətənini və millətini sevən, bir şəxs kimi formalaşar.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 143-146
Scientific Sources XVI Collection of Theses / 143-146
doi.org/10.36719/2663-4619/2024/XVI

**Nigar Rzazadə**
Azərbaycan Universiteti
magistrant
rizazade.nigar@icloud.com

# AZƏRBAYCANDA ERKƏN NİKAH PROBLEMİNİN SOSİAL HƏLLİ YOLLARI

***Açar sözlər:*** *erkən nikah, maarrifləndirmə, psixoloji dəstək, qanunvericilik, beynəlxalq təşkilatlar*
***Keywords:*** *early marriage, awareness, psychological support, legislation, international organizations*

Azərbaycanda erkən nikah prosesi sayının azalmasına baxmayaraq hələ də bu problem davam etməkdədir. Bəs biz bu problemin qarşısını almaq üçün nələr edə bilərik?

Bu problemin qarşısını almaq üçün mütləq şəkildə maarrifləndirmə tədbirləri görmək lazımdır. Lakin buna diqqət etmək lazımdır ki, bu maariflƏndirmə tədbirləri yalnız uşaqlar arasında deyil, həmçinin həmin uşaqların valideynləri üçün də keçirilməlidir. Çünki uşaqlar nə qədər erkən nikahın mənfi tərəflərini başa düşsələr belə valideynlər onları məcburi bu prosesə yönləndirdikləri halda onlar artıq heç nə edə bilməyəcəklər. Buna görə də birbaşa olaraq valideynlər də bu prosesə cəlb olunmalı və onlara övladlarını erkən nikaha məcbur etməklə nə dərəcə pislik etmiş olduqlarını başa salmaq lazımdır.

Məsələn, hüquqi cəhətdən valideynlərə izah edilməlidir ki, yaşı 18-ə çatmamış qızı ərə verdikdə rəsmi olaraq nikaha daxil ola bilmədikləri üçün kəbin kəsdirirlər, lakin başa düşmürlər ki, əgər nə vaxtsa boşanma halları olduqda bu evlilik rəsmi xarakter daşımadığı üçün mülkiyyətin bölünməsi və s. kimi

doi.org/10.36719/2663-4619/2024/XVI

məsələlərdə problemlər yaranır. Həmçinin sosial baxımdan erkən nikaha məcbur edilən qızlar həm təhsildən məhrum olurlar, həm həyatı dərk etməmiş ailə həyatı qurduqları üçün bu həyatı yarımçıq yaşamış olurlar. Bunun fəsadları isə bir müddət sonra özünü biruzə verir.

Erkən nikahların dağıdıcı nəticələrindən biri də onların insan sağlamlığına mənfi təsiridir. Erkən nikahlar erkən cinsi əlaqəyə, arzuolunmaz hamiləliklərə, hətta ana ölümlərinə və uşaq ölümlərinə səbəb olur (Cəfərova, 2024, s. 10). Verilən istinada əsasən asanlıqla deyə bilərik ki, erkən nikahın həm anaya, həm də övladına mənfi təsirləri olur. Hətta çox təəssüf ki, yeniyetmə qızın reproduktiv orqanları tam özünü tutmadığına görə, yəni tam formalaşmadığına görə bunun yaratdığı əsas problemlərdən biri uşaq nikahlarının səbəb olduğu və buna görə də sosial izolyasiyaya şərait yaradan anal fistulasıdır.

Bildiyimiz kimi, Azərbaycanda qanunvericiliklə nikaha daxil olmaq üçün minimum 18 yaş olmalıdır, lakin buna baxmayaraq qanunun icrası bəzən zəif icra edilir. Mütləq şəkildə qanunların ciddi şəkildə icrasını həyata keçirmək lazımdır və qanunazidd hərəkət edildiyi halda bu vəziyyətin hüquqi yolla cəzalandırılması lazımdır. Erkən nikah probleminin qarşısının alınmasında hüquq mühafizə orqanları müxtəlif yollarla iştirak edirlər. Bura aşağıdakıları aid edə bilərik:

1) Qızlara dəstək: Erkən nikah riski altında olan qız dərhal təhlükəsiz sığınacaqlara yerləşdirilməli və həmin qızların hüquqları qorunmalıdır.

2) Hüquq mühafizə orqanları istər qeyri-hökumət təşkilatları olsun, istər təhsil müəssisələri olsun bunlarla əməkdaşlıq etmələri lazımdır.

3) Vətəndaş məsuliyyəti artırılmalı, erkən nikaha daxil olaraq zorakılığa məruz qalmış qızlara sosial-psixoloji reabilitasiya yardımı göstərilməli, erkən nikahın acı nəticələri və məişət zorakılığı haqqında məktəblərdə mütəmadi maarifləndirici təlimlər keçirlməlidir (Köroğlu, 2014, s. 21).

Erkən nikaha məcbur edilib zorakılğa məruz qalmış qızlara mütləq şəkildə reabilitasiya xidmətləri göstərilməlidir. Çünki həmin şəxslər travmalı olurlar və bu, onların cəmiyyətə inteqrasiya olunmasında problem yaradır və sonda intihara belə səbəb ola bilər.

Müasir dövrdə sosial media platformalarında insanlar daha çox vaxt keçirdikləri üçün bu problemin qarşısının alınmasında kütləvi informasiya vasitələrinin də rolu danılmazdır. İstər televiziya, istər radio və ya Instagram, Telegram, Facebook bu kimi sosial media platformaları ilə erkən nikahın fəsadlarını ictimaiyyətə çatdırmaq daha yaxşı nəticə verə bilər. Eləcə də bu tip sosial şəbəkələrdə qızların, qadınların uğur və müvəffəqiyyətləri ilə hekayələr paylaşaraq maarifləndirmə və motivasiya etmək mümkündür.

Erkən nikahın qarşısının alınmasında müəllimlərin də rolu danılmazdır. Çünki müəllimlər həm şagirdlərlə, həm də onların ailəsi ilə birbaşa əlaqədə olurlar. Müəllimələrin burada rolunu bir neçə formada şaxələndirə bilərik:

1) Müəllimələr məktəblərdə şagirdlərə erkən nikahın törətdiyi fəsadlar haqqında məlumat verməlidir.

2) Müəllimlər qızlarımıza təhsilin vacibliyini başa salmalı, təhsilli qadınla təhsilsiz qadının fərqini izah etməli və qızların məktəbdə qalmaları üçün fəal rol oynaya bilərlər.

3) Müəllimlər qızları motivasiya etməli, onların özgüvənini qazanmalarına kömək etməlidir. Həmçinin, onlara öz hüquqlarını tanımaqda kömək etməlidirlər.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Erkən nikahın həlli yalnız bir amilə bağlı deyil, bu amillərin kompleks şəkildə birlikdə işləməsinə bağlıdır. Yuxarıdakılara əsasən belə qənaətə gələ bilərik:

- **Erkən nikahın qarşısının alınması**nda təhsilin gücləndirilməsi, qanunların güclü şəkildə icrası, iqtisadi imkanların artırılması kimi önəmli faktorlar çox vacib və həlledici rol oynayır.
- **Erkən nikaha artıq məruz qalmış və ya erkən nikah riski altında olan** qızlara psixoloji dəstək göstərilməli, məsləhət xidmətləri qızların təzyiqlərə qarşı dayanmasına və qızların özlərinin öz hüquqlarını müdafiə etməsinə kömək edəcək.

**Ədəbiyyat**

1. Cəfərova, T. (2024). Azərbaycanda erkən nikahların qarşısının alınması üçün tövsiyələr, ən yaxşı təcrübələr və mexanizmlər. Tədqiqat Hesabatı. Azərbaycan.
2. Köroğlu, A. D. (2014). En Az Gelişmiş Ve Gelişmekte Olan Ülkelerde Erken Yaşta Evliliklerle Mücadele Ve Türkiye Uygulamalari. Ankara.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 147-150
Scientific Sources XVI Collection of Theses / 147-150
doi.org/10.36719/2663-4619/2024/XVI

**Nərmin Əliyeva**
Lənkəran Dövlət Universiteti
magistrant
nermineliyev553@gmail.com

# ORTA MƏKTƏBDƏ FİZİKANIN ÖYRƏNİLMƏSİNDƏ MƏSƏLƏ HƏLLİNİN ROLU

***Açar sözlər:*** *sürət, zaman, məkan, məsafə, düstur, məchul, məlum*

***Keywords:*** *speed, time, space, distance, formula, unknown, known*

Məsələlərin həlli fiziki anlayışların və qanunların daha dolğun və dərin mənimsənilməsinə, fiziki hadisə və proseslərin mahiyyətinin açılmasına kömək edir, şagirdlərin təfəkkürünü inkişaf etdirir, şagirdləri müstəqil düşünməyə alışdırır. Məsələ həlli fizikadan şagirdlərin nəzəri biliklərinin yoxlanılmasının rasional üsuludur. Bununla əlaqədar, Azərbaycan Respublikasının Təhsil Proqramında fizika fənninin öyrənilməsində praktik çalışmaların və məsələ həllinin rolu xüsusi olaraq qeyd olunur. Çünki fizikadan nəzəri materialların mənimsənilməsi, qanun və düsturların açılışı praktik fizikanın imkanlarınan istifadə olunmadan yüksək nəticə verə bilməz. Buna görə də fizika kursunun tədrisi mütləq uyğun mövzular üzrə məsələlərin həlli ilə müşayiət olunmalıdır.

Hazırda məktəb fizika kursunda mexanika məsələlərinin həlli metodikasının təkmilləşdirilməsi məsələsi xüsusilə aktualdır. Aparılan araşdırmalara görə məktəb məzunları mexanikada nisbətən sadə məsələləri belə həll etməkdə çox vaxt ciddi çətinliklər yaşayırlar. Bu problemləri həll etmək üçün bir sıra üsüllardan istifadə olunur. Onların hamısını birləşdirən bir

**doi.org/10.36719/2663-4619/2024/XVI**

ümumi, qəbul edilmiş qayda, forma vardır ki, o da sadə məsələlərin həll edilməsini mənimsəməkdən və tədricən mürəkkəb məsələlərin həll metodlarına yiyələnmək üçün lazım olan metod və biliklərə sahib olmağın yollarını bilmək və tətbiq edə bilmək qabiliyyətinindən keçir.

Aşağı siniflərdə fizikanın öyrənilməsində şagirdlər mexaniki hərəkət, yerdəyişmə, sürət, ani sürət, orta sürət və s. haqqında çoxlu nəzəri biliklər əldə edirlər. Onların mexaniki hərəkətin nə olması, iki nöqtə-iki məntəqə arasında yerdəyişmənin baş verməsi, bu yerdəyişmənin hansı zaman hüdudlarında baş verməsi, yəni yerdəyişməyə sərf olunan vaxt, bu yerdəyişmənin tezliyi-yəni vahid zamanda əldə olunan yedəyişmə məsafəsi, bu yerdəyişməni təmin edən sürət anlayışları ilə yaxından tanış olurlar. Bu nəzəri biliklərin möhkəmləndirilməsi və yaddaşlara daimi həkk olunması üçün isə hökmən müəyyən sadə məsələlərin həll yollarını bilmək lazımdır. Bu məsələlər içərisində ilkin olaraq sürət, məsafə və zaman anlayışlarına həsr olunmuş məsələlər daha çox faydalı ola bilər.

Şagirdlər mexanika bölümündə hərəkət, yerdəyişmə və sürət anlayışlarını öyrənərkən onlara müəyyən məsələ çalışmaları verməklə intellektual və məntiqi təfəkkür elementlərini formalaşdırmaq və inkişaf etdirmək olar. Bunu aşağıda qeyd olunan sadə məsələlər nümunəsi üzərindən həyata keçirmək olar.

***Məsələ 1.*** Araba iki nöqtə-iki A və B məntəqələri arasında hərəkət edərək A məntəqəsindən B məntəqəsinə yerdəyişmə etmişdir. A və B məntələri arasındakı məsafə 60 km olmuş və yerdəyişməyə araba 3 saat vaxt sərf etmişdir. Arabanın bu yerdəyişməyə sərf etdiyi vaxt ərzində hərəkət sürətini tapmalı.

Bunun üçün şagirdlər sürətlə vaxt və məsafə arasındakı aşağıdakı düstürdan istifadə etməlidirlər:

**doi.org/10.36719/2663-4619/2024/XVI**

V = S/t

Yerdəyişməyə sərf olunan parametrləri- ümumi məsafəni və sərf olunan zamanı bu düsturda yerinə qoymaqla şagirdlər arabanın hərəkət sürətini tapırlar.

V = 60\3 = 20

Şagirdlər A və B məntəqələri arasında olan 60km yerdəyişmənin 3 saata baş verməsindən istifadə edərək arabanın bu mənətəqələr arasındakı sürəti müəyyən edirlər. pedaqoq onlara bu sürətin bütün mətəqələr arasında bərabər olmadığını, müxtəlif nöqtələrdə müxtəlif qiymətlər malik olması barədə fikirlər bildirir. Məs., o, arabanın bu iki nöqtə arasındakı yerdəyişməsinin bərabərsüətli olmayıb, bəzi nöqtətlərdə saatda 30km, bəzi nöqtələrdə 10km və bəzi nöqtələrdə isə 40 km ola biləcəyini qeyd edir və bu iki nöqtə arasında yalnız orta sürət deyilən anlayışdan istifadə edilməsinin məqbul olması haqda şagirdlərə məlumat verir.

***Məsələ 2.*** Pedaqoq sürətlə və yerdəyişmə ilə bağlı yuxarıdakı düstura uyğun məsələnin başqa cür qoyuluşundan istifadə edə bilər. Məs., araba iki A və B məntəqələri arasında saatda 20km hərəkət edərək yerdəyişməyə s saat vaxt sərf edir. A və B məntəqələri arasındakı məsafəni tapmalı. Pedaqoq yenə də yuxarıda sürətin zaman və məsafədən asılılıq düsturuna müraciət etməyi lazım bilir.

V = S/t

Pedaqoq məsələnin həlli üçün verilənlərdən istifadə etməklə məchulu tapmağı şagirdlərə öyrədir. Yuxarıdakı düstura əsasən

S = Vt olur

S = 3saat · 20 km = 60 km

***Məsələ 3.*** Pedaqoq bu dəfə də yuxarıdakı düsturdan istifadə edərək başqa bir məsələnin həllinə nail olur. Araba iki A və B məntələri arasında olan 60km məsafəni saatda 20 km

**doi.org/10.36719/2663-4619/2024/XVI**

sürətlə qət edir. Arabanın bu məsafəni neçə saata qət etməsini tapmalı.

Yenə də yuxarıdakı düstura müraciət edirik:

$$V = S/t$$

Məlim olanları düsturda yerinə qoymaqla yenə məchulu, yəni soruşulanı, tapmalı olduğumuzu almalıyıq

t = 60/20 = 3saat alırıq

Göründüyü kimi pedaqoq sadə bir düsturun köməyi ilə qarşıya qoyulan bir neçə məsələni- məsafə və zaman məlum olduqda sürəti, sürət və vaxt məlum olduqda məsafəni, məsafə və sürət məlum olduqda isə yerdəyişməyə sərf olunan zamanı tapıla bilməsini şagirdlərin diqqətinə çatdırır. Pedaqoq bu sadə düsturun köməyi ilə şagirdlərdə sürət, zaman, məsafə, məkan, kimi fəlsəfi kateqoriyalar, həm də eyni zamanda məchul, məlum olanlar kimi riyazi ifadələr haqqında biliklər, şagirdlərdə sadə məsələləri həlletmə qabiliyyəti formalaşdır, onları gələcək dərslərin gedişində daha mürəkkəb məsələlərin həllinə hazırlayır, sadədən mürəkkəbə, ibtidaidən aliyə doğru inkişaf tendensiyasının əsasını qoyur. Bununla da, müasir fizika pedaqoqu şagirdlərdə düşünmək, fikirləşmək kimi itellektual təfəkkür və məntiq elementlərinin formalaşdırılmasına və inkişafına nail olur.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 151-153
Scientific Sources XVI Collection of Theses / 151-153
doi.org/10.36719/2663-4619/2024/XVI

**Nərmin Piriyeva**
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti
magistrant
piriyevanermin3@gmail.com

# AZƏRBAYCANIN REGİONLARINDA TURİZMİN İNKİŞAFININ KONSEPTUAL PROBLEMLƏRİ

***Açar sözlər:*** *Azərbaycan turizmi, regional turizm, turizm potensialı, konseptual problemlər, turizm planlaması*
***Keywords:*** *Azerbaijan tourism, regional tourism, tourism potential, conceptual problems, tourism planning*

Turizm insanların müxtəlif yerlərə səyahət etmək, yeni təcrübələr qazanmaq, dincəlmək və əylənmək üçün müvəqqəti hərəkətidir. Turizm sektoru səyahət, yaşayış, yemək və içki, əyləncə və digər turist xidmətləri göstərən sənayeni əhatə edir.

Azərbaycanın regionlarında turizmin konseptual çərçivəsini müəyyən etmək üçün ölkənin turizm potensialının və turist resurslarının qiymətləndirilməsi vacibdir. Azərbaycan təbii gözəllikləri, tarixi-mədəni sərvətləri, termal ehtiyatları və digər turistik yerləri ilə diqqəti cəlb edən ölkədir.

Turizm sektorunun əsas elementlərinə turistlər, turizm resursları, turizm xidmətləri və turizm infrastrukturu daxildir. Turizm sektorunda maraqlı tərəflər arasında səmərəli əməkdaşlığın və koordinasiyanın təmin edilməsi vacibdir (Cabbarov, 2015, s. 132-133).

Turistlər Azərbaycanın bölgələrinə səyahət etmək və turistik təcrübə keçmək üçün gələn insanları nəzərdə tutur. Turist ehtiyatlarına təbii, mədəni, tarixi və digər turistik obyektlər daxildir. Turistik xidmətlərə yerləşdirmə, nəqliyyat, bələdçilik, yemək və içki və digər turizm fəaliyyətləri daxildir.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Turizm infrastrukturu dedikdə, turizm sektorunun ehtiyaclarını ödəmək üçün zəruri olan nəqliyyat şəbəkəsi, yerləşdirmə obyektləri, restoranlar və turizm məlumat mərkəzləri kimi infrastruktur elementləri nəzərdə tutulur.

Azərbaycan regionlarında turizmin konseptual çərçivəsini müəyyən etmək turizm sektorunun əsas elementlərini başa düşmək və bu elementlər arasında əlaqələrin qiymətləndirilməsi deməkdir. Bu çərçivə turizmin inkişafı üçün strateji planlaşdırma, resurslardan səmərəli istifadə, turist xidmətlərinin keyfiyyətinin və turist təcrübəsinin yüksəldilməsi məqsədi daşıyır. Bu konseptual məsələlər turizmin planlaşdırılması, turizmin idarə edilməsi, turizm marketinqi, turizm təcrübəsi, davamlı turizm və digər əlaqəli sahələrdə yarana bilər.

Turizm potensialının müəyyənləşdirilməsi, turizm məhsullarının şaxələndirilməsi, turizm infrastrukturunun inkişafı və turizm ehtiyatlarından davamlı istifadə kimi məsələlərdə çatışmazlıqlar ola bilər.

Turizm sektorunun idarə edilməsi, turist xidmətlərinin keyfiyyəti, turistlərin təhlükəsizliyi, turizm müəssisələrinin idarə olunması və turizm siyasətinin effektiv həyata keçirilməsi kimi məsələlərdə problemlər yarana bilər.

Turizm istiqamətlərinin düzgün təbliği, hədəf bazarların müəyyən edilməsi, brendinq strategiyaları və rəqəmsal marketinq kimi məsələlərdə çətinliklər ola bilər.

Turizm xidmətlərinin keyfiyyəti, turist məmnunluğu, turistik yerlərin əlçatanlığı və turistlərin mədəni təcrübəyə malik olması kimi məsələlərdə problemlər yarana bilər.

Təbii və mədəni sərvətlərin qorunması, ətraf mühitə təsirlərin idarə edilməsi, yerli icmaların iştirakı və turizmin iqtisadi, sosial və ekoloji dayanıqlığı kimi məsələlərdə çətinliklər yarana bilər.

doi.org/10.36719/2663-4619/2024/XVI

## Ədəbiyyat

1. Cabbarov, Ə. (2015). Turizmin iqtisadi əsasları. Bakı: ADPU-nəşriyyatı, 267.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 154-158
Scientific Sources XVI Collection of Theses / 154-158
doi.org/10.36719/2663-4619/2024/XVI

**Ağamirzə Cəfərov**
Azərbaycan Dövlət Aqrar Universiteti
magistrant
agamirzcfrov6@gmail.com

# ÇİRKLƏNMİŞ SULARIN TƏMİZLƏNMƏ TEXNOLOGİYASININ SUVARMA SİSTEMLƏRİNDƏ İSTİFADƏSİ

***Açar sözlər:*** *innovativ suvarma sistemləri, suyun təmizlənmə texnologiyası, damcılarla suvarma, çirklənmiş sular, komplekt sistemlər*

***Keywords:*** *innovative irrigation systems, water purification technology, drip irrigation, polluted waters, complete systems*

Suyun çirklənməsi suyun tərkibində yad maddələrin və ya çirklərin (üzvi, qeyri-üzvi, bioloji və ya radioloji) olması, beləliklə də onun keyfiyyətini aşağı salan amillərin, ətraf mühit üçün zəhərli hala gətirməsi kimi başa düşülür. Suyun çirklənməsi haqqında qanuna (1974-ci il) görə suyun çirklənməsi və ya suyun fiziki, kimyəvi və bioloji xassələrinin belə dəyişməsi hər hansı kanalizasiya ticarət tullantılarının digər maye, qaz, bərk maddələrin suya axıdılması (birbaşa və ya dolayı yolla) insanların sağlamlığına, təhlükəsizliyinə, məişət, kommersiya, sənaye, kənd təsərrüfatı, digər qanuni istifadələrə, heyvanların, bitkilərin həyatına, sağlamlığına ziyan verə bilən zərər yarada biləcəyi ehtimal olunan su orqanizmlərinin suyu çirkləndirməsi nəzərdə tutulur. Su həm təbii (vulkan püskürmələri, zəlzələlər, sunamilər, yeraltı qayalar və torpaqlar və s.), həm də texnogen fəaliyyətlərlə (kanalizasiya, sənaye tullantıları, gübrələr və s.) çirklənir. Onların suyu dəyişdirdiyi və çirkləndirdiyi açıq aşkardır. Bu

doi.org/10.36719/2663-4619/2024/XVI

da öz növbəsində çirklənmiş suyun məişət, suvarma, texniki xarakterli istifadəsinə çətinlik törədir. Bunun üçün də suvarma da, meliorasiya sahəsində də suyun bir sıra təmizlənmə texnologiyaları vasitəsilə istifadəsini aktual edir. Hal hazırda bir sıra innovativ suvarma sistemlərinin istifadəsilə tətbiq olunan ərazilər də çirklənmiş suların təmizlənərək həmin sulardan innovativ suvarma sistemləri ilə istifadə edilərək suvarmanın aparılması icra oluna bilər. Amma bu kimi komplekt sistemlərin daha çox ərazisi və təyinatl təhlil olunan ərazilər üçün istifadəsi səmərəli hesab olunur. Əsasən suyu çətinliklə təşkil olunan suvarma sistemlərində bu kimi istifadənin tətbiqi ancaq o zaman effektiv olar ki, həmin ərazilərdə suvarma tipli suyun, eləcə suyun qıtlığı və həmin ərazidə çatdırılması çətinlik törədər, bununla yanaşı həmin ərazidə çirklənmiş suların olması həmin təmizlənərək ən azından suvarma və ya texniki xarakterli istifadəsini səmərəli edər (Bratby, 2016). Həmçinin buna uğun innovativ suvarma sistemlərinin istifadəsi də düzgün seçilməlidir. Bundan əlavə duzlu sularında təmzilənməsini də bu kimi komplekt istifadə də tətbiq etmək də mümkündür. Bilirik ki, innovativ suvarma sistemləri, kənd təsərrüfatında su resurslarının istifadəsini təmin etmək, bitki məhsuldarlığını artırmaq və su israfını azaltmaq məqsədi ilə inkişaf etdirilmiş müasir texnologiyadır. Bu sistemlər həm quraq iqlimlərdə, həm də su ehtiyatlarının məhdud olması çox faydalıdır. İnnovativ suvarma sistemlərinə damcılarla suvarma, ağıllı suvarma sistemləri, yeraltı suvarma sistemləri, yağışlama suvarma sistemləri, aqrovoltaik suvarma sistemlərini deyə bilərik. Bu suvarma sistemlərini həmin ərazilərdə tətbiq edərək əraziyə və şəraitə uyğun çirklənmiş və duzlanmış suların təmizlənərək istifadəsində tətbiq edə bilərik. Bunlardan hal-hazırda isə damcı suvarma sistemlərindən yerli şəraitdə geniş tətbiq olunur. Bu istifadə eləcə şəxsi istərsədə ümumi təyinatlı

doi.org/10.36719/2663-4619/2024/XVI

təssərüfatlarda istifasinə çox rast gəlinir. Bu innovativ suvarma sistemlərindən olan damcı suvarma sistemlərinin belə komplekt sistemlərdə istifadə etmək mümkündür. Belə ki, damcı suvarma sisteminin ilk öncə müsbət cəhətlərinə biz nəzər salmalıyıq bunlara:

1. Su israfını minimuma endirir.
2. Bitkinin köklərinə su və qida məhsulları çatdırır.
3. Torpağın üst qatında eroziyanın çıxarılması alır.
4. Elektrik enerjisinə çevrilir, aşağı elektrik enerjisi ilə işləyir kimi cəhətlər aid olunur.

Daha sonra isə biz bu sistem də və eləcə bu sistemlərdə tətbiq oluna biləcək suyun təmizlənmə texnologiyalarına nəzər salmalıyıq. Suyun təmizlənmə texnologiyaları, suyun keyfiyyətini və keyfiyyətini və onun daxili ehtiyaclarını, digər məhsullara uyğunluğunu təmin etmək üçün istifadə edilən üsulları istifadə edir. Bu texnologiya arasında mexaniki, bioloji və membran əsaslı üsullar daxildir. Əsasən suvarmada tətbiq olunan üsullar eləcə sahəsinə görə ayırsaq bu belə olar. Damla və mikro-suvarma sistemləri üçün: Qum filtrləri, xlorlama və UV dezinfeksiya əsas seçimdir. Böyük sahələr üçün: Koagulyasiya, flokulyasiya və mexaniki süzgəclər. Şorlaşma problemi olan torpaqlar üçün: Revers osmoz və pH tənzimlənməsi texnologiyaları. Biz bunun kimi tətbiq edilən təmizlənmə texnologiyaları üçün onuda nəzərə almalıyıq ki, daha müasir və effektiv suvarma sistemləri üçün suyun təmizliyinin təmin olunması vacibdir, çünki suyun keyfiyyəti birbaşa məhsuldarlığa və torpağın sağlamlığına təsir göstərir. Yəni biz ümumi çirklənmiş suların təmizlənmə texnologiyasının innovativ suvarma sistemlərində istifadəsi haqda danışsaq onu deyə bilərik ki, çirklənmiş suların təmizlənmə texnologiyaları innovativ suvarma sistemlərində geniş tətbiq tapır və qlobal miqyasda su qıtlığı problemini həll etmək üçün mühüm vasitə

kimi çıxış edir. Bu texnologiyalar, təkrar istifadə üçün tullantı sularını zərərsizləşdirməklə, kənd təsərrüfatında daha ekoloji və iqtisadi cəhətdən sərfəli suvarma həlləri təqdim edir. Xüsusilə quraq bölgələrdə, təmizlənmiş tullantı suyu torpağın məhsuldarlığını qoruyaraq davamlı kənd təsərrüfatına töhfə verir. Revers osmoz, elektrokoagulyasiya və ultrafiltrasiya kimi membran texnologiyaları, suyun duzlu və ya ağır metallar kimi zərərli maddələrdən təmizlənməsində əsas rol oynayır. Bu, torpağın şorlaşmasının qarşısını alır və məhsulun keyfiyyətini artırır. UV dezinfeksiya və xlorlama texnologiyaları mikro-bioloji çirkləndiriciləri zərərsizləşdirərək, suvarma sistemlə-rində gigiyenik şəraiti təmin edir və bitkilərin xəstəlik riskini azaldır. Bioloji təmizləmə üsulları, məsələn, süni bataqlıqlar və ya aerob reaktorlar, üzvi çirkləri parçalayaraq, tullantı sularının ekoloji cəhətdən təmiz şəkildə yenidən istifadəsini mümkün edir. Bu texnologiyalar, həm də azot və fosfor kimi bitkilərin böyüməsinə dəstək verən qidalandırıcı maddələrin suda qalmasını təmin edir. Aktiv karbon filtrləri isə suvarma zamanı kimyəvi qalıqların, pestisidlərin və digər zərərli maddələrin sudan çıxarılmasında geniş tətbiq olunur. Təkrar istifadə olunan bu cür təmizlənmiş sular damla suvarma və ya mikro-suvarma sistemlərində boruların tıxanmasının qarşısını alır və avadanlıqların ömrünü uzadır. İnnovativ suvarma sistemlə-rində, məsələn, ağıllı idarəetmə və sensorlarla birləşdirilmiş təmizləmə texnologiyaları, sudan daha səmərəli istifadə etməyə imkan yaradır. Bu sistemlər, suyun təmizliyini daim nəzarətdə saxlayır və lazımi miqdarda suyun verilməsini təmin edir. Çirklənmiş suların təmizlənməsi ilə suvarma arasında inteqrasiya, ətraf mühitin qorunmasına və su resurslarının davamlı istifadəsinə əhəmiyyətli töhfə verir.

Beləliklə, çirklənmiş suların təmizlənmə texnologiyalarının innovativ suvarma sistemlərində tətbiqi, kənd təsərrüfatında

doi.org/10.36719/2663-4619/2024/XVI

məhsuldarlığın artırılması ilə yanaşı, su qıtlığı probleminin həlli üçün də gələcək üçün mühüm perspektivlər yaradır. Bu yanaşmalar həm də iqtisadi sərfəliyini qoruyaraq həm də dayanıqlı inkişaf məqsədlərinə uyğun olaraq həyata keçirilə bilər.

## Ədəbiyyat

1. Bratby, J. (2016). Coagulation and flocculation in water and wastewater treatment. IWA publishing.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 159-163
Scientific Sources XVI Collection of Theses / 159-163
doi.org/10.36719/2663-4619/2024/XVI

**İbrahim Məmmədli**
Azərbaycan Universiteti
magistrant
ibragimmamedov671@gmail.com

# TƏNHA QOCALARIN SOSİAL-PSİXOLOJİ VƏ TİBBİ PROBLEMLƏRİ

***Açar sözlər:*** *tənha qocalar, qocalar evi, sağlamlıq problemləri, sosial problem, psixoloji problem, tibbi problem,*

***Keywords:*** *lonely old people, nursing home, health problems, social problems, psychological problem, medical problems*

Ölkəmizdə tənha, diqqət və qayğıdan uzaq olaraq yaşayanların yalnızlıq sindromundan əziyyət çəkdikləri göz qabağındadır. Təssüfləndirici hal isə budur ki, bu tendensiyada yaşlılar üstünlük təşkil edir. Müəyyən sosial problemlər, övladları və digər ailə üzvləri tərəfindən tərk edilmək, bir sıra psixoloji sarsıntılar onları tənhalığa məhkum edən əsas səbəblərdir (Cankurtaran, Soyuer, Akın, 2015).

Çox zaman televiziyalarda, qəzet və saytlarda, yalnız yaşayanların ölüm xəbərinə rast gəlirik. Hər nə olur olsun, bu tənhalıq onların sağlamlığına da təsirsiz ötüşmür. Tənha yaşayanlarda özünəqapanma olur ki, bu da psixoloji sarsıntılara gətirib çıxarır. Eyni zamanda onlar az hərəkət edir, daha çox oturaq halda nələrləsə məşğul olurlar (Qəhrəmanov, 2020).

Bu gün Azərbaycan dövlətinin xüsusi qayğı göstərdiyi digər bir kateqoriya tənha ahıl insanlardır. Müasir cəmiyyətimizdə sosial dəstəyin və yardımın obyekti kimi qiymətləndirilə biləcək sosial qruplar arasında ilk yerlərdən birini tənha ahıllar tutur. İnkişaf etmiş ölkələrdə son onilikdə

müşahidə olunan tendensiyalardan biri yaşlı əhalinin mütləq sayının artmasıdır. Ümumdünya əhalisi daxilində uşaqların və gənclərin azalması və yaşlıların nisbətinin artması kimi davamlı, olduqca sürətli bir proses gedirgedir (Qəhrəmanov, 2020).

Tənha yaşayan yaşlı insanlarda sosial problemlər həmin yaşlıların həyat şəraitinə böyük təsir edir. İqtisadi problemlər, texnoloji irəliləyişlər; fərd həyatına təsirlidir, uşaqların evdən ayrılması, pensiya və s. vəziyyətlərdə yaşlılarımızın cəmiyyətə uyğunlaşmasına təsir edər. Orta hesabla hər gün dəyişən ictimai həyat şərtləri, fiziki və ruhi çətinlikləri olan yaşlılarımızın ictimai yaşamdada çətinliklər yaşamasına səbəb olur. Sağlamlıq xərcləri və pensiya iqtisadi çətinlik, uşaqların evdən ayrılması, yaxın qohumlarının və ya dostlarının ölümü yalnızlığa səbəb olur (Dəmirbağ, Timur, 2012).

Yaşlıların yaşadığı sosial problemlərin başında; ailə quruluşundakı dəyişikliklər, təklik, sığınma problemləri, rol itkisi və nəqliyyat kimi faktorlar gəlməkdədir. Dəyişən həyat şərtləri, cəmiyyət quruluşunun yanında, ailə quruluşunu da dəyişdirməkdədir. Şəhərlərdə, ailə həyatında yaşlılara yer verilmir. Bu vəziyyət, özlərini yalnız və işə yaramaz hissədən yaşlıların psixoloji istiqamətdən köhnəlməsinə səbəb olaraq, qalan ömürlərini çətinləşdirməkdədir.Təqaüdçü olduqdan sonra, gəlirin azalması və yaşanan maddi problemlər, ictimai çətinlikləri yaradarkən, yaşlının məhdudlaşdırılmış olması və evdə baxım zərurətləri da, özünü yük olaraq görməsinə və bunun nəticəsi olaraq da, bədbəxtliyə və depressiyaya girməsinə səbəb olmaqdadır. Fiziki müqavimət və maddi gəlirin azalması, yaşlıların sosial həyata daha az qatılmalarına səbəb olarkən, sosial həyatlarını da məhdudlaşdırmaqdadır. Cəmiyyəti meydana gətirən fərdlərin, sevgi, hörmət və xoşgörüş içində edərək, yaşlıların bu dövrlərində həyatdan qopma-

malarını təmin etmək lazımdır (Cankurtaran, Soyuer, Akın, 2015).

Yaşlanma və ya qocalıq insan orqanizmində morfoloji, fizioloji və patoloji mənfi dəyişikliklər tədricən baş verir və nəticədə müxtəlif xəstəliklərlə birləşdirilən insanın fiziki və psixososial vəziyyətinə təsir edən mürəkkəb hadisələr silsiləsidir. Yaşlanma ilə insan orqanizmində baş verən fiziki pozulmalar insanların gündəlik həyatına təsir edir. Bu, onların fəaliyyətinə təsir edəcək bəzi problemlərə də səbəb ola bilər. Bu problemlərdən biri də sidik qaçırma problemidir. Yaşlılarda bu ümumi bir problemdir və təkcə fərdi deyil, həm də bir çox sosial problemlərə səbəb olur. Yaşlılarda sidik qaçırma problemi, depressiyaya, yerimə funksiyasının pozulmasına, yıxılmaya, sosial izolyasiyaya səbəb ola bilər.

Beynəlxalq İnkontinans Assosiasiyasına görə, sidik qaçırma hər hansı bir formada məcburi sidik sızması kimi təyin olunur. Yaşlanmanın bir hissəsi kimi qəbul edilir. Diaqnoz qoyulmasa da, yaşlılarda daha çox rast gəlinir. Cəmiyyətdə yaşayan yaşlılara 8-34% nisbətində təsir edərkən, qocalar evində yaşayanlarda bu nisbət 70% -ə yüksəlir. Xüsusilə qadınlar bu problemi doğuşun və ya yaşın artmasının normal nəticəsi olaraq yaşayırlar.Bunu görsələrdə müalicə üçün həkimə müraciət etmirlər, ya da deməyə utanırlar. Sidik qaçırma tək bir xəstəlik deyil, əsas xəstəliyin əlamətidir (Əzizova, 2015).

Yaşlılarda tibbi problemlərdə özünü çox göstərir. Yaşlıların tibbi ləvazimatları əldə edə bilməməsi, dərmanların istifadə qaydalarını bilməməsi, sağlamlığına ziyanlı olan vərdişlərin və ya qidaların qəbul olunması, sağlam yaşaması üçün onun məişət problemlərinin həll olunmaması, xətəliklərin artması, özünü büruzə verməsi və s tibbi problemlərə aiddir. Həmçinin bu tibbi problemlərin qarşısı alınmayanda sosial və psixoloji

problemlərin çoxalmasına gətirib çıxarır (The Effect of Loneliness in the Elderly Population: A Review, 2016).

Demoqrafik göstəricilərə nəzər salsaq, görərik ki, 65 yaşdan yuxarı insanların sayı artıb. Digər tərəfdən, bu yaş qrupundakı insanlarda xroniki xəstəliklər daha çox olur. Ürək-damar, dayaq-hərəkət, yuxarı tənəffüs yolları, endikrinoloji və s. xəstəliklərə yaşlı insanlarda daha sıx rast gəlinir. Yaşlı insanların əksəriyyəti şəkər xəstəsi kimi qeydiyyatdadırlar. Əksəriyyəti təcili tibbi yardıma tez-tez müraciət edir. Yəni bu yaş qrupu üzrə təcili tibbi yardım çağırışları ildən-ilə artır. Bu səbəblər qeyd etdiyimiz qrup əhaliyə daha xüsusi diqqət göstərilməsini vacib edir. Psixi və fiziki sağlamlıq problemləri də yuxuya mane ola bilər. Depressiya, narahatlıq, ürək-damar xəstəlikləri, diabet, ağciyər xəstəlikləri, ağrıya səbəb olan problemlər də yaşlıların yuxu prosesini poza bilir (Cankurtaran, Soyuer, Akın, 2015).

Yaşlılarda öyrənmə və xatırlama kimi problemlərdə özünü göstərir. Öyrənmə və xatırlama funksiyalarını icra edən yaddaş olduqca kompleks bir sistemdir. Yaşlanma bu kompleks sistemin bəzi qisimlərini daha çox təsir edər. İnsan uşaqlıqda öyrəndiklərini vəyaşadıqlarını asanca xatırlaya bilirkən, bir neçə gün əvvəl yaşadıqlarını xatırlamaqda çətinlik çəkər. Unutqanlıq depressiya, demans kimi ruhi xəstəliklərin ən əhəmiyyətli əlamətlərindən biridir. Unudulanlar (adlar, telefonlar, ediləcək işlər, əşyaların qoyulduğu yerlər kimi) yaşlı insanların gündəlik həyatlarında, ətraf mühitləri ilə münasibətlərində çətinliklər yaradır. Bəzi zaman unudulan hadisələrə bəhanələr ya da yerinə başqa xəyali hadisələr uydurulur. Öyrənmə və xatırlama probleminin səbəbləri ortaya qoyularaq zamanında edilən tibbi yardım bu şikayətlərin formalaşıb oturmasının qarşısını alır (7; 8).

doi.org/10.36719/2663-4619/2024/XVI

## Ədəbiyyat

1. Dəmirbağ, B. C., Timur, M. (2012). Bir qrup yaşlı insanın narkotikdən istifadə ilə bağlı bilikləri, münasibəti və davranışları. Ankara sağlamlıq xidmətləri jurnalı.
2. Qəhrəmanov, A. (2020). Elmi əsərlər. Azərbaycan Turizm və Menecment Universiteti.
3. Əzizova, X. (2015). Elmi əsərlər, Zülfiyyə Tağıyeva. Azərbaycan Dillər Universiteti.
4. Cankurtaran, F., Soyuer, F., Akın, S. (2015). Huzur evinde kalan yaşlıların idrar kaçırma problemi ve mobilite ile ilişkisi; Gümüşhane Üniversitesi Sağlık Bilimleri Dergisi / Gümüşhane University Journal of Health Sciences.
5. Social and Health Problems of the Elderly. (2007). Ljiljana Pesic.
6. The Effect of Loneliness in the Elderly Population: A Review. (2016). James Alexander Crewdson; Imperial College London, London, UK.
7. https://sherg.az/arxiv/25916.
8. https://unikal.az/news/12275/kimsesiz-qocalar-ve-atilmis-ahillar

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 164-167**
**Scientific Sources XVI Collection of Theses / 164-167**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Həmid Səfərov**
Azərbaycan Dövlət Aqrar Universiteti
bakalavr
hemidsafarov@gmail.com

# TİBB BACILARININ PEŞƏ XƏSTƏLİYİ: "ŞƏFQƏT YORĞUNLUĞU"

***Açar sözlər:*** *tibb bacısı, şəfqət yorğunluğu, post-travmatik stress pozuntusu, tükənmişlik, empatiya*
***Keywords:*** *nurse, compassion fatigue, post traumatic stress disorder, burnout, empaty*

Şəfqət yorğunluğu iki insan arasındakı qayğının təbii nəticəsi olaraq meydana çıxır. Təəssüf ki, bu sindrom (belə demək olarsa) tibb bacıları tərəfindən öyrənilməyib. Bunun nəticəsi olaraq əksər tibb bacıları bu sindromdan əziyyət çəkdiyi halda onun təsirləri ilə mübarizə aparmağa cəhd etmir.

Bu anlayış bəzən ikincili travmatik stress (STS-secondary traumatic stress) və tükənmişlik halları ilə eyni müstəviyə qoyulub, onların sinonimi hesab edilsə də, "şəfqət yorğunluğu" daha çox xəstə məmnuniyyəti və təhlükəsizliyi ilə bağlı olduğuna görə bu anlayışa tibb işçilərinə xas bir anlayış kimi baxmaq vacibdir.

Tibb bacılarının səhiyyə sektorunda yeri çox əhəmiyyətlidir. Çünki onlar xəstələrin daimi kompleks ehtiyaclarını, rahatlıqlarını təmin etməklə məşğuldurlar. Buna görə də "şəfqət yorğunluğu" diqqətəlayiq mövzu hesab edilməlidir.

"Şəfqət" anlayışı özlüyündə digər insanların dərdlərinə, ağrılarına və kədərlərinə diqqət yetirmək və onların çətin vəziyyətlərində onlara kömək etmək istəyidir. Bu davranışı həyata keçirmək üçün insanın "empatiya" adlanan hissə

**doi.org/10.36719/2663-4619/2024/XVI**

ehtiyacı var. Xəstə insanların onlara qarşı empatiya duyulması hissinə digər insanlardan daha çox ehtiyacları vardır. Nəzərə alsaq ki, pasiyent və onun yaxınları ilə mütəmadi kontakda olan tibb sektorunun nümayəndələri tibb bacılarıdır, deyə bilərik ki, xüsusilə tibb bacıları empatiya mövzusunda çox həssas olmalıdır.

Şəfqət yorğunluğu tükənmişliklə eyni əlamətlərə sahib olsa da, yaranma səbəbləri fərqlidir. Belə ki, şəfqət yorğunluğu xüsusi olaraq həkim və tibb bacılarının yaşadığı tükənmişlik halını ifadə edir. Hansı ki, bu hal pasiyentlər və onların qohumlarından qaynaqlanır və ruhi, fiziki, sosial və psixoloji tükənmişliklə nəticələnir.

Mooli Lahada görə şəfqət yorğunluğuna travma sonrası stress yaşayan pasiyentlərlə çalışan tibb personalında daha çox rast gəlinir. Xülasə, şəfqət yorğunluğu pasiyent və onun yaxınlarının tibb işçisi üzərində yaratdığı psixoloji travmadır. Bu hal tibb bacısının iş keyfiyyətinin aşağı düşməsi ilə nəticələnir.

Siedine Knobloch Coetzee-yə görə şəfqət yorğunluğu nəticəsində fərdlərdə sosial, fiziki, emosional, əqli və mənəvi dəyişikliklərin baş verməsi halları müşahidə edilir. Fərdlərdə şəfqət yorğunluğunun fiziki əlamətləri yorğunluq, güc itkisi və performansın azalmasıdır. Emosional simptomlara depersonallaşma, istəksizlik, tükənmişlik, əsəbilik və emosional yük daxildir. Sosial simptomlara isə apatiya və laqeydlik aiddir.

Şəfqət yorğunluğu tədricən mərhələli şəkildə baş verən prosesdir. Bu mərhələlər aşağıdakılardır:

1. Şəfqət diskomfortu
2. Şəfqət stressi
3. Şəfqət yorğunluğu

İkincili Travmatik Stress Pozuntusu (İTSP) ilə şəfqət yorğunluğunun bir sıra oxşar cəhətləri mövcuddur. Belə ki, İTS

travma yaşamış fərdlərə yardım etmək, ya da yardım etmək istəyi nəticəsində ortaya çıxır. Şəfqət yorğunluğu isə tibb bacılarının pasiyentlərin uzunmüddətli, sıx və davamlı qayğısı, öz-özünə gərginlik və stresslərinə məruz qalması nəticəsində yaranır. Belə başa düşülür ki, "İkincili Travmatik Stress" şəfqət yorğunluğunu ifadə etdiyi halda, "İkincili Travmatik Stress Pozuntusu" bu vəziyyətin bir növ xronikiləşmiş halını göstərir.

Hər iki hal aradan qaldırılmadığı zaman daha şiddətli simptomlara səbəb olan, irəliləyən və kumulyativ bir dövr meydana çıxır. Nəticədə həm İTS, həm də İTSP tibb bacılarının iş bacarıqlarının dəyişməsinə səbəb olur. İTSP-də bu dəyişikliklərin əsas hissəsi tibb bacısının travma təcrübəsi və PTSP (Posttravmatik Stress Pozuntusu) simptomlarına sahib olmasıdır.

Şəfqət yorğunluğunda isə bu dəyişikliklər tibb bacısının həyatının hər aspektinə təsir edir və ən seçilən təsirinin də zamanla xərcləmiş olduqları mərhəmət enerjisinin tükənməsi nəticəsində pasiyentlərə mərhəmətli davranmamaqlarıdır.

Şəfqət yorğunluğunun səbəblərindən ən öndə olanı tibb bacılarının xəstələrə normadan artıq yardım etmək istəyidir. Brenda Sabo tibb işçiləri üçün empatiyanı iki ucu kəskin bir bıçağa bənzədir və empatiya bacarığının professional sərhədlər daxilində istifadəsini tövsiyyə edir. Professional sərhədlər aşıldığında empatiyanın tibb işçisi üçün zərərverici olduğunu ifadə edir.

*Tibb bacıları empatiya mövzusunda yeni fərqindəliklər qazanmalı və empatiyanın kiminsə dərdini sahiblənmək deyil də, həmin insanın problemini anlayıb ona öz potensialı səviyyəsində yardım etmək olduğunu nəzərə almalıdırlar (müəllif).*

B.H.Stammın tədqiqatları göstərdi ki, tibb bacılarının xəstələrə daha yaxşı xidmət göstərməyə çalışması bəzi hallarda bir tərəfdən də "şəfqət məmnuniyyəti (compassion satisfaction)" adlanan anlayışın ortaya çıxmasına səbəb ola bilər. Bu hal şəfqət yorğunluğu riskini tarazlaşdıran faktor kimi hesab edilir. Belə ki, bu hal tibb bacıları tərəfindən başqalarına şəfqət göstərməyin psixoloji mükafatı kimi qiymətləndirilir.

Şəfqət məmnuniyyəti tibb bacılarına şəfqət və tam bacarıqla göstərilən qayğının mükafatı olaraq xəstələrin daha az əziyyət çəkdiyini və yaxşılaşdığını görmək imkanı verir və bu zaman tibb bacıları özlərini enerjili və dolğun hiss edir. Bu vəziyyətdə onlar yüksək əhval-ruhiyyə ilə iş başında olmaq və şərtlərindən asılı olmayaraq xəstə ehtiyaclarını qarşılamaq üçün həvəslə çalışırlar.

Şəfqət məmnunluğu bir anlayış olaraq şəfqət yorğunluğunun tam əksini ifadə edir. Şəfqət məmnuniyyətində tibb bacıları, vəziyyətlərindən asılı olmayaraq xəstələri ilə əlaqələr qurur, bu da tibb bacıları və xəstələr arasında mənalı və məqsədyönlü qarşılıqlı əlaqəyə səbəb olur.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 168-171
Scientific Sources XVI Collection of Theses / 168-171
doi.org/10.36719/2663-4619/2024/XVI

**Təhminə Həsənzadə**
Azərbaycan Universiteti
bakalavr
tahmina.hasanzada@student.au.edu.az

# OBSESSİV-KOMPULSİV POZUNTUNUN YARANMA SƏBƏBLƏRİ VƏ MÜALİCƏ METODLARI

***Açar sözlər:*** *obsessiv düşüncələr, kompulsiv davranışlar, OKP müalicəsi, psixiatrik diaqnoz*

***Keywords:*** *obsessive thoughts, compulsive behaviors, OCD treatment, psychiatric diagnosis*

Bir çoxumuz gündəlik həyatda narahat edici düşüncələr yaşayırıq, məsələn, “Qapını bağladım mı?” və ya “Əlim çirklənər”. Bu cür düşüncələr həyatımızı çətinləşdirir. Bəzi insanlar “Əlim çirklidir” deyə saatlarla əllərini yuyurlar, lakin bu, təmizkarlıq deyil, psixi pozuntunun əlamətidir. Obsessiv-kompulsiv pozuntu (OKP) nevrotik sindromlar qrupuna aid psixi xəstəlikdir və xroniki hal ala bilər. OKP-də insanlar iradələrinə zidd düşüncələrdən əziyyət çəkir və bu düşüncələri aradan qaldırmaq üçün təkrarlanan davranışlar edir. Lakin, bu hərəkətlər daha da pis nəticələrə səbəb ola bilər və xəstələrdə stress və dezadaptasiya yaradır. OKP xəstələri şübhələrini təkrarlayaraq vaxt itirir və həyatlarına mənfi təsir göstərir (4).

Obsessiya nədir? Obsessiya, fransız dilində “Beyinə girmiş və çıxmayan fikir” mənasını verir. Bu, qeyri-iradi, narahatlıq yaradan, stressə səbəb olan və iradə ilə uzaqlaşdırıla bilməyən təkrarlanan düşüncələrdir. Ən çox rastlanan obsessiyalar arasında infeksiya yoluxma qorxusu, mənəvi və dini qadağaları pozma və ya cinsi davranışlarla bağlı narahatlıqlar yer alır.

Kompulsiya nədir? Obsessiv düşüncələri qovmaq və bu düşüncələrin yaratdığı narahatlığı azaltmaq üçün edilən və istəmədən təkrarlanan hərəkətdir. Məsələn: "Əllərim çirklidir" deyə düşünən şəxs əllərini saatlarla yuyur.Adətən kompulsiv hərəkətlər obsessiyalara cavab reaksiyası kimi ortaya çıxır (2).

Obsessiv-kompulsiv pozuntuya kimlərdə rast gəlinir? OKP hər yaşda inkişaf edə bilər, amma ən çox 19-30 yaş arasında görülür və uşaqlarda da rast gəlinir. Qadınlarda kişilərə nisbətən daha çox yayılır. Əhalinin 80%-i zaman-zaman obsesiv fikirlər yaşayır, amma klinik OKP nadir hallarda təsdiqlənir. 18 yaşdan yuxarı qadınlarda daha çox müşahidə olunur, kişilərdə isə erkən yaşlarda başlayır. 15 yaşa qədər uşaqlarda OKP-nin yaranma ehtimalı 0.25%-dir. OKP sosial-iqtisadi vəziyyətdən asılı deyil. Müalicəsiz sağalma ehtimalı yalnız 20%-dir, 50%-də xəstəlik davam edir, 25%-də isə epizodik xarakter alır. OKP-nin ağır formalarında intihar düşüncələri və cəhdləri müşahidə olunur.

OKP-nin yaranma səbəbləri. Obsessiv-kompulsiv pozuntu davranışların səbəbi tam bilinməsə də bioloji amillərin və ətraf-mühit faktorlarının mühüm rol oynadığı düşünülür.

Ətraf mühit faktorları. İnsanın sosial mühitində və ailə mühitində yaşadığı stress onun həyatının inkişafına təsir edə bilər. İnsan həyatında baş vermiş köklü dəyişikliklər, damğalanmaq, sevdiyin birini itirmək və ya insanlarla münasibətdə yaranmış problemlər, ciddi dini ailə tərbiyəsi, həddən artıq stress, neqativ emosionallılıq OKP –yə səbəb olan amillərdəndir. Bütün bu səbəblərdən biri də uşaq yaşdakı travmalar və şəxsiyyət növüdür (İsmayılov, 2013).

Xarakter olaraq təmiz, mükəmməlliyətçi, qayda-qanuna zidd əməl edən və.s şəxslər OKP-yə meyilli şəxslər kimi qiymətləndirilir (3).

Bioloji faktorlar. Beyin normal funksiyaları yerinə yetirmək üçün neyron adlı sinir hüceyrələrinə ehtiyac duyur. Neyrotransmitterlər - elektrik siqnalları və əlaqəli neyronlar arasında məlumat mübadiləsini təmin edən kimyəvi materiallardır (4).

Obsessiv-kompulsiv pozuntunun növləri. Obsessiv-kompulsiv pozğunluğun müxtəlif növləri vardır və hər biri fərqli əlamətlərlə xarakterizə edilir:

Obsessiyalar:

Çirklənmə obsessiyaları

Şübhə obsessiyaları

Simmetriya obsessiyaları

Cinsi düşüncə obsessiyaları

Aqressivlik obsessiyaları

Somatik obsessiyalar

Dini obsessiyalar.

Kompulsiyalar aşağıdakı kimi təsnif edilə bilər:

Təmizlənmə kompulsiyaları

Nəzarət kompulsiyaları

Təkrarlama kompulsiyaları

Psixi kompulsiyalar

Fiziki kompulsiyalar

Müalicəsi. Obsessiv-kompulsiv pozuntunun diaqnozu üçün xüsusi laboratoriya testləri mövcud deyil. Xəstənin davranışları psixiatr tərəfindən izlənir və simptomlar əsasında diaqnoz qoyulur. Erkən diaqnoz, müalicənin uğurlu olması üçün vacibdir. OKP müalicəsi iki əsas üsul ilə aparılır: medikamentoz üsul və psixioterapiya.

- Medikamentoz üsul
- Koqnitiv davranış terapiyası (2).

Nəticə olaraq qeyd etmək olar ki, OKP nevrotik sindromlar qrupuna aiddir və həm irsi, həm də travmalar və həyat hadisələri nəticəsində inkişaf edə bilər. Sağlam insanlar da

doi.org/10.36719/2663-4619/2024/XVI

bəzən şübhələr və eyni davranışları yaşaya bilərlər, amma OKP xəstələri daim narahatlıq içində olur və etdikləri hərəkətlər həyatlarını mənfi şəkildə təsir edir. Sağlam insanlar isə bu şübhələri unudur və narahatlıq hissi yaşamırlar.

**Ədəbiyyat**

1. İsmayılov, N. (2013). “Psixiatriya”. Bakı.
2. Dr. Bruce M.Hyman Cherry Pedrick “Obsesif kompulsif bozukluk”.
3. Dr. H. Karaosmanoğlu “ Eyvah!  Kötü bir şey olacak”.
4. Prof.Dr.Sedat Özkan “Obsesif Kompulsif Bozukluk (saplantı – zorlantı bozukluğu) Takıntı hastalığı”.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 172-175
Scientific Sources XVI Collection of Theses / 172-175
doi.org/10.36719/2663-4619/2024/XVI

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**İsa Hüseynov**
Lənkəran Dövlət Universiteti
kimya üzrə fəlsəfə doktoru
isabey57@gmail.com
**Nisə İsayeva**
Lənkəran Dövlət Universiteti
magistrant
niseisayeva50@gmail.com

# “KİMYƏVİ PROSESLƏRDƏ REAKSİYA MÜHİTİ, ŞƏRAİTİ VƏ XARİCİ TƏSİR ANLAYIŞLARI ÜZRƏ BİLİKLƏRİN FORMALAŞMASI”

***Açar sözlər**: kimyəvi reaksiya, reaksiya mühiti, reaksiya şəraiti, reaksiya şərti, xarici təsir, səbəb*
***Keywords:** chemical reaction,reaction medium, reaction conditions, reaction condition, external influence, cause*

Kimyanın öyrənilməsində təhsilalanlar müəyyən kimyəvi anlayışlarla, məs., reaksiya mühiti, reaksiya şəraiti, reaksiya şərti və reaksiyaya xarici təsirlər kimi çox işlənən ifadələrlə qarşılaşırlar. Onlar bu ifadələrin mahiyyətində nələr olduğunu, daşıdıqları məna yükünün nədən ibarət olması haqqında da biliklərə sahib olmalıdırlar. Çünki onlar tədrisin gedişində görürlər ki, bir maddə digər maddə ilə iki müxtəlif şəraitdə müxtəlif maddələr əmələ gətirə bilirlər və bu hadisə həqiqətən də elmi cəhətdən maraq doğuran kimyəvi hadisələr içərisində yer alır.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Məlum olduğu kimi cisim və hadisələr digər cisim və hadisələrdən izolə edilmiş şəkildə mövcud deyildir və buna görə də bir-biri ilə qarşılıqlı təsidə ola bilirlər. Bu xarici qarşılıqlı təsirin nəticəsi kimyəvi proseslərdə zəruri reaksiya şərait, zəruri reaksiya şərti qismində çıxış edir.

***Kimyəvi reaksiyalarda reaksiya şəraiti və şərti anlayışları.*** Kimyəvi prosesin yaranması və sonrakı inkişafı üçün reaksiyaya daxil olan maddələrin birbaşa təmasda, qarşılıqlı təsirdə olması vacib şərtlərdən birdir. Bəzən də bu kifayət etmir və əlavə təsirləri zəruri edir. Məs., dəmirin kükürdlə reaksiyaya daxil olması üçün onların təkcə təması, toqquşmaları kifayət etmir. Dəmirlə kükürdün xırdalıq dərəcəsindən və qarışdırılma intensivliyindən asılı olmayaraq onların arasında bu şəraitdə qətiyyən reaksiya baş vermir. Buna görə də kimyəvi reaksiyanın gedişinə təsir edən müxtəlif parametrlərdən-temperatur, təzyiq, qatılıq və katalizatordan istifadə etməklə, yaranmış vəziyyəti dəyişmək mümkündür. Bizim bu misalımızda konkret olarar temperatur parametrindən istifadə etsək, yəni qarışığa əlavə istilik verməklə reaksiya şəraitini dəyişə, kükürd lə dəmirin reaksiyasını apara bilərik.

Bəzi reaksiyalarda isə başqa parametrlərdən istifadə edərək lazımi nəticələri əldə etmək mümkündür. Ammonyakın alınma prosesində sintez qülləsində azot və hidrogen qarışığını qızdırmaqdan əlavə, prosesdə reaksiyanın sağa- ammonyakın alınması istiqamətinə dönməsini təmin edən yüksək təzyiq və eyni zamanda katalizator tətbiq edilir. Yalnız bu şəraitdə reaksiyanı başa çatdırmaq mümkün olur. Ona görə də qeyd etməliyik ki, reaksiya şəraiti kimyəvi reaksiyanın aparılmasında əsas və mühüm rol oynayır.

***Reaksiya şəraiti və ya şərti*** özü nə deməkdir, hansı anlamı daşıyır? Müxtəlif hərəkət formasında olan cisim və hadisələr bir-biri ilə sıx bağlı olaraq bir-birinin mövcudluğuna imkan

doi.org/10.36719/2663-4619/2024/XVI

yaratmasına baxmayaraq, hər hansı iki cismin qarşılıqlı mömcudolması hər ikisi üçün eyni olmaya bilər. Belə ki, bu iki cisimdən biri digəri olmadan mövcud ola bilər, lakin digəri birinci olmadan mövcud ola bilməz. Açıq hiss etdiyimiz bu movcudolma amilində adı keçən *“şərait”, “şərt”*anlayışı kimi qəbul edilməlidir. Başqa sözlə desək, iki cisim var və bu iki cisimdən biri digərinin mövcudolma səbəbidir və birinci cisim olmasa ikinci cisim də olmaz. Bununla da, demək olar ki, ikinci cismin mövcud olması üçün məhz birinci cismin olması vacibdir və bu birinci cisim ikinci cismin mövcud olması üçün əsas *“şəraiti”, “şərti”* ifadə edir. Kimyada kimyəvi reaksiyaların şəraitləri sırasına əsasən aşağıdakılar daxildir: başqa maddələrin təsiri; temperatur; təzyiq; qatılıq; həcm; işıq şüası; radioaktiv şüalanma; katalizator; inisiator və s. .

Əhəmiyyət dərəcəsinə görə şərait eyni olmur. *Zəruri, kifayət etməyən, kifayət edən, həddən artıq kifayət edən şərait anlayışları* mövcuddur. Məsələn, $KClO_3$ Betolle duzundan oksigenin alınması üçün zəruri olan və kifayət edən şərait duzun qızdırılmasıdır. Kalsium karbontı $CaCO_3$ parçalyaraq ondan karbon qazının $CO_2$ alınması prosesi kifayət edən, lakin zəruri olmayan proseslər sırasına daxildir. Çünki kalsium karbonatı qızdırıb yandırmaqla onun parçalamaq və karbon qazı almaq olar. Burada məqsəd karbon qazının alınmasıdır və onu başqa yolla da məs., kalsium karbonata hidrogen xloridlə təsir etməklə də onu almaq olar.

***Kimyəvi reaksiyalarda şərait və səbəb.*** Kimyəvi proseslərdə şəraitlə səbəbi qarışdırmaq olmaz. Şərait daha geniş anlayış olduğu halda, səbəb isə dar çərçivədə qavranılır. Elə hallar mövcuddur ki, bu iki anlayış üst-üstə düşür. Səbəb şəraitdən yaranır və buna görə də şərait və səbəbin təsiri eyniqiymətli deyildir. Bunları bir-birindən ayırmaq da bəzən mümkün olmur. Kimyəvi prosesin gedişi, maddənin dəyişməsi

**doi.org/10.36719/2663-4619/2024/XVI**

həm səbəblə, həm də şəraitlə birgə baş verir və demək olar ki, şərait rabitələri parçalamaqla molekulları dissosiyasiya edərək yeni rabitələr yaradır və onunla birgə yeni reaksiya məhsullarının əmələ gəlməsini təmin edir.

***Xarici şərait***. Kimyəvi proseslərdə "*xarici şərait*" adlanan bir ifadə də var. Bu terminin dönər kimyəvi proseslərdə roluna nəzər salmaq yerinə düşər. Sadə bir reaksiyaya- suyun hidrogen və oksigendən yaranması reaksiyasına nəzər salaq:

$$2H_2 + O_2 \leftrightarrow 2H_2O + 137kkal$$

Bu reaksiya yalnız qızdırılmaqla gedir və temperaturun yüksəlməsi ilə suyun alınması istiqamətindəki reaksiyanın sürəti yüksəlir. 600-1000$^0$C-də partlayışla, ani olaraq baş verir. Daha sonra temperaturun 4000-5000$^0$C-yə yüksəldilməsi ilə alınmış su yenidən ani olaraq partlayışla oksigenə və hidrogenə parçalanır. 2000-4000$^0$C arasında həm qaz halında oksigen və hidrogen molekulları, həm də buxar halında su molekulları mövcud olur. Burada dinamik tarazlıq yaranır. Bu tarazlıqda - suyun parçalanması və alınmış oksigen və hidrogenlə yenidən qarşılıqlı təsirindən suyun alınması- öz mövcudluğunu saxlaya bilir. Birləşəmə reaksiyaları və suyun alınması ilə paralel olaraq parçalanma reaksiyaları və ilkin qaz halında oksigen və hidrogenin alınması ilə tarazlığın dəyişməsinə gətirib çıxaran hadisə kənar təsirlərin olmasıdır və bu da tarazlıq şəraitinin dəyişilməsinə səbəb olur. Xarici şərait qismində temperatur, təzyiq və qatılıqdan istifadə etməklə tarazlığı istədiyimiz səmtə yönəldə bilərik.

Xarici şəraitin dəyişdirilməsi ilə daxili şəraitin dəyişdirilməsinə nail olmaq mümkündür. Müəyyən bir şərait seçməklə ziddiyyətli tərəfin birini söndürmək, heçə endirməklə, digər tərəfi yüksəltmək olar. Bütüm bunlar haqqında ətraflı biliklərə sahib olan təhsilalanlar kimyəvi prosesin idarə edilə bilməsini anlayırlar.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 176-178**
**Scientific Sources XVI Collection of Theses / 176-178**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Ramiz Şəmmədov**
Lənkəran Dövlət Universiteti
biologiya üzrə fəlsəfə doktoru

rsammadli@gmail.com
**Mehriban Qüvvətli**
Lənkəran Dövlət Universiteti
magistrant
quvvetlimehriban@gmail.com

# LƏNKƏRAN-ASTARA İQTİSADİ RAYONUNDA MÜXTƏLİF MƏNŞƏLİ TULLANTILAR İLƏ ÇİRKLƏNMİŞ TORPAQLARIN EKOLOJİ VƏZİYYƏTİ

***Açar sözlər:*** *Lənkəran-Astara iqtisadi rayonu, Ekoloji problemlər, Ətraf mühitin qorunması, Ekosistemin deqradasiyası, Kənd təsərrüfatı sahələri*

***Keywords:*** *Lankaran-Astara economic district, Environmental problems, Environmental protection, Ecosystem degradation, Agricultural fields*

Müasir dünyada ətraf mühitin mühafizəsi ilə sənayenin inkişafı arasında tarazlığın yaradılması uğurlu iqtisadi inkişafın mühüm şərti kimi onun əhəmiyyətini artırır. Lənkəran-Astara İqtisadi rayonu Azərbaycanın cənubunda strateji əhəmiyyətə malik bir ərazidə və respublikamızın kənd təsərrüfatı məhsulları ilə təminatında böyük rolu vardır. Bu rayon zəngin təbii ehtiyatlara malik olmaqla yanaşı, torpaq münbitliyinə görə fərqlənir. Bu fəaliyyət kənd təsərrüfatı məhsullarının istehsalı baxımından əhəmiyyətli olsada, torpaqların çirklənməsinə gətirib çıxarmışdır. Aparılan müşahidələr və təhlillər göstərir ki, Lənkəran-Astara İqtisadi rayonunda torpaqların çirklənməsi

**doi.org/10.36719/2663-4619/2024/XVI**

ciddi problemdir. Bu çirklənmənin səbəbləri sırasına sənaye sahələrinin genişlənməsi, sürətlə urbanizasiya, turizm fəallığının artması, kənd təsərrüfatının elmi əsasları olmadan genişləndirilməsi, məişət tullantılarının düzgün idarə olunmaması aiddir. Bu amillər torpaqların təbii quruluşunun və bioloji müxtəlifliyin azalmasına səbəb olur.

Torpağın çirklənməsinin təsirlərindən biri onun ətraf mühitə və insan sağlamlığına göstərdiyi təsirdir. Zəhərli kimyəvi maddələrin torpağa nüfuz etməsi su və hava təchizatını pozmaq üçün potensial risk yaradır. Bu, risk isə uzun müddət ərzində formalaşmış yerli ekosistemlərin zədələnməsi, cəmiyyətdə təbii bitki və heyvanların məhdudlaşması, insanların sağlamlığı üçün ciddi təhlükə yaradır.

Torpaqların çirklənməsinin qarşısının alınması və çirklənmiş torpaqların bərpa olunması üçün bu tədbirlərin görülməsi vacibdir. Davamlı monitorinqlər həyata keçirməklə, torpaqların ekoloji vəziyyətinin öyrənilməsi zəruridir. Bu monitorinqlər torpaqların ekoloji vəziyyəti haqqında bizə məlumat verməklə, onun mühafizə olunması üçün zəruri tədbirlərin həyata keçirilməsinidə asanlaşdıracaqdır. Bundan sonra müəyyən texniki tədbirlər həyata keçirməklə torpaqların çirklənməsinə səbəb olan bir sıra amillərin aradan qaldırılması mümkün olacaqdır. Eyni zamanda ictimai maarifləndirmə tədbirlərinin planlaşdırılması və sistemli həyata keçirilməsi çirklənmənin müəyyən qədər qarşısının alınmasına köməklik göstərəcəkdir. Ən önəmli məsələlərdən biri də məişət tullantılarının düzgün toplanması, çeşidlənməsi, təkrar emala cəlb edilməsi, yəni tullantıların idarə edilməsidir. Bunun üçün yoxlanılmış modellər vardır ki, onlardan biri bu iqtisadi rayonda da tətbiq oluna bilər.

Torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılması üçün iqtisadi rayonun ərazisində yerləşən sənaye müəssisələrində

**doi.org/10.36719/2663-4619/2024/XVI**

monitorinqlər aparıb, onların müasir texnoloji avadanlıqlardan istifadə etməsinə nail olmaq olar. Bu, tullantı materiallarının minimum səviyyəyə endirilməsini, təbii sərvətlərin qorunub saxlanmasını və təbii mühitə zərərin minimuma endirilməsini təmin etməklə ətraf mühitin o cümlədən torpaqların daha az çirklənməsinə gətirib çıxaracaqdır. Elmi əsaslara söykənərək həyata keçirilən monitorinqlər kənd təsərrüfatı müəssisələrinidə əhatə etməlidir. Torpaqların əksər hissəsinin fərdi təsərrüfatlarda olması onlardan tam gücü ilə istifadə olunmasına şərait yaratmışdır. Nəticədə düzgün olmayan istifadə aqrotexniki və aqromelorativ qaydalara əməl olunmayan təbii amillərlə eksponensial asılılıqda torpaqların erroziyası prosesini gücləndirmişdir. Bu məsələləri nəzərə almaqla aparılan elmi araşdırmaların torpaqların ekoloji vəziyyəti müəyyən etməklə onların düzgün və səmərəli istifadə olunmasına şərait yaradacaqdır.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 179-182**
**Scientific Sources XVI Collection of Theses / 179-182**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**İsa Hüseynov**
Lənkəran Dövlət Universiteti
kimya üzrə fəlsəfə doktoru
isabey57@gmail.com
**Könül Əmiraslanova**
Lənkəran Dövlət Universiteti
magistrant
k.amiraslanova@mail.ru

# "KİMYANIN TƏDRİSİNDƏ EKSTRAKSİYA PROSESLƏRİ ÜZRƏ BİLİKLƏRİN FORMALAŞMASI"

***Açar sözlər:*** *efir yağları, ekstraksiya, ekstragent, esktrakt, reekstraksiya, reekstragent, bərk-maye ektraksiyası, maye-maye ekstraksiyası*

***Keywords:*** *essential oils, extraction, extractant, extract, reextraction, reextractant, solid-liquid extraction, liquid-liquid extraction*

Kimyanın tədrisində istifadə edilən əsas tədris metodları və üslublarına, bu bölmədə tətbiq edilən mühüm fiziki-kimyəvi proseslərin-konkret olaraq kimyada maddələrin ayrılmasında, müxtəlif bitkilərin gövdəsi, kökləri və yarpaqlarından insanlar üçün zəruri maddələrin- efir yağlarının və digər faydalı məhsulların çıxarılmasını təmin edən ekstraksiya prosesinin mahiyyətinin açılmasına yönəldilmişdir. Buna görə də kimyada, qida, əczaçılıq və kosmetika sənayesi sahələrində çox geniş şəkildə tətbiq olunan maddələrin ekstraksiya üsulu ilə ayrılması məsələlərinə aydınlıq gətirilmişdir.

Ekstraksiya üzrə biliklərə sahib olmaqla təhsilalanların kimyanı daha dərindən anlamalarına, onun gündəlik məişətimizdə, həyat fəaliyyətimizdə oynadığı rolu dərk etməyə imkan

verir. Bu məqsədlə də bu üsulun mahiyyəti, aparılması qaydaları üzrə təhsilalanlara biliklərin verilməsi məqsəduyğun hesab edilmişdir. Üzvi və ya qeyri-üzvi birləşmələrin həll olmayan qarışıqlardan, qeyri-üzvi birləşmələrin bir-birindən, həmçinin müxtəlif təbiətə malik birləşmələrin bir-birindən ayrılması üçün geniş tətbiq edilən ayırlma üsullarından biri olan ekstraksiya üsulunun obyektləri həm bərk maddələr, həm də mayelərin qarışıqları ola bilər. Ekstraksiya proseslərinin mahiyyətini dərk etmək üçün kimya müəllimi ekstraksiya prosesinin bəzi anlayışlarının ayrı-yrılıqda mahiyyətinə aydınlıq gətirir, ektraksiyanın bəzi anlayışlarının aşağıdakı analitik ifadələrini verir:

***Ekstraksiya:*** Maye və ya bərk fazada həll olmuş bir və ya bir neçə maddənin digər seçici maddə-həlledici, yəni ekstragent vasitəsi ilə ayırılması prosesi *ekstraksiya* adlanır. Sonra daha sadə dildə başqa cür ifadə edərək, *ekstraksiya* əsasən iki faza arasında, bir çox hallarda iki qarışmayan mayelər arasında-adətən su və üzvi həlledici arasında maddənin fiziki-kimyəvi paylanma prosesi və maddələrin uyğun ayrılma, parçalanma və qatılaşdırma üsulunun olması barədə təhsilalanlara biliklər verilir. Bundan sonra pedaqoq ekstraksiya prosesinin aşağıdakı bəzi anlayışlarının mahiyyətini açıqlayır:

***Ekstragent:*** Maye və ya bərk fazada bir və ya bir neçə maddənin ayrılmasını təmin edən seçici maddə- həlledici ekstragent adlanır, yəni maye və ya bərk fazada həll olmuş bir və ya bir neçə maddənin ayrılmasını təmin edən vasitədir.

***Ekstrakt:*** Su fazasından ayrılan ekstraksiya olunan birləşmələri saxlayan üzvi faza *ekstrakt* adlanır.

***Reekstraksiya:*** Üzvi fazadan su fazasına maddə köçürülməsi reekstraksiya adlanır.

***Reekstragent:*** Reekstraksiya üçün istifadə olunan məhlul reekstraqent adlanır.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Bundan sonra pedqoq ekstraksiya prosesinin növləri barəsində məlumat verir. Ekstraksiya prosesinin mürəkkəb qarışığın ayrı-ayrı tərkib hissələrinin hər hansı bir həlledicidə seçici olaraq həll etməklə ayrılması başa düşülür. Ekstraksiyası aparılan maddələr aqreqat halına görə bərk və ya maye fazada ola bilirlər.

Bərk fazanın ekstraksiyasında maye və bərk faza, maye fazanın ekstraksiyasında isə hər iki faza maye halında olur. Əgər maddə qarışığı bərkdirsə, buna bərk-maye sistemində ekstraksiya deyilir.

Maddə qarışığı məhlul halında isə buna maye-maye sistemində ekstraksiya deyilir. Bu məhlul üzərinə su ilə qarışmayan üzvi həlledici əlavə edilir. Həll olan maddə su fazasından üzvi həlledici fazasına keçir. Bu cür ekstraksiya maye-maye ekstraksiya adlanır.

Kimya pedaqoqu bu üsulun nəzəri mahiyyəti barədə təhsilalanlara müəyyən məlumatları çatdırdıqdan sonra maddələrin və mayelərin ayrılması və ekstraksiyası üsulunu ətraflı təsvir edir. Bunun üçün kimya laboratoriyasında ən münasib üsul maddələrin sulu məhlullardan ekstraksiya edilməsi üsuludur. Pedaqoq ekstraksiya prosesində aşağıdakı proseslərin baş verdiyini qeyd edir:

1. Ekstraksiya olunan birləşmələrin yaranması.
2. Su və üzvi fazalar arasında ekstraksiya olunan birləşmələrin paylanması.
3. Üzvi fazada gedən dissosiasiya, assosiasiya və polimerizasiya reaksiyaları.

Pedaqoq ekstraksiya prosesinin aşağıda təsvir olunan bir neçə mərhələdə həyata keçdiyini qeyd edir:

***I Mərhələ***- kimyəvi reaksiya nəticəsində alınmış və əsasən duzlardan ibarət qeyri-üzvi maddələrin su və ya sulu məhlulda həll edilməsi.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 179-182**
**Scientific Sources XVI Collection of Theses / 179-182**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

***II Mərhələ-*** birinci mərhələdə alınmış qarışığa su ilə qarışmayan üzvi həlledicinin əlavə edilməsi.

***III Mərhələ-*** birinci və ikinci mərhələlərdən alınmış qeyri-üzvi və üzvi hissələrin ayırıcı qıfa keçirilməsi ilə qeyri-üzvi hissənin sıxlıqlar fərqinə əsasən üzvi hissədən ayrılmasının təmin edilməsi.

Aparılan ekstraksiya prosesinin fiziki-kimyəvi izahını verərkən pedaqoq maddələrin üzvi və qeyr-üzvi maddələrdən ibarət hissələrə ayrılmasını təmin edən.

**EKSTRAGENTIN-HƏLLEDICININ EKSTRAKSIYA ZAMANI HƏM ÜZVI, HƏM DƏ QEYR-ÜZVI HISSƏDƏ PAYLANA BILMƏSI HAQQINDA TƏHSILALANLARA MƏLUMATLAR VERIR. PEDAQOQ BU HADISƏNIN EKSTRKASIYA PROSESINDƏ BIR MADDƏNIN EYNI ZAMANDA DIGƏR MADDƏLƏR IÇƏRISINDƏ DƏ PAYLANMASININ QANUNAUYĞUN OLMASI YƏNI BU PROSESIN PAYLANMA QANUNU ILƏ NIZAMLANDIĞINI QEYD EDIR.**

Ekstraksiya prosesinin bu şəkildə təhsilalanlara çatdırılması və təcrübi olaraq nümayiş etdirilməsi onlarda eşitdikləri, gördükləri, həyata keçirdikləri və dərk edtikləri hər şeyin-həllediciələrin təbiəti-polyar və ya qeyri-polyar olması, onların nümayəndələri, fiziki-kimyəvi parametrləri barədə öyrəndikləri biliklərin ektraksiya prosesində də özünü doğrultması fikrini qəbul etmələrinə imkan yaradır. Bununla da, onlarda həqiqətən kimya fənninin digər fənlərdən fərqli olaraq təbiət reallılqlarını əks etdirməsi qənaətini gücləndirir, kimyaya olan maraqların obyektiv reallıqlar əsasında formalaşmasını və şahidi olduqları reaksiya təcrübələrinin də bu formalaşma prosesini daha güclü stimullaşdıra bilməsinin danılması mümkün olmayan proses olduğunu göstərir.

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 183-186**
**Scientific Sources XVI Collection of Theses / 183-186**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

**Hüseyn Kazımzadə**
Azərbaycan Dövlət Aqrar Universiteti
huseyn.kazimzada@adau.edu.az
**Həmid Səfərov**
Azərbaycan Dövlət Aqrar Universiteti
bakalavr
hemidsafarov@gmail.com

# PİYLƏNMƏNİN FARMAKOTERAPİYASI

***Açar sözlər:*** *piylənmə, pəhriz, fiziki aktivlik, farmakoterapiya, dərman maddələri*
***Keywords:*** *obesity, diet, physical activity, pharmacotherapy, medicinal substances*

Yaşadığımız dövrün geniş yayılmış sağlamlıq problemlərindən biri də piylənmədir. Passiv həyat tərzi, qeyri-rasional qidalanma, zərərli vərdişlər və müxtəlif xəstəliklər nəticəsində ortaya çıxan piylənmə, həmçinin bir çox xəstəliklərin də meydana çıxmasında əsas amillərdən biridir (Kazımzadə, 2024, s. 72).

Piylənmənin müalicəsi pəhriz (qidadan tamamilə imtina deyil, daha səmərəli və sağlam qidalanma), fiziki aktivlik (piyada gəzmək, üzgüçülük daha effektlidir), fitoterapiya (müxtəlif bitki çaylarından istifadə), farmakoterapiya (kimyəvi dərman maddələrindən istifadə), psixoterapiya (piylənmə psixoloji pozuntular fonunda baş verdikdə) və cərrahi müdaxilə (məcburiyyət olduqda) ilə aparılır.

Bədən kütlə indeksi (BKİ) $\geq$27 olarsa və həyat tərzinin dəyişilməsindən (qidalanma rejimi, fiziki aktivlik və zərərli vərdişlərin dayandırılması) 3 və ya 6 ay sonra nəticə əldə edilməzsə piylənmənin dərman maddələri ilə müalicəsi tələb

doi.org/10.36719/2663-4619/2024/XVI

olunur. Piylənmənin farmakoterapiyası məqsədilə müxtəlif kimyəvi qruplardan olan dərman maddələri istifadə edilir.

Bəzi hallarda müxtəlif xəstəliklərin müalicəsi məqsədilə işlədilən dərman maddələri çəkiyə müxtəlif şəkildə təsir göstərə bilirlər. Belə dərman maddələri haqqında 1 nömrəli cədvəldə məlumat verilmişdir.

**Cədvəl 1. Eyni farmakoloji qrupdan olub, çəkiyə təsir göstərən (artıran və azaldan) dərman maddələri (Arslan, 2023:19)**

| **Farmakoloji qrup** | **Çəkini artıran DM** | **Çəkini azaldan DM** |
|---|---|---|
| Antipsixotiklər | Klozapin, Risperidon, Olanzapin | Ziprasidon, Aripiprazol |
| Antidepressantlar | Sitalopram, Litium duzları, Venlafaksin, Mirtazapin, Paroksetin | Bupropion, Sertralin, Fluoksetin |
| Antikonvulsantlar | Karbamazepin, Qabapentin, Valproatlar | Lamotrijin, Topiramat |
| Antidiabetiklər | İnsulin, Sulfonilsidik cövhəri törəmələri, Tiazolidindionlar | Metformin, Akarboza, GLP 1 (qlükaqonabənzər peptid 1) aqonistləri, DDP IV (Dipeptidil-peptidaza IV) inhibitorları |
| Antihipertenzivlər | α- və β-adrenoblokatorlar | AÇF inhibitorları, kalsium kanalı blokatorları |
| Oral kontraseptivlər | Progesteron | Levonorgestrel |

**Elmi Mənbələr XVI Tezislər Toplusu / 183-186**
**Scientific Sources XVI Collection of Theses / 183-186**
**doi.org/10.36719/2663-4619/2024/XVI**

Piylənmənin müalicəsində işlədilən dərman maddələri iştahanın azalmasına, toxluq hissinin yaranmasına, orqanizmdə baş verən həzm və mübadilə proseslərinə və s. təsir göstərirlər. Piylənmənin farmakoterapiyasında işlənən bəzi dərman maddələri ilə tanış olaq:

***Fentermin.*** Atipik amfetamin analoqudur. Mərkəzi sinir sistemində norepinefrinə təsir göstərməklə iştahanı azaldır. Qısamüddətli istifadə üçün nəzərdə tutulmuşdur. Səbəbi tam öyrənilməsə də epilepsiyanın müalicəsində istifadə edilən topiramatda piylənmə zamanı artıq çəkinin azalmasına səbəb olur. Çox zaman piylənmənin müalicəsi məqsədilə fentermin/topiramat kombinasiyasından istifadə edilir (Chaktoura, Haber, 2023).

***Orlistat.*** Yağların bağırsaqlardan sorulmasını təmin edən mədəaltı vəzi fermenti lipazanın seçici və geridönməz blokatorudur. Preparatla müalicə həkim göstərişi ilə 1 il və daha uzun müddət aparılır (Qəniyev, 2010, s. 137).

***Naltrekson/Bupropion.*** Naltrekson opioid reseptorların antaqonistidir. Bupropion isə serotoninin geriyə sorulma inhibitoru olub, depressiya əleyhinə və siqareti tərgitmək üçün istifadə edilən dərman maddəsidir. Hər iki dərman maddəsinin kombinasiyası xroniki piylənmənin müalicəsi zamanı effektiv təsir göstərir.

***Sibutramin.*** Piylənmənin müalicəsi üçün geniş istifadə edilən dərman maddələrindən biri olmuşdur. Ürək-damar sisteminə göstərdiyi əlavə təsirlərə görə 2010-cu ildə reyestrdən çıxarılmışdır.

***Lorkaserin.*** Dərman maddəsi FDA tərəfindən bədən kütlə indeksi (BKİ) 30 və daha çox olan xəstələrdə pəhriz və fiziki aktivliklə paralel şəkildə istifadə üçün tövsiyə edilmişdir. Xərçəng törətmə riski səbəbilə 2020-ci ilin fevral ayında reyestrdən çıxarılmışdır.

***Liraqlutid.*** GLP-1 (qlükaqonabənzər peptid 1) reseptorlarının aqonistidir. Şəkərli diabet xəstəliyinin və piylənmənin müalicəsində istifadə edilir (Bersoux, Byun, 2017, s. 956).

## Ədəbiyyat

1. Arslan, T. (2023). Pharmacological treatment and current approaches in obesity. Toros University Journal of Health Research, 1(1), 15-43
2. Bersoux, S., Byun, H. T., Chaliki, S. S., Poole, K. G. (2017). Pharmacotherapy for obesity: What you need to know. Cleveland Clinic Journal of Medicine, volume 84, №12, p. 951-958
3. Chaktoura, M., Haber, R., Ghezzawi, M., Rhayem, C., Tcheroyan, R., Mantzoros, C.S. (2023). Pharmacotherapy of obesity: an update on the available medications and drugs under investigation. eClinicalMedicine, Vol. 58, 1-29
4. Kazımzadə, H. (2024). Piylənmə: səbəbləri və fəsadları. Elm və Təhsildə Müasir Tələblər X Tezislər Toplusu, 72-74
5. Qəniyev, M. M. (2010). Farmakologiya. II hissə. Dərslik. Bakı: Təbib nəşriyyatı, 575

Elmi Mənbələr XVI Tezislər Toplusu / 187-189
Scientific Sources XVI Collection of Theses / 187-189
doi.org/10.36719/2663-4619/2024/XVI

**Ceyhun Əmənov**
Lənkəran Dövlət Universiteti
magistrant
ceyhunamanov126@gmail.com

# VII SİNİFDƏ FİZİKADAN QÜVVƏYƏ AİD MÖVZULARIN TƏDRİSİNDƏ VİRTUAL LABORATORİYA İŞLƏRİNİN İSTİFADƏ TEXNOLOGİYASI

***Açar sözlər:*** *laboratoriya, informasiya texnologiyaları, qüvvə, çəki, nyuton qanunları*

***Keywords:*** *laboratory, information technology, force, weight, newton's laws*

Təhsil sahəsində informasiya texnologiyalarının geniş tətbiqi təlimin keyfiyyətinə mühüm təsir göstərmişdir. Bu innovasiyalardan biri olan virtual laboratoriyalar, ənənəvi laboratoriya avadanlıqları ilə müqayisədə daha az maliyyə tələb edir və fizika fənninin tədrisində cihaz çatışmazlığı problemini əhəmiyyətli dərəcədə azaldır. Virtual laboratoriyalar vasitəsilə şagirdlər real laboratoriyada mümkün olmayan təcrübələri rəqəmsal mühitdə izləyərək öyrənə bilirlər. Belə laboratoriyalar, sinifdəki praktiki fəaliyyəti zənginləşdirərək şagirdlərin təcrübi biliklərini gücləndirir və interaktiv öyrənməyə imkan yaradır.Virtual laboratoriyalar şagirdlərə Fizikadan vektor anlayışlarını mənimsəməyə kömək edir, xüsusən də Vll sinifdə qüvvə anlayışının tədrisində. Bu üsul fiziki kəmiyyətlərin istiqamətini və əhəmiyyətini əyani şəkildə göstərir ki, bu da şagirdlərin anlayışını dərindən möhkəmləndirir. Məsələn, PhET simulyatorlarından istifadə edərək, tələbələr vizual olaraq müşahidə edər və qüvvələri və vektorları

doi.org/10.36719/2663-4619/2024/XVI

əhatə edən müxtəlif əməliyyatlarda interaktiv şəkildə məşğul ola bilərlər.Simulyatoru şagirdlərə göstərmək üçün internet vasitəsi ilə aşağıdakı linkə daxil olaq:

**Cisimlər arasında qarşılıqlı təsirin əks təsirə bərabər olduğunu göstərən virtual laboratoriya işi.**

Virtual laboratoriyalar müxtəlif fiziki qanunların əyani nümayişində çox faydalıdır. Nyutonun üçüncü qanununu izah etmək üçün müxtəlif simulyasiyalardan istifadə etməklə, tələbələr itələmə və təsir qüvvələri arasındakı əlaqəni asanlıqla başa düşə bilərlər. Simulyatorlar vasitəsilə onlar dinamometrlərlə işləyərək qüvvələrin əks istiqamətdə bərabər olduğunu müşahidə edə bilərlər. Bu yanaşma tələbələrin təkcə nəzəri biliklərə deyil, həm də praktiki bacarıqlara yiyələnməsini təmin edir.

Nyutonun üçüncü qanunu ilə bağlı aşağıdakı virtual laboratoriya işindən istifadə texnologiyasını nəzərdən keçirək.

1. Simulyasiyanı nümayiş etdimək üçün aşağıda verilmiş linkə daxil olaq:

https://www.vascak.cz/data/android/physicsatschool/template.php?s=mech_newton3&l=tr

2. Simulyatorda bir-birinə birləşdirilən 10 N-luq dinamometrlər əks olunub. Dinamometrlərin göstərişlərini göy və qırmızı düymələr vasitəsilə dəyişdirmək mümkündür.

**Elastiklik qüvvəsinə aid virtual laboratoriya işi.**

Elastik qüvvə izah edilərkən virtual laboratoriyalar vasitəsilə Huk qanununun dəqiq və əyani öyrədilməsi asanlaşdırılır. Şagirdlər yayların uzanması ilə elastik qüvvə arasındakı əlaqəni müşahidə etməklə, fiziki təcrübələrdə elastik qüvvənin əmələ gəlməsini öyrənirlər. Bu simulyasiyalar onların dərsə marağını artırmaqla yanaşı, müxtəlif təlim üsulları ilə tələbələrin müxtəlif tədris vasitələri ilə iştirakını daha səmərəli edir.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Elastiklik qüvvəsinin təsirinilə deformasiyanı şagirdlərə nümayiş etdirmək üçün Phet simulyatoruna daxil oluruq:

https://phet.colorado.edu/sims/html/hookes-law/latest/hookes-law_tr.html

Simulyatordan göründüyü kimi, simulyativ elastik yay tərpənməz dayağa bərkidilib. Elastik yayı deformasiya etdirərək uzatmaq və ya sıxmaq üçün uc hissəsində qırmızı rəngli düymə olan simulyativ tutqacdan istifadə edək

**Çəkisizliyin izahında virtual simulyasiyalar.**

Çəkisizliyin nümayişi də virtual laboratoriyalar vasitəsilə izah edilir. Rəqəmsal mühitdə çəkisizlik anlayışını yaşayaraq, tələbələr dinamometrin dayaqdan ayrıldığı zaman çəkisinin sıfır olduğunu müşahidə edə bilərlər. Bu virtual təcrübələr onlara fiziki qanunları daha yaxşı başa düşməyə və nəzəri biliklərini praktiki müşahidələrlə təsdiq etməyə imkan verir.

**Nəticə və İstifadənin Əhəmiyyəti**

Ümumiyyətlə, virtual laboratoriyalar tələbələrin təhsilində bərabər imkanların yaradılması və çətin nəzəri mövzuların əyani şəkildə dərk edilməsi üçün mühüm vasitədir. Onlar həmçinin fiziki eksperimentlərdə istifadə olunan bahalı avadanlıqlara ehtiyacı azaldır və eyni zamanda daha çox tələbəyə eyni mövzuda praktiki öyrənməyə imkan verir. Bu təcrübələrdən dərsin müxtəlif mərhələlərində istifadə olunur, şagirdlərin dərsə marağını artırır, onların eksperimental təfəkkürünü inkişaf etdirir. Bu cür interaktiv metodlar tədris prosesinin daha zəngin və səmərəli olmasına böyük töhfə verir və gələcəkdə təhsilin müasirləşdirilməsi ehtiyacını ödəyir.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 190-192
Scientific Sources XVI Collection of Theses / 190-192
doi.org/10.36719/2663-4619/2024/XVI

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Natiq Vəliyev**
Azərbaycan Universiteti
magistrant
natig.valiyev@student.au.edu.az

# BULUDDA ŞƏBƏKƏ TƏHLÜKƏSİZLİYİNİN GƏLƏCƏYİ – TƏHLÜKƏSİZ GİRİŞ XİDMƏTİ (SASE)

***Açar sözlər:*** *bulud texnologiyaları, şəbəkə təhlükəsizliyi, təhlükəsiz giriş, kibertəhlükəsizlik, SASE*
***Keywords:*** *cloud technologies, network security, secure access, cyber security, SASE*

Son illərdə bulud texnologiyalarının artan populyarlığı ilə yanaşı, təşkilatların şəbəkə təhlükəsizliyini yeni səviyyələrə qaldırmaq ehtiyacı da artır. İstifadəçilərin və məlumatların buludda yerləşdirilməsi, ənənəvi şəbəkə təhlükəsizliyi yanaşmalarının kifayət etmədiyini göstərir. Təhlükəsiz Giriş Xidməti Edge və ya **SASE (Secure Access Service Edge)** isə bu ehtiyacın öhdəsindən gəlmək üçün nəzərdə tutulmuş ən müasir bir yanaşmadır. Gartner tərəfindən 2019-cu ildə təqdim edilən SASE modeli, bulud əsaslı şəbəkə və təhlükəsizlik xidmətlərinin birləşdirilməsi yolu ilə daha səmərəli və təhlükəsiz bir sistem təmin edir (Cisco, 2021).

**SASE Modelinin Elementləri**

SASE modeli, şəbəkə ilə təhlükəsizlik funksiyalarını bulud əsaslı bir şəkildə birləşdirir və təşkilatlara aşağıdakı əsas xidmətləri təqdim edir:

1. **Şəbəkə Trafikinin Optimizasiyası**: SASE, WAN optimizasiya və SD-WAN (Software-Defined Wide Area Network) texnologiyaları vasitəsilə şəbəkə trafikini optimallaşdırır. Bu, istifadəçilərin daha sürətli və daha sabit bir əlaqə təmin etməsinə kömək edir.
2. **Təhlükəsiz Giriş İdarəetməsi**: SASE, istifadəçi əsaslı autentifikasiya və idarəetmə ilə girişlərin təhlükəsizliyini təmin edir. **Zero Trust Network Access (ZTNA)** kimi mexanizmlər vasitəsilə hər bir istifadəçinin yalnız öz səlahiyyətlərinə uyğun məlumatlara çıxışı təmin edilir.
3. **Mərkəzləşdirilmiş Təhlükəsizlik**: SASE-də təhlükəsizlik funksiyaları, xüsusilə də təhlükəsizlik tədbirləri bir mərkəzdən idarə olunur və **Firewall-as-a-Service (FWaaS)**, **Intrusion Prevention System (IPS)** və **Secure Web Gateway (SWG)** kimi xidmətləri əhatə edir.
4. **Təhlükəsiz Məlumat Şifrələməsi**: Məlumatın buludda təhlükəsiz saxlanması və ötürülməsi üçün məlumatların end-to-end şifrələnməsi təmin edilir.

**SASE-nin Əsas Üstünlükləri**

SASE modelinin tətbiqi ilə şəbəkə təhlükəsizliyi daha dinamik və effektiv olur. Bu modelin təqdim etdiyi üstünlüklər arasında aşağıdakılar qeyd edilə bilər (Doyle, 2020):

- **Layiqli Çeviklik**: SASE, bulud əsaslı olduğundan təşkilatların istənilən yer və cihazdan təhlükəsiz şəbəkəyə qoşulmasını asanlaşdırır.
- **Azaldılmış Kompüter İnfrastrukturu Məsrəfləri**: SASE modelində bir çox şəbəkə və təhlükəsizlik funksiyaları buludda işlədiyindən təşkilatlar üçün maliyyətin optimallaşdırılması təmin edilir.
- **Real-Time Təhlükə Analizi**: Bulud əsaslı təhlükəsizlik ilə potensial təhdidlər real vaxtda təhlil edilir və cavab verilir, bu da təhdidlərə qarşı müdafiəni artırır.

**SASE Modelinin Çətinlikləri və Tətbiqi** SASE, hər nə qədər effektiv bir yanaşma olsa da, tətbiqində müəyyən çətinliklər mövcuddur:

- **Uyğunluq və Məxfilik Məsələləri**: Fərqli bulud xidmətləri arasında məlumatların saxlanması və emalı qaydaları müxtəliflik göstərə bilər və bu da uyğunluq problemləri yaradır.
- **Keçid Dövrü və Texniki Problemlər**: Ənənəvi şəbəkə və təhlükəsizlik infrastrukturlarından SASE-yə keçid, geniş miqyaslı texniki dəyişiklər tələb edə bilər (Gartner, 2019).

Bulud texnologiyalarının inkişafı ilə SASE şəbəkə təhlükəsizliyinin gələcəyində mühüm rol oynayır. Təşkilatlar, təhlükəsizlik risklərinin azaldılması və şəbəkə performansının artırılması üçün SASE modelindən istifadə edərək daha təhlükəsiz və effektiv bir iş mühiti təmin edə bilərlər.

## Ədəbiyyat

1. Cisco. (2021). Secure Access Service Edge (SASE) for Cloud Security. Cisco White Papers. Cisco-nun bu ağ kağızı SASE-nin tətbiqi, çətinlikləri və təşkilatlar üçün üstünlükləri haqqında faydalı məlumatlar təqdim edir.
2. Doyle, T. (2020). SASE Architecture: Secure Access Service Edge Explained.. Bu kitab SASE modelinin arxitekturasını və komponentlərini geniş şəkildə əhatə edir.
3. Gartner. (2019). The Future of Network Security is in the Cloud. Gartner Inc. Bu mənbə SASE anlayışını təqdim edən əsas mənbələrdən biridir və şəbəkə təhlükəsizliyində SASE modelinin əhəmiyyətini izah edir.

Elmi Mənbələr XVI Tezislər Toplusu / 193-196
Scientific Sources XVI Collection of Theses / 193-196
doi.org/10.36719/2663-4619/2024/XVI

**Ruqayyə Həsənova**
Lənkəran dövlət universiteti
magistrant
hassanoffa.r@gmail.com

# MİKROPROSESSOR SİSTEMLƏRİNİN ŞİNLƏRİ

***Açar sözlər:*** *mikroprosessor, şinlər, məlumat, ötürülmə, tənzimlənmə*

***Keywords:*** *microprocessor, buses, data, transmission, regulation*

Mikroprosessor kompüterin və digər elektron cihazların əsas idarəedici komponentidir. Mikroprosessorlar hər hansı bir sistemin əsas hissəsi olaraq bir çox fərqli komponentlər ilə əlaqədə olur və onların düzgün qarşılıqlı əlaqəsi sistemini optimallaşdırmaq üçün vacibdir. Bu əlaqələr xüsusi şinlər vasitəsilə həyata keçirilir. Şinlər - prosessor, yaddaş və giriş-çıxış qurğuları arasında məlumat mübadiləsinin sürətini və effektivliyini artırmaq üçün yaradılmışdır. Onların inkişafı mikroprosessor sistemlərinin ümumi performansına və effektivliyinə mühüm təsir göstərir.

Mikroprosessor şinləri üç əsas komponentdən ibarətdir:

1. Məlumat şini (Data Bus): Mikroprosessor və yaddaş, yaxud giriş-çıxış qurğuları arasında məlumatların ötürülməsi üçün istifadə olunur. Bu şin həmçinin verilənlərin oxunması və yazılması əməliyyatlarını tənzimləyir (Smith, 2019).
2. Adres şini (Address Bus): Bu şin məlumatların hansı ünvanlarda saxlandığını təyin edir və yaddaşda olan verilənlərin oxunacağı, yaxud yazılacağı konkret ünvanı müəyyənləşdirir. Adres şini yalnız bir istiqamətli fəaliyyət göstərir (Patel, 2022).

3. Nəzarət şini (Control Bus): Bu şin prosessorun digər komponentlər üzərində nəzarət etməsi üçün siqnallar ötürür və sistemdə əmrlərin yerinə yetirilməsini tənzimləyir (Brown, 2019).

Mikroprosessor sistemlərində müxtəlif tip şinlər istifadə olunur:

Bir yönlü şinlər (Single Bus Systems): Bu şinlərdə məlumatların eyni xətt üzərindən göndərilməsi və alınması həyata keçirilir. Lakin bir istiqamətli işləmələri onların istifadəsində məhdudiyyətlər yaradır (Kumar, 2020).

Çox yönlü şinlər (Multiple Bus Systems): Çox yönlü şinlər məlumatların eyni zamanda bir neçə istiqamətdə ötürülməsinə imkan verir, bu da ümumi sistemi daha məhsuldar edir (Brown, 2019).

PCI (Peripheral Component Interconnect): PCI şinləri kompüter və digər mikroprosessor əsaslı sistemlərdə periferik qurğuların yüksək sürətlə bağlanması üçün geniş istifadə olunur (Smith, 2019)

USB (Universal Serial Bus): USB şinləri həm məlumat ötürülməsi, həm də enerji təchizatı üçün istifadə olunan müasir interfeysdir və bir çox cihazları dəstəkləyir (Patel, 2022).

Son illərdə şinlərin effektivliyi və sürətini artırmaq üçün müxtəlif texnologiyalar təkmilləşdirilmişdir. DDR (Double Data Rate) texnologiyası ilə məlumat şinlərinin ötürmə qabiliyyəti iki dəfə artırılmışdır. HyperTransport və QuickPath Interconnect (QPI) texnologiyaları da yüksək sürətli məlumat mübadiləsi təmin etmək məqsədilə inkişaf etdirilmişdir (Jones, 2021). Şinlərin inkişafı, paralel işləmə və çox nüvəli prosessor sistemlərinin geniş yayılması ilə daha da zəruri olmuşdur.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

| **Şin növü** | **Funksiya** | **Məlumat axını növü** | **İstifadə sahəsi** |
|---|---|---|---|
| Məlumat şini (Data Bus) | Mikroprosessor və yaddaş arasında məlumat ötürülməsi | İki yönlü | Bütün mikropro-sessor sistemləri |
| Adres şini (Add-ress bus) | Yaddaş ünvanlarının müəyyənləşdirilməsi | Bir yönlü | Yaddaş idarəetməsi |
| Nəzarət şini (Con-trol bus) | Əmrlərin icrasını tənzimləmək | İki yönlü | Prosessorun digər komponentləri ilə əlaqəsi |
| PCI (Peripheral Component Interconnect) | Periferik qurğuların sistemə bağlanması | İki yönlü | Kompüter və mik-roprosessor sistem-li əsaslar |
| USB (Universal Serial Bus) | Məlumat ötürülməsi və enerji təchizatı | İki yönlü | Müasir kompüter və mobil qurğular |
| DDR (Double Data Rate) | Məlumat ötürmə sürətinin artırılması | İki yönlü | Yüksək performanslı yaddaş sistemləri |
| Hyper Transport | Yüksək sürətli məlumat mübadiləsi | İki yönlü | Çoxnüvəli prosessor sistemləri |
| QuickPath Intercorrect (QPI) | Yüksək sürətli məlumat mübadiləsi | İki yönlü | Çoxnüvəli prosessor sistemləri |

Mikroprosessor sistemlərində şinlər, məlumat mübadiləsinin mərkəzi elementi olaraq, sistemin səmərəliliyini və performansını müəyyən edir. Müasir DDR4 və DDR5 yaddaş texnologiyaları ilə birlikdə, PCI Express interfeysləri məlumatların sürətli və effektiv ötürülməsini təmin edir. Gələcəkdə optik şinlər və kvant şinləri kimi innovativ yanaşmalar, məlumatın işıq sürətində ötürülməsinə imkan verərək sistem performansını radikal şəkildə artıracaq.

**doi.org/10.36719/2663-4619/2024/XVI**

Eyni zamanda, şinlərin intelligent routing metodları ilə optimallaşdırılması, məlumat mübadiləsini daha çevik və səmərəli edəcək. Süni intellekt və maşın öyrənmə texnologiyalarının tətbiqi, şinlərin idarə olunmasını daha da müasirləşdirərək, sistemin yükünü balanslaşdırmağa və məlumatların optimal şəkildə marşrutlaşdırılmasına kömək edəcək. Nəticə olaraq, şinlərin davamlı inkişafı mikroprosessor sistemlərinin gələcəyini formalaşdıraraq daha sürətli, güclü və intellektual sistemlərin yaranmasına şərait yaradacaqdır.

## Ədəbiyyat

1. Advanced Microprocessor Interfacing Techniques. Wiley. Jones, T. (2021).
2. High-Speed Bus Systems for Modern Microprocessors. Elsevier. Patel, S. (2022).
3. Microprocessor Architecture and Buses: A Comprehensive Guide. McGraw-Hill. Kumar, R. (2020).
4. Modern Data Transmission in Microprocessor Systems. Springer. Brown, J. (2019).
5. Peripheral Interconnects and Microprocessor Bus Standards. IEEE Press. Smith, A. (2019).

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Sevinc Səlimova**
Onomastik vahidlərin öyrənilməsi tarixinə dair ........................ 7
**Nazilə Abdullazadə**
XX əsr Azərbaycan şairi Əliağa Vahidin bəhri-təvili
üzərinə düşüncələr ........................................................... 10
**Aynur Quliyeva**
İngilis və Azərbaycan dillərində rəng anlayışının
semantikası ..................................................................... 14
**Şahzadə Şirinova**
Müasir idarəetmə sistemində daxili audit və korporativ
sosial məsuliyyət arasındakı qarşılıqlı əlaqə .......................... 18
**Ülfət Sadıqov**
Kritik infrastrukturların kommunikasiya sistemlərində
informasiya təhlükəsizliyinin təmin olunması üçün
üsulların işlənməsi ........................................................... 21
**Mehriban Hacızadə**
Dilçilikdə eyham anlayışı .................................................. 28
**Şəhanə Əsgərova**
Bədii mətnlərdə təkririn üslubi funksiyaları
(Fransız dili materialları əsasında) ...................................... 32
**Zita Huseynova, Sevinj Mustafazadeh**
The notion of "concept" in modern linguistics ....................... 35
**Şəhla Abadova**
Gənc ailələrdə münaqişənin əsas səbəbləri ............................ 39
**Ülkər Abbaslı**
Durğun su ekosistemlərində suyun tərkibinin
öyrənilməsi üçün informasiya texnologiyalarının
istifadəsinin qiymətləndirilməsi ........................................... 43

**Aqil Əliyev**
Leopold və Mstislav Rostropoviç xatirə - ev muzeyi - Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü kimi .............. 46
**Səlminaz Əhmədova**
Azərbaycan Musiqi Mədəniyyət Dövlət Muzeyinin musiqi alətlərinə göstərdiyi qayğı .................................................... 49
**Sifayə Abbaslı**
Uşaq evlərində yaşayan valideyn himayəsindən məhrum olan uşaqlarla sosial işin təşkili ............................... 52
**Şövkət Rəhimova**
“İsmayıl Hidayətzadənin teatrımızdakı yeri” ......................... 56
**Samirə Yusifova**
Beynəlxalq sosial siyasətdə ölkə iqtisadiyyatının rolu .......... 58
**Səbuhi Fətullazadə**
Hərbi vəziyyətdə psixi sağlamlıq, travmalar və terapiya üsulları ........................................................................... 63
**Aytac Həsənova**
Kiber zorakılıq müasir dövrün aktual problemi kimi ............. 66
**Suzanna Osmanova**
Səməd Vurğunun ev muzeyindəki rəsm əsərlərinin ekspozisiyada əhəmiyyəti ..................................................... 69
**Aytac Hüseynli**
Müstəqillik dövründə Azərbaycanda sosial xidmətin inkişafı ........................................................................... 72
**Azadə Nəzirova**
Arxiv sənədlərində Qarabağ xanlığının daxili siyasəti .......... 76
**Cəmilə Rüstəmova**
İnsan alveri qurbanlarının sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyasında sosial xidmətlərin təşkili ............ 80
**Ceyhunə Əhədli**
Əlilliyi olan şəxslərin reabilitasiyasında psixososial yanaşmanın təsiri .................................................................. 84
**Əli Məmmədli**
Seyid Əzim Şirvaninin arxiv fondunun qorunmasının nəzəri əsasları və müasir problemləri .................................... 89

**Fuad Rüstəmli**
Koronavirus dövründə H.Z.Tağıyevin ev muzeyinin fəaliyyəti ........ 92
**Emin Məmmədov**
Müharibə şəraitində əlillik qazanmış şəxslərin sosial hüquqları ........ 95
**Firuzə Əliyeva**
Gender əsaslı zorakılığa məruz qalmış şəxslərlə sosial işin təşkili ........ 99
**Niyaməddin Rzayev**
Orta məktəbdə elektrostatikanın öyrənilməsi üzrə təcrübə işi ........ 103
**Pəri Ədilova**
Azərbaycan Respublikasının Şəki bölgəsində tarixi-arxeoloji abidələrin qorunması səviyyəsi: reallıqlar və perspektivlər ........ 106
**Rəcəb Həsənov**
Fotoelektrik effektinin öyrənilməsi ........ 110
**Gözəl Mustafayeva**
Azərbaycan dilinin sintaksisinin orta məktəb səviyyəsində tədrisinin əhəmiyyəti və əsas məqsədləri ........ 113
**Mələk Nadirli**
Yaşıl iqtisadiyyat ........ 117
**Gunel Bayramlı**
Organization of social work with dementia patients: opportunities and challenges ........ 121
**Elvira Şiriyeva**
İnformasiya sisteminin alt sistemləri ........ 125
**Rübabə Quluzadə**
Naxçıvan şəhərinin sənətkarlıq sahələri ........ 127
**Şadgün Məmmədova**
Muzey Sərvətləri və Xatirə Əşyalarının Elmi Bərpa Mərkəzinin bərpa üsulları ........ 130

**Hacı Soduyev**
Qarabağa işğaldan sonrakı qayıdış: sosial-psixoloji reinteqrasiya problemlərinin təhlili .......................................135
**Nazim Hüseynov**
Müəllim-şagird münasibətləri əməkdaşlıq müstəvisində .....140
**Nigar Rzazadə**
Azərbaycanda erkən nikah probleminin sosial həlli yolları ......................................................................................143
**Nərmin Əliyeva**
Orta məktəbdə fizikanın öyrənilməsində məsələ həllinin rolu .........................................................................................147
**Nərmin Piriyeva**
Azərbaycanın regionlarında turizmin inkişafının konseptual problemləri .........................................................151
**Ağamirzə Cəfərov**
Çirklənmiş suların təmizlənmə texnologiyasının suvarma sistemlərində istifadəsi ........................................................154
**İbrahim Məmmədli**
Tənha qocaların sosial-psixoloji və tibbi problemləri ..........159
**Həmid Səfərov**
Tibb bacılarının peşə xəstəliyi: “şəfqət yorğunluğu” ...........164
**Təhminə Həsənzadə**
Obsessiv-kompulsiv pozuntunun yaranma səbəbləri və müalicə metodları ..............................................................168

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**İsa Hüseynov, Nisə İsayeva**
“Kimyəvi proseslərdə reaksiya mühiti, şəraiti və xarici təsir anlayışları üzrə biliklərin formalaşması” ...........172
**Ramiz Şəmmədov, Mehriban Qüvvətli**
Lənkəran-Astara iqtisadi rayonunda müxtəlif mənşəli tullantılar ilə çirklənmiş torpaqların ekoloji vəziyyəti ........176

**İsa Hüseynov, Könül Əmiraslanova**
"Kimyanın tədrisində ekstraksiya prosesləri üzrə biliklərin formalaşması" ........ 179
**Hüseyn Kazımzadə, Həmid Səfərov**
Piylənmənin farmakoterapiyası ........ 183
**Ceyhun Əmənov**
VII sinifdə fizikadan qüvvəyə aid mövzuların tədrisində virtual laboratoriya işlərinin istifadə texnologiyası ........ 187

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Natiq Vəliyev**
Buludda şəbəkə təhlükəsizliyinin gələcəyi – təhlükəsiz giriş xidməti (SASE) ........ 190
**Ruqayyə Həsənova**
Mikroprosessor sistemlərinin şinləri ........ 193

İmzalandı: 25.11.2024
Onlayn çap: 01.12.2024
Formatı: 60/84, 1/16
H/n həcmi: 12,75 ç.v.
Sifariş: 822

---

https://aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.,
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: + 994 50 209 59 68
+ 994 55 209 59 68
+ 994 12 510 63 99
e-mail: info@aem.az